# Xalq qəzeti

Xalqın qəzeti!

№ 168 (30284) 10 avqust 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün sözü

**Prezident İlham Əliyev:**

**Biz görürük ki, bu gün beynəlxalq hüquq normaları kobud şəkildə pozulur. Biz görürük ki, beynəlxalq hüquq selektiv tətbiq edilir. Biz uzun illər bu yanaşmaya məruz qalmışıq. Bu gün həmin o tendensiya davam edir.**

## Azərbaycanın inkişafını “Azəri–Çıraq–Günəşli”siz təsəvvür etmək mümkün deyil

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edildi və yenidən tərtib olunan Sazişin imzalanması mərasimi keçirildi. Bununla da “Azəri–Çıraq–Günəşli”nin (AÇG) işlənilməsində yeni dövr başlandı.**

Dövlətimizin başçısı akademik Xoşbəxt Yusifzadənin 90 illik yubileyi münasibətilə keçirilən mərasimindəki çıxışında ölkəmizin digər yataqları arasında “Azəri”, “Çıraq” və “Günəşli”nin xüsusi yer tutduğunu bildirərək deyib: “Bu yatağın sovet dövründə aşkarlanması böyük hadisə idi. Çünki Xəzərdə ən böyük neft yatağıdır.

(ardı 7-ci səhifədə)



## Erməni “xaçlılar” və Qarabağ avantürasında “müasir dini zəmin”

**1095-ci ildə Fransanın Klermon şəhərində Papa II Urban “müqəddəs torpağın (Qüdsün) kafirlərdən azad edilməsi” çağırışı ilə bütün xristian dövlətlərinin qoşulduğu hərbi kampaniya başlatdı. Bu kampaniya tarixə Xaç və ya Səlib yürüşləri adı ilə daxil oldu.**

Xaç yürüşləri qarətçi xarakter daşıdı. Dini pərdə altında gizlənmiş səlibçilərin məqsədi Şərqin zəngin torpaqlarının ələ keçirilməsi idi. Üzərindən illər keçdikdən sonra marksist-bolşevik tarixşünaslığı deyəcəkdi ki, istənilən quruluşu məhv etmək üçün onun sifətindəki müqəddəslik maskasını cırıb atmaq lazımdır. Bəli, Xaç yürüşləri də, əslində, sifətində müqəddəslik maskası olan tarixin talançı səhifələridir. Yəni, hansı səmtdən yanaşsaq, nəticə dəyişmir. Maska isə elə o dönəmdə cırıldı. Prosesi avropalıların özləri gerçəkləşdirdilər. Bu barədə söz açacağıq. Hələlik isə… İkinci Qarabağ müharibəsi günlərində ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarının üzvləri ölkənin sabiq Prezidenti Donald Trampa “dərdlərini” söyləmək imkanı qazanmışdılar. Onlar bildirmişdilər ki, bəs, Qarabağdakı savaş müsəlmanların xristianlara qarşı apardıqları müharibədir.

(ardı 3-cü səhifədə)

## Ermənistan iddialarından əl çəkmir



**Ermənistan Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun yaxınlığında, Arazdəyən kəndində ABŞ sərmayəsi ilə iri metallurgiya zavodu tikmək fikrindən dönmür və bununla bağlı Azərbaycanın haqlı narazılığını qəbul etmək istəmir. İşğalçı ölkə, hətta sözügedən məsələdə respublikamıza qarşı ittihamlar irəli sürməkdən belə çəkinmir.**

Bu barədə Ermənistanın Ətraf Mühit Nazirliyinin mətbuat katibi Ani Akopyan ölkəsinin “News.am” saytına təmsil etdiyi qurumun departament rəhbəri Hakop Simidyanın fikirlərinə əsaslanaraq verdiyi müsahibədə tikiləcək müəssisənin bütün ekoloji standartlara və tələblərə uyğun olacağını bildirir və Azərbaycandan “Ermənistanın suveren ərazisində qeyri-qanuni güc tətbiqini dayandırmağı” tələb edir. A.Akopyan belə bir riyakar bəyanatı ilə kifayətlənməyərək, 70 milyon ABŞ dolları sərmayə ilə tikilən böyük metallurgiya müəssisəsinin Azərbaycan ərazisindən mütəmadi olaraq atəşə tutulduğu, inşaat işlərinin qarşısının alındığı kimi iftiralar da səsləndirir.

(ardı 7-ci səhifədə)

## Xankəndidə bayrağımızı sancacağımız yer hazırdır

**Hazırda Qarabağda yaranmış vəziyyəti, sadəcə, anomal adlandırmaq olar. Bu anomallığı şərtləndirən əsas amillərdən biri burada yaşayan ermənilərin özlərindən asılı olmayan qeyri-müəyyən vəziyyətə düşmələridir. Onların bu duruma düşmələrinin səbəbkarı isə “mənzil-qərargahı” Xankəndidə yerləşən separatçı xunta rejimidir. Daxildən çatları görünməyə başlamış rejim özünün utopik və ümidsiz ideyaları naminə həmin sıravi ermənilərdən girov kimi istifadə edir.**



Bu, eləcə də Qarabağ ermənilərini gözləyən aqibət, bölgədə maraqları toqquşan tərəflərin sərgilədiyi davranışların motivləri və modelləri, Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə “Euronews” televiziyasına müsahibəsində regionun sakinlərinə müraciətinin əhəmiyyəti barədə “Caliber.Az” saytının əməkdaşı Orxan Amaşovun şərhinin tərcüməsini yüngül improvizə ilə oxucularımızla bölüşmək qərarına gəldik.

(ardı 4-cü səhifədə)

## Qonçar getdi, Zaytsev gəldi

### *Rusiyanın Bakı–İrəvan sülh sazişi ilə bağlı mövqeyi kimə sərfəlidir?*



**Sən demə, Rusiyanın Xarici İşlər Nazirliyində qurumun rəsmi nümayəndəsi Mariya Zaxarovadan başqa da brifinq keçirən var imiş. Əlbəttə, buna o qədər də təəccüblənmədik. Təəccübümüz XİN İnformasiya və Mətbuat Departamentinin direktor müavini kimi təqdim edilən Aleksey Zaytsevin həmin brifinqdə bildirdikləridir. Cənab Zaytsev təmsil olunduğu dövlət orqanının Müstəqil Dövlətlər Birliyi üzrə dördüncü departamentinin direktoru Aleksey Qonçarın bir müddət əvvəl söylədiklərinə şərh verib. Onun nə dediyini diqqətə çatdıracağıq. Hələlik isə A.Qonçarın fikirlərini yada salaq.**

A.Qonçar Bakı ilə İrəvan arasında tez bir zamanda sülh müqaviləsinin imzalanmasının mümkünsüzlüyündən söz açarkən, bunun yeni konfliktlər doğuracağı rəyini vermişdi: “Tələsik hazırlanmış, xam sülh müqaviləsi regiona davamlı sülh gətirməyəcək. Əksinə, gələcəkdə yeni münaqişələrin, faciələrin əsasını qoyacaq. Prioritet sürətə deyil, balanslaşdırılmış və qarşılıqlı məqbul qərarların keyfiyyətli hazırlanmasına verilməlidir”.

Əlbəttə, ilk baxışdan departament direktorunun fikirlərini qəribçiliyə salmağın əleyhinəyik. Doğrudan da, sülh müqaviləsi özündə bütün məqamları və parametrləri əks etdirməlidir, bu, öz yerində. Problemli məqam isə ondadır ki, ümumən Rusiyada sözügedən sazişin vaxtı ilə bağlı hansısa təsəvvür yoxdur. Üstəlik, ölkənin mövcud istiqamətdə səy göstərdiyi də görünmür. Baxmayaraq ki, Moskva Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi üzrə əsas vasitəçidir və prinsip etibarilə onun prioriteti məhz sülh müqaviləsi olmalıdır.

Rusiya bunun yerinə özünün vasitəçiliyi ilə keçirilmiş ayrı-ayrı görüşləri gündəmə gətirir, ən yaxşı (pis) halda, sanki minnət edirmiş kimi, 44 günlük müharibəyə son qoyan tərəf olduğunu qabardır. Sual olunur: bu sonqoyma kimin işinə yaradı? Azərbaycan onsuz da Ermənistanın dizini yerə gətirəcəkdi. Dizi yerə gəlməyə yaxın olan bir ölkə indi durub hansısa şərtlər irəli sürürsə, sadə məntiq deyir ki, Moskvanın 10 noyabr üçtərəfli Bəyanatın imzalanmasına nail olmaqla təmin etdiyi atəşkəs rejimi dayanıqlı deyil, hər an bölgədə qanlı qarşıdurma alovlana bilər. Daha sual vermirik ki, vəziyyətin belə şəkil alması Cənubi Qafqazdan bərk yapışan ölkə kimi Rusiyanın maraq və mənafelərinə uyğundur, ya yox? Çünki görünən dağa bələdçi nə gərək?

(ardı 2-ci səhifədə)

## “Bir müəllimin manifesti” Qazaxda

**Yeni əsrin əvvəllərindən ölkəmizin tərəqqisinin əsas istiqamətlərindən birini regionların inkişafı təşkil edir. 2004-cü ilin fevral ayında Prezident İlham Əliyevin imzaladığı fərmanla Regionların sosial-iqtisadi inkişafı üzrə ilk Dövlət Proqramı (2004–2008-ci illər) təsdiq olunub. Sonrakı dönəmlərdə daha 4 belə proqram qəbul edilib və nəzərdə tutulan bütün tədbirlər uğurla həyata keçirilib. Xüsusi fərəh doğuran cəhət bundan ibarətdir ki, dövlət başçısı vaxtaşırı bölgələrə səfərə çıxaraq həmin tədbirlərin icrasına şəxsən özü nəzarət edir və konkret sahələrin inkişafı ilə bağlı yeni sərəncamlar verilməklə regional proqramlara əlavələr olunur.**





Doğrudur, son üç ildə Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunmuş ərazilərində bərpa və yenidənqurma işləri geniş vüsət alıb. Bununla yanaşı, digər şəhər və rayonların da dövlət başçısının diqqət mərkəzində olması, bütün bölgələrdə həyat səviyyəsinin yüksəldilməsi səyləri son dərəcə təqdirəlayiqdir. Hər bir belə səfər bölgələrə, sözün əsl mənasında, xeyir-bərəkət gətirir, yeni iş yerlərinin açılması, yol-nəqliyyat infrastrukturunun yaxşılaşması, təhsilin və mədəni sferanın genişləndirilməsi ilə müşayiət olunur.

(ardı 8-ci səhifədə)




## Rusiya–Ukrayna müharibəsi: yeni dağıntılar və itkilər

**Anomal istilərin dünyanı ənginə aldığı bu günlərdə planetimizin bir guşəsi var ki, orada ağır döyüşlər nəinki səngimir, əksinə, günbəgün güclənir. Bura mehriban və vətənpərvər insanların doğma yurdu olan Ukraynadır. Orada insanlar təkcə dözülməz istilərdən əziyyət çəkmir, onlar üçün daha dəhşətlisi bomba və raketlərin yaratdığı ölüm qorxusu və ağır məhrumiyyətlərdir.**

(ardı 10-cu səhifədə)



## M.İ.Adnayevanın Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Mahirə İsmayıl qızı Adnayeva Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 avqust 2023-cü il**

## Tərəfdaşlığın yeni istiqamətləri müzakirə edilib



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Ştefani Ştalmeyster ilə görüşüb.**

Nazir Azərbaycanın Dünya Bankı ilə uğurla əməkdaşlıq etdiyini vurğulayıb. Ölkəmizdə bankın göstərdiyi texniki yardım və maliyyə dəstəyi layihələrinin yüksək qiymətləndirildiyini bildirib. M.Cabbarov qeyd edib ki, Dünya Bankı ilə əlaqələrimiz çoxşaxəlidir. Bankla özəl sektorun diaqnostikası, innovasiyalar, rəqəmsal inkişaf, idarəetmə texnologiyalarının inkişafı, bərpa olunan enerji və digər sahələrdə əməkdaşlıq Azərbaycanda qabaqcıl beynəlxalq təcrübənin tətbiqi, müasir texnologiya və yeniliklərin ölkəmizə gətirilməsi baxımından xüsusi önəm kəsb edir.

Ştefani Ştalmeyster ölkəmizin strateji inkişaf məqsədlərinə nail olunması istiqamətində bankın Azərbaycan hökuməti ilə sıx əməkdaşlığı davam etdirəcəyinə əminliyini bildirib, tərəfdaşlığın yeni istiqamətləri barədə fikirlərini bölüşüb.

## XİN Beynəlxalq Astronavtika Konqresi ilə bağlı viza sadələşdirilməsinə dair məlumat yayıb

**Azərbaycan Xarici İşlər Nazirliyi 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikasına gəlmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat yayıb.**

Nazirlikdən bildiriblər ki, 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2023-cü il sentyabrın 20-dən oktyabrın 7-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

Viza verilməsi üçün aşağıdakı sənədlərdən biri əsas hesab edilir:

1. 74-cü Beynəlxalq Astronavtika Konqresinin beynəlxalq təşkilatçısı olan Beynəlxalq Astronavtika Federasiyasının müvafiq qaydalarına uyğun olaraq elektron qeydiyyat sistemi vasitəsilə qeydiyyatdan keçməni təsdiq edən sənəd;

2. 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin rəsmi dəvət məktubu.

## Tarixi Şəhərlər Liqasının prezidenti Şuşaya qonaq dəvət edildi



**Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov Yaponiyaya səfəri çərçivəsində avqustun 8-də Kioto şəhərində olub və burada şəhərin meri, eyni zamanda, Tarixi Şəhərlər Liqasının prezidenti Daisaku Kadokava ilə görüşüb.**

Görüş zamanı Şuşa şəhərinin Liqadakı fəaliyyəti barədə danışılıb, zəngin tarixə, mədəniyyətə məxsus, Tarixi Şəhərlər Liqasının üzvləri olan Şuşa ilə Kioto arasında münasibətlərin və əməkdaşlığın daha da möhkəmlənməsi istiqamətində fikir mübadiləsi aparılıb, təkliflər irəli sürülüb.

Daisaku Kadokava hazırda Qarabağda, o cümlədən Şuşada aparılan bərpa-quruculuq işləri barədə məlumatlı olduğunu bildirib, postmünaqişə dövründə sülh istiqamətində atılan addımları, əhalinin öz yurd-yuvalarına köçmələri üçün görülən işləri, bərpa-quruculuq layihələrini yüksək qiymətləndirib.

Öz növbəsində Aydın Kərimov Daisaku Kadokavanı Azərbaycana, Şuşa şəhərinə qonaq dəvət edib.

Qeyd edək ki, Azərbaycanın Şuşa şəhəri 2022-ci il noyabrın 14–16-da Cənubi Koreyanın Andonq şəhərində baş tutan 18-ci Dünya Konfransı çərçivəsində keçirilən Baş Assembleyanın iclasında Tarixi Şəhərlər Liqasının üzvlüyünə qəbul olunub.

## Ayxan Hacızadə Litva nazirinə həqiqəti çatdırdı

**Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Litvanın xarici işlər naziri Qabrielius Landsbergisin paylaşımına cavab verib.**

Bu barədə A.Hacızadə "Twitter" hesabında qeyd edib.

"Cənab nazir Landsbergis, yaxşı olardı ki, saxta erməni təbliğatına aldanmayasınız. Laçın yolu Ermənistan tərəfindən son üç il ərzində sui-istifadə edilib. Təəssüf ki, bütün bu illər ərzində Litva susqunluq nümayiş etdirib. Azərbaycan Ermənistanın pisniyyətli əməllərinin qarşısını almaq məqsədilə Laçın sərhədində yoxlanış məntəqəsi yaradıb və çatdırmalar üçün Ağdam-Xankəndi yolundan istifadə edilməsini təklif edib. Bu arada isə, Beynəlxalq Ədalət Məhkəməsinin 6 iyul qərarı Ermənistanın yoxlanış məntəqəsinin ləğvi üçün müraciətini yekdilliklə rədd edib. Azərbaycan erməni sakinlərin hər iki istiqamətdə nəqlini asanlaşdırır. Ermənistanı sülh prosesini baltalamaq yerinə daha konstruktiv yanaşma nümayiş etdirməyə çağırmaq daha uyğun olardı.", - deyə o,əlavə edib.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

## "Forbes"in birtərəfli təbliğat üçün platforma təmin etməsi təəssüf doğurur

**"Evelina Oçab, sizin "Forbes" nəşrindəki məqaləniz reallığı təhrif edir, birtərəflidir və Ermənistanın təbliğat-dezinformasiya maşını tərəfindən istifadə olunur".**



Bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" ("Twitter")də yazıb.

O, "Forbes" nəşrində məqaləsi dərc edilən Evelina Oçab adlı müəllifin fikirlərinə münasibət bildirib:

"Bir insan haqları vəkili olaraq siz heç vaxt Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmış milyondan çox azərbaycanlının hüquqları və ağır vəziyyətinə dair məsələ qaldırmamısınız.

Azərbaycan Ermənistanın 30 illik dağıdıcı işğalından əziyyət çəkib. Ermənistanın basdırdığı minalar nəticəsində Azərbaycanın mülki əhalisi mina terrorunun qurbanına çevrilir. Laçın yolu Ermənistan tərəfindən minaların qanunsuz dövriyyəsi üçün istifadə olunur. Lakin siz bütün bunlarla bağlı susmusunuz. Sizin məqaləniz Azərbaycanın Laçın yolu ilə yanaşı, Ağdam-Xankəndi yolunun açılması təklifinin üstündən keçir. Ermənistanın himayə etdiyi marionet separatçı rejim bizim Qarabağ regionumuzun erməni sakinlərini girov saxlayır.

İnsan haqları müdafiəçisi kimi nəcib bir status neytrallıq, siyasi manipulyasiyadan uzaqlıq, obyektivlik və ədalətli olmağı tələb edir. Mən təəssüf edirəm ki, sizin "Forbes"dəki məqalənizdə bu məziyyətləri görməmişəm. Həmçinin təəssüf edirəm ki, "Forbes" bu cür birtərəfli təbliğat üçün platforma təmin edir", - deyə H. Hacıyev paylaşımında qeyd edib.

***Q.QASIMOV, "Xalq qəzeti"***

## Laçının daha 93 sakini doğma yurda qayıtdı

**Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə - 93 nəfər köçürülüb.**



Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Laçın şəhərində 203 ailə, yəni 793 nəfərin daimi məskunlaşması təmin edilib.

# Qonçar getdi, Zaytsev gəldi

## *Rusiyanın Bakı–İrəvan sülh sazişi ilə bağlı mövqeyi kimə sərfəlidir?*

**(əvvəli 1- ci səhifədə)**

Bəli, ötən müddətdə Rusiyanın vasitəçilik missiyasında səmimilik göstərdiyini söyləmək mümkünsüzdür. Belə təəssürat var ki, Moskva bu məsələni daha çox Qərblə qlobal rəqabət platformasındakı vasitəyə çevirir. Əlbəttə, Qərb Rusiyanı Cənubi Qafqazdan çıxarmaq istəyir. Buna kimsənin şübhəsi yoxdur. Amma Azərbaycan Prezidenti İlham Əliyevin də vurğuladığı kimi, Qərb–Rusiya rəqabəti nə zaman, harada olmayıb ki?

Bəli, Qərb–Rusiya rəqabəti hər zaman, ən müxtəlif platformalarda özünü göstərib. Ancaq, bu, o demək deyil ki, Moskva sülh ritorikasını həmin rəqabətin əsirinə çevirməlidir. Əslində, istər Lavrovun, istərsə Qonçarın Bakı–İrəvan razılaşması ilə bağlı söylədikləri haqqında söz açdığımız çevirmə meyilin mövcudluğundan xəbər verir. Elə ona görə onların sülh müqaviləsinin hərtərəfli məzmunlu olmasına, bütün tərəflərin maraqlarının nəzərə alınmasına dair fikirləri səmimi qarşılanmır.

Digər tərəfdən, 44 günlük müharibədən sonra Qarabağın ölmüş statusu söhbətini ortaya atmaqla, Azərbaycanda qıcıq, Ermənistanda illüziya yaradan Rusiya rəsmiləri olmuşdu və bu da Moskvanın hazırda, belə demək mümkünsə, sülhsüzlüklə manipulyasiya niyyətinin olduğuna dair qənaət formalaşdırmaqdadır.

Başqa bir yandan, məgər SSRİ İkinci Dünya müharibəsində məğlubiyyətə uğratdığı Almaniyaya aman vermişdi? Həmin vaxt almanların maraqları nəzərə alınmışdı? Əlbəttə, yox. Axı, nasistlərin Moskvanın həndəvərinədək gəlmələrinə bəraət olmamalı idi. Niyə Azərbaycan otuz ilə qədər davam etmiş erməni işğalına bəraət şansı verməlidir?

SSRİ-nin humanistliyi Almaniyanı yarıya bölməklə kifayətlənməsi üzərində qurulmuşdu. Azərbaycan 44 günlük savaşda İrəvanı ələ keçirməyib. İndi də öz torpağında, öz hakimiyyətinin qurulmasına çalışır. Kremlin isə hərəkətlərindən belə qənaət hasil olur ki, Moskva bu çalışmanı erməni avantürizminin Qarabağ köklənişi müstəvisinə gətirmək yolu tutmaqdadır. Əks halda, sülh niyə təmin edilməsin ki? Nəhayət, Rusiya üçtərəfli bəyanat məntiqinə köklənirsə, buyursun, həmin sənədin icrasına həssas yanaşsın. Məsələn, Qarabağdakı qeyri-qanuni erməni hərbi birləşmələrini oradan çıxarsın, Azərbaycanın digər bölgələri ilə Naxçıvanı birləşdirən quru yolunun açılmasını təmin etsin.

*

Nə isə, onun üçün lazımsız olan məsələlərlə Rusiyanı yükləməkdən uzaq durub keçək mətləbə. Mətləb isə Qonçarın dediklərinə Zaytsevin şərhidir. Bəri başdan bildirək ki, ikinci birinciyə haqq qazandırmaq istəyi ilə gündəmə gəlib ki, əksi yaşansaydı, təəccüblənərdik. Ancaq yenə təəccüblənirik. Çünki Zaytsev Qonçardan fərqli olaraq, necə deyərlər, daha dərinə gedir. Məsələn, o, bildirir ki, Bakı və İrəvanın tezliklə sülhə nail olmaq öhdəliyi ilə bağlı siqnalı tərəflərin istənilən şərtlərlə razılaşmağa hazırlıqlarını ifadə etmir. Hələ bir sıra mürəkkəb mövzular üzrə həll yolları tapılmalıdır. Deməli, Azərbaycan və Ermənistan rəsmiləri boş-boş işlərlə məşğuldur?..

Əlbəttə, Zaytsev mürəkkəb mövzular dedikdə nələri nəzərdə tutduğunu açıqlamayıb. Əslində, heç açıqlaya da bilməz. Çünki birincisi, Rusiya indiyədək prinsipial mövqeyini açıqlayıb. Təxminən belə: müharibə edib qurtardınız, indi gözləyin... Nəyi gözləyək? Gözləməliyik ki, Qarabağdakı Rusiya sülhməramlıları bölgənin erməni separatçılarını silahlandırmalarına şərait yaratsınlar, onlar da yenidən üstümüzə gəlsinlər?! Bəlkə, gözləyək ki, Ermənistan İran və Hindistandan sifariş etdiyi silahları gətirib hərbi arsenalına daxil etsin, ölkənin ordu birləşmələri həmin silahlarla rəftarı öyrənsinlər?! Nə bilmək olar, mümkündür ki, Kreml təmsilçiləri gözləmək mesajını verəndə Ermənistanın yenidən Rusiyanın orbitinə qayıtmasını nəzərdə tuturlar? Təəssüf ki, Rusiya diplomatiyasının indiyədək ortaya qoyduğu mövqe yalnız bu sayaq suallar üçün meydan tanıyır.

*

Əlqərəz, Zeytsevin başqa nə söylədikləri önəmli deyil. Çünki o, ölkəsinin hər zamankı siyasi xəttini təkrarlayır: Üçtərəfli bəyanat, Moskva tərəflər arasında iş aparır və s. Hesab edirik ki, bu dolaşıq labirintdə əsas olan niyyətdir. Ermənistanın niyyəti bəllidir. Ölkə ən müxtəlif vasitələrlə sülhdən yayınmaq yolunu tutur və bunu edərkən, heç də Rusiyaya arxalanmır. İrəvanın arxalandığı qüvvələr xaricdədir və həmin qüvvələrin Moskvanın Cənubi Qafqazdakı varlığına son qoymaq niyyəti də bəllidir. Belə olan halda, Rusiya hansı pesrpektivə ümid bəsləyir?

Əslində, ölkənin bir yolu var ki, o da tam ədalətli və səmimi vasitəçilikdir. Hər bir halda, Azərbaycan Rusiya ilə müttəfiqliyinə və əməkdaşlığına sadiqdir. Ən azından, rəsmi Bakının rəsmi İrəvan olmadığını Kremldə də çox yaxşı anlayırlar. Belə olan təqdirdə, Moskva əsəbləri tarıma çəkməkdən uzaq dayanmalıdır. İllərlə bəslədiyi Ermənistan adlı məmləkətin artıq əlindən çıxdığı reallığı ilə barışmalıdır. Ümumən, Cənubi Qafqaz müstəvisində əməkdaşlıq konturlarına yenidən nəzər salmalıdır. Ənənəvi jandarmeriya təfəkkürünüdən uzaq dayanmalı və düşünməməlidir ki, 2025-ci ildəki müddət bitəndən sonra Rusiya sülhməramlılarının Qarabağdan çıxması fəlakət deyil. Həm də ona görə ki, onun üçün əsl fəlakət Ukraynada yaşanmaqdadır. Qarabağ kimi ikinci fəlakət meydanının mövcudluğu Kremlə heç nə verməyəcək. Ancaq Cənubi Qafqazın Rusiyanın da iştirak edəcəyi nəhəng əməkdaşlıq platforması olma şansı var.

*

Sonda bir məqamı da vurğulayaq. Bəli, qeyd etdik ki, Ermənistan sülhdən yayınmaq yolu tutur. Onu da vurğulayaq ki, Azərbaycan sülh gündəliyinə sadiqdir və müharibədə qalib ölkə kimi özünün şərtlərini bəyan edir. Şərtlərimiz tam ədalətlidir. Ölkəmiz buna söykənərək, 2023-cü ilin sonunadək Ermənistanla sülh müqaviləsinin imzalanacağına ümid bəsləyir. Ümumən, sülh mövzusunun gündəmdə olduğunu yalnız Azərbaycan rəsmilərinin fikirlərindən duymaq mümkündür.

Prezident İlham Əliyev də istər "Euronews" televiziyasına müsahibəsində, istərsə də Şuşada iyulun 21-23-də keçirilmiş Qlobal Media Forumundakı çıxışında 2023-cü ilin sonunadək Bakı-İrəvan sülh razılaşmasına dair gözləntilərini ifadə etmişdi. Belə bir durumda başlıca məqam heç də Kreml təmsilçilərinin nə üçün, anti-sülh ovqatına kökləndikləri deyil, daha çox onların gözləmək və sülh müqaviləsini sonraya saxlamaq məntiqindən çıxış etmələrini konkret hansı arqumentlə əsaslandırmalarıdır. Nə arqument var, nə də əsaslandırma. Ermənistan isə hər ötən gün Rusiyanın sülh müqaviləsinin mümkünsüzlüyü ritorikasına haqq qazandırmaq naminə yeni oyunbazlıqlar etməkdədir. Moskva təmsilçilərinin təbirincə desək, bölgədə gərginliyin yaranmasına rəvac verən davranışları reallaşdırmaqdadır.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# Ulu öndərin mədəniyyət siyasəti uğurla davam etdirilir

## Son günlər bu istiqamətdə atılan mühüm addımların şahidi oluruq

**Əslində, bu yazını ulu öndərin yubileyi münasibətilə qələmə almaq istəmirdim. Çünki burada söhbət konkret olaraq cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə son illərdə həyata keçirilən mədəni tədbirlərdən gedir. Ancaq bu tədbirlərin bir çoxunun məhz "Heydər Əliyev ili"ndə reallaşdırılması onların məzmununu daha da zənginləşdirir, möhtəşəmliyini artırır. Bu tədbirlər həm də ona görə xalqımızın hər bir fərdi üçün əlamətdardır ki, biz son iki il yarımda atdığımız addımlarla məhz Azərbaycan dövlətinin və ordumuzun regionda yaratdığı yeni reallıqları təbliğ edirik. Təbii ki, işğaldan azad edilmiş ərazilərdə keçirilən tədbirlər başda olmaqla.**



***Xalqımızı xalq kimi, millət kimi qoruyub saxlayan bizim ənənələrimiz olub, tariximiz olub, ədəbiyyatımız, ana dilimiz və mədəniyyətimiz olubdur. Mədəniyyət, ədəbiyyat, milli musiqi, ana dilimiz tarixi keçmişimizdir – biz bu sahələrə böyük diqqət göstərməliyik.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

…Təkcə ictimai-siyasi həyatımızda deyil, mədəni-mənəvi dünyamızda da elə faktlar, hadisələr olur ki, onları sakitcə izləməklə və ya milli tariximizin hansısa səhifəsinə yazmaqla kifayətlənmək olmur. İnsan istər-istəməz həmin fakt haqqında düşüncələrini mütləq kiminləsə bölüşmək istəyir, öz arqumentlərini müzakirə obyektinə çevirməyə çalışırsan. Məsələn, mən, cənab Prezidentin avqustun 8-də görkəmli aktyor, Xalq artisti Rasim Balayevlə görüşündən, onların səmimi söhbətlərindən sonra özümü məhz o cür hiss etdim. Şahidi olduğum səmimiyyət barədə kiməsə danışmaq istədim.

Həmin görüşdə məni məmnun edən detallar hansılar idi? Əvvəla, Rasim Balayev dövlət başçısı ilə salamlaşanda hansısa rəsmi və ya diplomatik jestlərdən deyil, bilavasitə Ağsu ağsaqqallarının leksikonunda olan "Salamməleyküm!"dən istifadə etdi. Birmənalı olaraq deyə bilərəm ki, bu, Rasim Balayevin aktyorluğundan gələn cizgi deyil, onun səmimiyyətinin göstəricisi idi. Həmin səmimiyyətin ortaya qoyulması üçün dövlət başçısı tərəfindən yaradılan şərait də alqışlanmalıdır.

İkincisi, dövlət başçısını məhz taytuş kimi, əziz, doğma adamı kimi bağrına basan sənətkar bu addımının ( heç kəs o sarayda ölkənin birinci adamını o şəkildə qucaqlamağa cəsarət etməzdi) səbəbini də açıqladı: "Mənim bir arzum var idi ki, Qarabağdan sonra, işlərinizdən sonra Sizi qucaqlayım. Çox şükür ki, bizə qismət oldu".

Üçüncüsü, Prezidentin Rasim Balayevə dediyi "Qəhrəmanımız Babəkin, dahi şairimiz Nəsiminin obrazlarını siz canlandırmısınız və Azərbaycan xalqının təsəvvüründə də onlar elə sizin obrazınızdır"– ifadəsi onun mədəni həyatımızdakı proseslərə dərindən bələd olmasının göstəricisi idi. Doğrudan da, milyonlarla soydaşımız Nəsimi haqqında danışarkən, göz önünə məhz Rasim Balayevin simasını gətirir.

Dördüncüsü, Rasim Balayev dünyanın hər yerindəki soydaşlarımızın demək istədiyi fikirləri dilə gətirdi: "Möhtəşəm Qələbə də Sizin adınızla bağlıdır. Mən xalqın arasında oluram, bütün təbəqələrlə görüşürəm, Siz öz adınızı tarixə bir Ali Baş Komandan kimi, elə əsl Babək kimi yazdınız. Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq".

Yeri gəlmişkən, dövlət başçımız bu il iyunun 12-də görkəmli kinorejissor, ssenarist, Xalq artisti Oqtay Mirqasımova "İstiqlal" ordenini təqdim edərkən də olduqca səmimi söhbət etmişdi. Oqtay müəllim də cənab Prezidentin əsgər, sərkərdə kimi milli tariximizə düşdüyünü yada salmışdı: "Siz həm gözəl sərkərdə, gözəl siyasətçi, sözündən dönməyən kişisiniz. Bu keyfiyyətlər bizim üçün önəmlidir. Biz uşaqlıqdan belə böyümüşük – həmişə əsgər, qəhrəman bizim üçün kumir olub. Allah razı olsun. Siz böyük Heydər Əliyevin – atanızın oğulusunuz. Bu, çox böyük bir işdir və adama nə qədər ruh verir. Bunu hər kəs bilir".

Bəli, bu səmimi söhbətlərə şərait yaradılması Prezident İlham Əliyevin sənət adamları ilə görüşlərdə Heydər Əliyev ənənələrini böyük məsuliyyət və ustalıqla davam etdirməsinin təzahürüdür.

Ölkədə keçirilən genişmiqyaslı mədəni tədbirlərə gəlincə isə xatırladaq ki, son illərdə həyata keçirilmiş həmin tədbirlərin önündə "Xarıbülbül" musiqi festivalları ənənəsinin bərpası gedir. Məlum məsələdir ki, həmin ənənəni bərpa etmək üçün ilk növbədə, Şuşanın və Ağdamın işğaldan azad edilməsi lazım idi. Çünki "Xarıbülbül" festivalları işğaldan əvvəl Şuşada və Ağdamda keçirilmişdi. Hamının yadındadır, — 1989-cu ildən Şuşa şəhərində məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar keçirilməyə başlanan festivalda Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan kimi ölkələrin və SSRİ respublikalarının mədəniyyət və incəsənət adamları iştirak edirdilər. Sonuncu festival 1992-ci ilin may ayında keçirilmişdi.

Azərbaycan Prezidenti İlham Əliyevin xalqımızın işğalçı ölkə üzərindəki möhtəşəm Zəfərindən sonra – 2021-ci il mayın 7-də imzaladığı sərəncama əsasən, Şuşa şəhəri ölkəmizin Mədəniyyət paytaxtı elan edilmişdir. Həmin sərəncamla Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalı da bərpa olunmuşdur. Bərpadan sonrakı ilk festival 2021-ci il mayın 12–13-də keçirilmişdir.

Ötən il mayın 12-14-də isə Şuşa şəhərində V Xarıbülbül Beynəlxalq Folklor Festivalı təşkil edilmişdi. Festivalın açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva, mədəniyyət, ictimaiyyət xadimləri, xarici qonaqlar iştirak etmişdilər. Dövlət başçımız həmin tədbirdə xatırlatmışdır ki, bu gün Azərbaycan mədəniyyəti, mədəniyyətimizin görkəmli nümayəndələri Şuşaya qayıdıblar və bu qayıdış reallıqdır. Bu reallıqla hər kəs hesablaşmalıdır.

Sonda bir məqamı xüsusilə vurğulamaq zərurəti yaranır. Hələ 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şuşanın azad olunması münasibətilə xalqa müraciətində qeyd etmişdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçəldiləcək və özünün əvvəlki şöhrətini qaytaracaqdır. 2021-ci ildəki festivalın açılış mərasimində isə dövlətimizin başçısı "Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək", – demişdi. 2022-ci ilin mayında Mədəniyyət paytaxtımızda keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı isə cənab Prezidentin həmin fikirlərinin əyani təsdiqi idi.

Bəli, bu gün Azərbaycanda mədəniyyət siyasəti, dövlətimizin adına, xalqımızın tarixinə və ruhuna layiq səviyyədə davam etdirilir. Bir daha xatırladaq ki, bu tendensiya ulu öndər Heydər Əliyevin siyasi kursundakı "mədəniyyət istiqaməti"nin uğurla davam etdirilməsidir. Azərbaycan dövləti mədəniyyət xadimlərinin yanında olduğu kimi, mədəniyyət ictimaiyyətimiz də daim dövlətin yanındadır. Deməli, daha böyük uğurlarımız hələ qabaqdadır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Erməni "xaçlılar" və Qarabağ avantürasında "müasir dini zəmin"

## *Yaxud Paşinyanın "səlibçiləri" və orta əsr təfəkkürlü gülünc Ermənistan*



**(əvvəli 1-ci səhifədə)**

Erməni avantüristləri bu yolla Birləşmiş Ştatlar Administrasiyasında xristian təəssübkeşliyi hisslərini oyatmağa cəhd göstərmişdilər. Lakin cəhdləri alınmamışdı. Deyilənə görə, Trampın ritorik sualı erməniləri, sözün əsl mənasıda, pəjmürdə hala salmışdı. Sual təxminən belə idi: Bu, necə dini müharibədir ki, Ermənistanı İran silahlandırır, Azərbaycana İsrail dəstək verir?

Ümumən, erməni avantürizminin təmsilçilərinin zaman-zaman istila siyasətlərinə dini don geyindirməyə çalışdıqları faktdır. Onlar məzlum qiyafəsinə bürünərək, elə fon yaratmışdılar ki, sanki müsəlman azərbaycanlılar ermənilərin timsalında xristianlara qarşı zorakılıqlar həyata keçirirlər. Halbuki, özlərinin etdikləri dəhşətli zülmlər, istər Azərbaycan, istərsə də Anadolu türklərinin tarixində faciə yaşantıları kimi əbədilik qalmaqdadır.

***

Erməni milllətçiliyinin dini ekstremizmini yada salarkən, bu qövmün türk düşmənçiliyi xəttini xüsusi vurğulamalıyıq. Əvvəldə Xaç yürüşlərini isə heç də təsadüfən xatırlamadıq. Məsələ burasındadır ki, erməni avantüristləri indi də eyni "kursu" götürürlər. Söhbət Ermənistanın paytaxtı İrəvandan Laçın yoluna doğru hərəkət edən "Xaçlılar" adlı erməni millətçi qrupunun çıxardığı populizm oyunundan gedir.

Əslində, bu sayaq populizm Ermənistan cəmiyyətinin ruhuna hakim kəsilmiş xəstəlikdir. O cəmiyyətdə elə düşünürlər ki, tarixi Səlib yürüşləri ilə bağlı addan istifadə etməklə, haqsız direnişlərinə beynəlxalq ictimai məzmun qazandıracaqlar. Beləliklə, erməni psevdomillətçiliyi özünün mənfur xislətini ortaya qoymaqdadır. Baxın, bu da demokratik inqilab etdiyi deyilən ölkə! Budur həmin inqilabla Avropa dəyərlərinə yiyələndiyi bildirilən toplum! Budur o toplumun tarixə yanaşması!

***

Gələk, maskanın cırılması məsələsinə. Bəli, erməni "xaçlılar" sarsaqlığa yol verirlər. Axı, Xaç yürüşlərinin əsl məqsədini dünyada bilməyən yoxdur. Həmin yürüşlərin bəşəriyyətin tarixindəki hansı faciələrə yol açdığını da həmçinin.

Yada salaq ki, Avropa insanı böyük sarsıntılar və üzüntülər doğurmuş katolik sxolastikasından qurtulmaq üçün XVI əsrdə inqilab etdi. Bu inqilab dünyaya reformasiya hərəkatı kimi daxil oldu. Reformasiya Avropada yalnız dinin məişət səviyyəsində saxlanılmasına yönələn deyil, eyni zamanda, dinin ehkamçı təsəvvürlərindən birdəfəlik qurtulmaq, inkişaf və tərəqqiyə nail olmaq vasitəsi idi.

Təsadüfi deyil ki, qitə ölkələrində sürətli iqtisadi inkişaf məhz XVI əsrdəki böyük dəyişikliklərin sayəsində baş vermişdi. Nəticədə ictimai şüur cilalanmış, yeni baxışlar sistemi formalaşmışdı. Bir sözlə, bu gün dünya özünün inkişafına görə həm də Almaniyada başlamış, sonradan "köhnə qitə"nin bir sıra yerlərinə yayılmış Reformasiya hərəkatına borcludur. O hərəkata ki, Səlib yürüşlərinin mövhumata əsaslanmış baxışlarını inkar edirdi. Yəni, böyük ölçüdə dini quruluşların sifətindəki riyakarlıq maskasını cırıb atırdı.

***

Deməli, Ermənistan cəmiyyəti özünün barbarlığını bir daha nümayiş etdirməkdədir. Laçın–Xankəndi yolunda qurduğumuz Həkəri sərhəd nəzarət-buraxılış məntəqəsinə yürüş edən "xaçlılar" barədə başqa nə isə demək mümkün deyil. Hesab edirik ki, Ermənistan hakimiyyəti məsələyə həssas yanaşmalıdır. Ona görə ki, Azərbaycanla münaqişəyə dini zəmin gətirmək olduqca təhlükəli tendensiyadır. Hərçənd, baş nazir Nikol Paşinyan administrasiyanın bunu düşünmədiyini söyləmək mümkünsüzdür. Erməni iqtidarı sülhə gəlməmək üçün bütün "variantlardan" yararlanır ki, "Xaçlı yürüşləri" də, heç şübhəsiz, onlardan biridir. Hər bir halda ortada son dərəcə biabırçı gediş var.

***

Beləliklə, hərəkatları böyük pafosla təqdim edilmiş "Xaçlılar" dəstəsinin üzvləri Ermənistandan Qarabağa humanitar yardım göndərilən yük maşınlarının yerləşdiyi əraziyə çatıblar. Sayı 150 nəfər olan dəstənin komandiri Sarqis Poqosyan tarixi xaçlı sərkərdəsi deyil, diplomat kimi açıqlama verib. O, ərazidə mühitin sakitliyindən söz açıb və bir az dincəlmək niyyətində olduqlarını vurğulayıb. Daha sonra sülhməramlılarla danışıqlara başlayacaqlarını deyib. Nəticə olmasa isə guya, şərti sərhədi güc yolu ilə keçəcəklərmiş.

Əslində, Ermənistandakı "Xaçlı hərəkatı" ilə bağlı ortada son dərəcə gülünc durum var. Məlum olduğu kimi, hərəkatın üzvləri avqustun 8-də İrəvandakı hökumət binası yaxınlığında etiraz aksiyası düzənləmişdilər. Onlar Paşinyan administrasiyasından şərti sərhədə yaxın ərazidəki humanitar yardım maşınlarının Qarabağa çatdırılmasını tələb etmiş, öz aləmlərində Nikola vaxt vermişdilər. Lakin baş nazirin komandası məsələyə əhəmiyyət verməmişdi. Daha doğrusu, ölkə iqtidarının cavabı hökumət binasının önündə polis kardonu yaratmaq şəklində olmuşdu. Axı, "səlibçilər" cəsarətlənib hökuməti güc tətbiq etməklə də hədələmişdilər. Hökumətdən heç bir cavab almayan avantürislər qəfildən sərhədə getmək qərarını vermişdilər ki, belə görünür, onlar aciz Paşinyana tətbiq etməkdən çəkindikləri gücü Azərbaycan əsgərinə göstərmək kimi beyin qıcolmasından da əziyyət çəkməkdədirlər.

***

Əlbəttə, psevdoxaçlıların ucuz populizmi heç bir nəticə verməyəcək. Dünya XI-XII əsrlərdə keçilmiş yolu təkrarlayanları kloun gözündə görəcək. Artıq bildirdik ki, onlar yalnız özlərini güldürməklə məşğuldurlar. Digər tərəfdən isə bu sayaq davranış Ermənistanı dünyanın gözündən salmaqdan, ölkəni arxaik düşüncələrin hakim kəsildiyi toplum kimi təqdim etməkdən başqa da bir şey deyil. "Xaçlılar" buna nail istəyirdilərsə, qətiyyətlə demək mümkündür ki, məqsədlərinə çatıblar.

Sonda onu da vurğulayaq ki, erməni "xaçlılar" şərti sərhədi heç bir halda keçə bilməyəcəklər. Yəni, nə xoşluqla, nə də zorla bunun mümkün olacaq variantı yoxdur və ola da bilməz. Həm də ona görə ki, 44 günlük müharibə Qarabağın talan edilməsinə də son qoyub. Orta əsrlərdəki metodları təkrarlayaraq, əraziyə sahiblənmək də tarixin arxivinə gömülüb.

"Xaçlılar"ın sərhəddə zor tətbiqinə girişmələrinə gəldikdə, bunun baş verməsi tamam başqa situasiya doğuracaqdır. Durumu düşünməli olan tərəf isə yenə də Ermənistan hakimiyyətidir. Ya Paşinyan zəhmət çəkib öz ipləmələrinə sahib çıxsın, ya da…

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Xankəndidə bayrağımızı sancacağımız yer hazırdır

## Azərbaycan sülh istəyir, amma qonşusu Ermənistan olan ölkə müharibə ola biləcəyini də unutmamalıdır



(əvvəli 1-ci səhifədə)

Analitik qeydlərin müəllifi hesab edir ki, Arutyunyan və onun separatçı qruplaşmasının yuxarı eşolonu getdikcə daha çıxılmaz situasiya ilə üzləşmək məcburiyyətində qalıblar. Azərbaycanın suveren ərazisində hələlik fiziki olaraq qalmış bu “çete”nin hərbi və siyasi resursları tükənmək üzrədir. Bu il aprelin 23-də şərti sərhəddə – Laçın yolunun başlanğıcında, Həkəri çayının üzərindəki körpüdə Azərbaycanın özünün nəzarət-buraxılış məntəqəsini yaratması həm Xankəndidəki qondarma rejimə, həm də ərazimizi tərk etməyə tələsməyən daşnak-separatçılara endirilən “şok-zərbə” oldu. Onlar bundan sonra avantüralarının “yeriməyəcəyini”, sərbəst hərəkət etməyin mümkünsüzlüyünü tədricən anlamağa başladılar. Həqiqətən, sərhəddə post qurulandan sonra bu qanunsuz rejim hər tərəfdən və hər şeydən təcrid olundu. Amma ona dəstək verən bir neçə amil hələ də qalmaqdadır ki, onlar əbəs yerə bölgədə situasiyanın dəyişilə biləcəyinə “cəsarətli ümid” bəsləyirlər.

### Kreml gec-tez seçim etməli olacaq

Rusiyanın, bir qayda olaraq, post-sovet məkanındakı bəzi münaqişə ocaqlarında gizli motivlərə malik olduğuna diqqəti yönəldən analitikə görə, Xankəndidəki separatçılara müvəqqəti fiziki müdafiə ilə müşayiət olunan mənəvi dəstək verən Moskvanın məqsədi Qarabağda hərbi iştirakını davam etdirmək və bütövlükdə, Cənubi Qafqaz üzərində nəzarəti əlində saxlamaq istəyi ilə bağlıdır. İntəhası, Kremlin “öz qoşunlarını bölgədə saxlamaq” və Azərbaycanla hərtərəfli və çoxplanlı dostluq münasibətlərinə xələl gətirməmək arasında seçim dilemması yaranacağı təqdirdə, ondan son qərar üçün məntiqli və səmərəli yanaşma tələb olunacaq. Ukraynada vəziyyətin daha da gərginləşdiyi, bütün diqqətini cəmləşdirdiyi cəbhədə durumun arzuedilən səviyyədə sayılmadığı indiki şəraitdə Bakını bundan artıq qıcıqlandırmaq Moskvaya qətiyyən lazım deyil. Başqa sözlə desək, əgər biz Qarabağda hərbi kontingentə malik olmaqla “nüfuz” üstünlüyünü kommunikasiyaların açılması və buna bağlı digər sahələrdə əldə edəcəyi iqtisadi faydanı qarşı-qarşıya qoysaq, çox güman ki, Moskva özünün dumanlı imperiya ambisiyalarına deyil, soyuq diplomatik məntiqə söykənərək düzgün seçim edəcək. Hər halda hadisələrin cərəyan dinamikası bundan xəbər verir.

### Sözünü əmələ çevirə bilməyən İrəvan

Hazırda Ermənistan hakimiyyəti Xankəndidəki separatçı xunta rejiminə Azərbaycanın qanuni tələblərini yerinə yetirməsi üçün təsir göstərməyi ya bacarmır, ya da bunu istəmir. Paşinyan deyəndə ki, Ermənistan, bütün suveren dövlətlər kimi, Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanımağa hazırdır və Qarabağ erməniləri öz problemlərini Bakı ilə həll etməlidirlər. Bu, bir qədər qəribə səslənir. Həm də onun bu sözlərinin altında real iş, hərəkət dayanmadığına görə səmimiyətdən uzaq görünür. Bu, azmış kimi, Paşinyan hökumətinin separatçı rejimi humanitar yükləri Ağdamdan qəbul etməyə inandırmaq əvəzinə, Bakı ilə razılaşdırmadan, “tır” karvanını şərti sərhəd istiqamətinə göndərməsi gərginliyi daha da artırıb.

Bundan savayı, Qarabağ ermənilərinin “hüquq və təhlükəsizliyi” ilə bağlı məsələnin həlli üçün beynəlxalq mexanizmin yaradılmasında təkid edən İrəvan Rusiyaya Bakı və Xankəndi arasında daxili dialoqu ləngitmək üçün əlavə bəhanələr vermiş olur. Beləliklə, Rusiyanın “gözlə görünməyən” motivləri ilə Ermənistan rəhbərliyində iradənin və cürətin olmaması Qarabağdakı separatçıları bir növ ümidləndirir. Nəinki ümidləndirir, hətta mükafatlandırır. Qarabağda separatçı əhval-ruhiyyəni yüksək səviyyədə qoruyub saxlamaqdan ötrü Rusiya və Ermənistandan başqa oyunun digər aktorları, misal üçün, Fransa da öz “töhfəsini” verməkdədir.

Ümumiyyətlə, Qərbdən danışanda onu da qeyd etmək lazımdır ki, bu düşərgə daxili fikir ayrılıqları və hakimiyyət uğrunda mübarizə ucbatından heç də monolit deyil. Onların arasında ikiüzlülər kifayət qədərdir ki, bu da bizə heç sərf eləmir. Hərçənd Ermənistan–Azərbaycan sülh prosesində Brüsselin və Vaşinqtonun dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin qarşılıqlı tanınması konsepsiyasına söykənən birgə və davamlı səylərini Bakı təqdir etməkdədir. Doğrudur, əgər ümumi mənzərəyə nəzər yetirəndə bəzi yanlışlıqları və natamamlıqları görmək mümkündür. Tərəflərə münasibətdə bəzən ikili standartların da izini müşahidə etmək olar.

* * *

Beynəlxalq məsələlər üzrə şərhçi Orxan Amaşov Qarabağ ermənilərinə münasibətdə müxtəlif aktorların məsələyə yanaşma və niyyətləri barədə diskussiyanı davam etdirərək bildirir ki, bölgədə əsas oyunçu bütün bu hadisələrin suveren ərazisində baş verdiyi Azərbaycandır. Bəs Bakı indiki durumda nəyə nail olmağa çalışır? Bu sual yalnız humanitar yardımın çatdırılacağı marşrutla deyil, həm də çoxlu sayda digər məsələlərlə bağlıdır.

Bu yaxınlarda Şuşada “Euronews”a müsahibəsində Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan cəmiyyətinin bir hissəsi kimi, Qarabağ ermənilərinə “təhlükəsizlik və hüquqi təminat, o cümlədən, təhsil, mədəni, dini, bələdiyyə” təminatı təqdim olunacaq. Əslinə qalsa, bu, nəinki qəbuledilən, eyni zamanda, olduqca səxavətli, qarşı tərəfdən düzgün qiymətləndirmə tələb edən təklifdir. Cənab Prezident həmin müsahibəsində qəti və birmənalı şəkildə onu da hamının nəzərinə çatdırdı ki, o, dediyi sözün arxasında durmağı bacaran adamdır. Biz və qarşı tərəf bunun dəfələrlə canlı şahidi olmuşuq. Məgər İlham Əliyev 2020-ci ildə Ermənistanla müharibə ərəfəsində demirdimi ki, Azərbaycan işğal altındakı torpaqlarını düşməndən azad edəcək və özünün ərazi bütövlüyünü bərpa edəcək? Dedi və həyata keçirdi. Çünki bu vəzifə onun fəaliyyətinin başlıca missiyası idi və həmin missiyanı şərəflə yerinə yetirdi. Məgər o demirdimi ki, Laçın yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması suveren Azərbaycanın qanuni haqqıdır və bunu edəcək? Onun dediyi baş verdimi? Baş verdi! Dövlətimizin başçısı, həmçinin deyir ki, Xankəndidə Azərbaycanın üçrəngli bayrağı dalğalanacaq, orada qalıb yaşamağa qərar verən erməni sakinlər Azərbaycan vətəndaşının bütün konstitusion hüquqlarından istifadə edəcəklər.

Azərbaycan Prezidentinin sonuncu dediyi sözün əmələ çevrilməsi güman etdiyimizdən də tez baş verə bilər. Çünki, o, həmişə sözünü konkret işlə möhürləməyə vərdiş etmiş liderdir. Hesab edirik ki, buna ermənilər də, kənar aktorlar da artıq əmin olublar.

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

# Hayların hayqırtısı dünyanı dəng edir

## Qarabağdakı xunta rejimi beynəlxalq ictimaiyyəti aldatmaqdan əl çəkməlidir

**Ölkəmizin Qarabağ iqtisadi rayonunda yaşayan erməni azlığını girovluqda saxlayan xunta rejiminin başçısı Arayik Arutyunyan beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb. Özünü “prezident” kimi təqdim edən Arutyunyanın müraciəti başdan-ayağa ölkəmizin ünvanına böhtanlarla doludur. O, beynəlxalq aktorlardan “Artsax xalqı”na qarşı “soyqırımı”nın qarşısını almağı və “blokada”nın aradan qaldırılmasını tələb edib.**

Sözsüz ki, biz onun müraciətinin mətnini olduğu kimi, sözbəsöz işıqlandırmaq niyyətindən uzağıq. Maraqlanan hər bir oxucu onu elektron informasiya resurslarından tapıb oxuya bilər. Biz Azərbaycanın media subyekti olaraq, onun uydurma və böhtanlarına cavab verməyə çalışacağıq.

Arutyunyan televiziya ilə üzündən oxuduğu cızma-qarada tez-tez beynəlxalq hüquqdan, beynəlxalq humanitar hüquqdan bəhs edir. Ancaq, nədənsə, beynəlxalq hüquqa əsasən Qarabağda əyləşdiyi məkanın Azərbaycanın Respublikasının suveren ərazisi, özünün isə baş separatçı olduğunu unudur.

Ortada tarixi faktlar var. Qarabağ tarixən Azərbaycan ərazisi olub. Sonradan onun ərazisində erməni azlığı üçün muxtar vilayətin yaradılmasından sonra hayların iştahı böyüyüb və onlar SSRİ-nin dağılmasını fürsət bilib bölgədə etnik separatizmə başlayıblar. Qarabağdakı silahlı erməni hərbi birləşmələri azərbaycanlıları keçmiş DQMV-dən qovub çıxarıb və sonradan Ermənistan silahlı qüvvələrinin fəal iştirakı ilə daha 7 rayonumuzu işğal ediblər.

Onun müraciəti zamanı adını dəfələrlə qeyd etdiyi BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri işğal edilmiş ərazilərdən erməni qoşunlarının çıxarılmasını tələb edirdi. Ancaq 27 ildən artıq vaxt ərzində Ermənistan bu qətnamələrin tələblərini yerinə yetirmədi. Belə olan təqdirdə Azərbaycan torpaqlarını özü azad etdi. Vətən müharibəsindən sonra ölkəmiz üçün məsələnin siyasi tənzimlənməsi mərhələsi başlayıb. Bu mərhələdə rəsmi Bakı Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə tam reinteqrasiya olunmasına çalışır. Ancaq, bu təbii istək xunta rejimi və onun havadarları tərəfindən süngü-bıçaqla qarşılanır.

Ona görə təbii istək yazırıq ki, ərazi bütövlüyü hər bir dövlət üçün son dərəcə həssas məsələdir. Heç bir dövlət onun ərazisində hansısa etnik separatizm ocağının yaranmasına dözməz. Müasir dünyada bunun onlarca örnəyi var. Məgər Fransa Korsikaya, müstəmləkə əsarəti altında saxladığı planetin müxtəlif yerlərindəki aborigen xalqlara, İspaniya basklara, katalonlara, Kanada Kvebek əyalətindəki separatçılara dözümlü yanaşırmı? Böyük Britaniya Şotlandiyanın ayrılmaq istəyinə, Rusiya 90-cı illərin əvvəllərində Çeçenistanın, Tatarıstanın müstəqillik arzusuna razılıq verdimi? Bu ölkələr separatizmə haqlı olaraq “yox!” dedilər. Bəs Azərbaycan niyə bir qrup erməninin onun ərazisində ikinci erməni dövləti yaratmasına dözməlidir? Özü də nəzərə almaq lazımdır ki, digər erməni dövləti, yəni Ermənistan Respublikasının özü də tarixi Azərbaycan torpaqlarında yaradılıb.

Üstəlik, nəzərə almaq lazımdır ki, Qarabağda ermənilərin yaşadığı ərazinin Azərbaycana məxsus olduğunu Ermənistanın baş naziri Nikol Paşinyan özü də cari ilin mayında etiraf edib. Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin iyulun 21-də keçirilən Şuşa Qlobal Media Forumunun açılış mərasimində səsləndirdiyi fikirlərdən iqtibas gətirmək yerinə düşər: “Ona görə indi yenidən inteqrasiya məsələsi Qarabağın erməni sakinlərinin bax bu yanlışlardan, onları girov götürən, qul kimi istismar edən bu xuntadan nə vaxt qurtula biləcəyindən asılıdır. İndi də istismar edirlər, çünki ekofəallar Laçın–Xankəndi yoluna çıxanda, Xankəndidəki sözdə “erməni rəhbərliyi” sadə vətəndaşlara bu yoldan istifadə etməyə icazə vermirdi. Onlar blokpost qoyaraq, bizi blokadada ittiham edirdilər. Bu gün onlar yenə Ağdam–Əsgəran yolunda beton plitələr qoyublar. Siz “nə üçün ərzaq məhsulları başqa ölkədən gətirilməlidir? Axı “Qarabağ Azərbaycandır” dediniz. Elədirmi? Bunu hamı təsdiq edir? Hamı təsdiq edir. Kimsə bunun belə olmadığını deyirmi? Yox. Onda niyə yüklər başqa ölkədən gətirilməlidir? Bu, məntiqə sığmır. Lakin bu jesti qəbul etmək əvəzinə, orada beton bloklar qoyulur. Kim-kimi bloklayır? Ona görə də bütün məsələ bundadır”.



Dövlət başçımız əlavə etdi ki, bu gün çadırlarda oturub və kiməsə etiraz edilməsi komediya şousudur. Bu, sadəcə, lətifədir. Özünü “prezidentlər” adlandıran şəxslərin etiraz etməsi, oturaq tətil bizdə bəzi jurnalistlər tərəfindən zarafat mövzusu olub. Yəqin ki, növbəti mərhələdə “uzanan” tətil olacaq. Sonra nə bilim, hansı olacaq, lakin bu, məsələyə kömək etməyəcək. Biz Qarabağdakı erməni azlığının hüquqları və təhlükəsizliyinə əməl etməklə Konstitusiyamız çərçivəsində və Azərbaycanda bu məsələlərin necə həll edilməsi üzrə xeyirxah təcrübə çərçivəsində yenidən inteqrasiya yolu ilə irəliləməyə hazırıq.

Prezident İlham Əliyev onu da bildirdi ki, Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir, bizim gücümüz də bundadır. Azərbaycanda yaşayan etnik qrupların bütün nümayəndələri eyni hüquq və vəzifələrə, təhlükəsizlik səviyyəsinə malikdirlər. Nə üçün hansısa etnik qrup bu fonda fərqlənməlidir, bu, mənə də tam aydın deyil. Bax, bizim yanaşmamız belədir. Biz indiyədək Xankəndidə və ətrafında yaşayan cəmiyyətin sağlam düşüncəli hissəsinin Azərbaycana belə məhəl qoyulmamasının bütün perspektivsizliyini başa düşəcəyinə və sağlam düşüncənin üstünlük təşkil edəcəyinə inamımızı itirməmişik. Əks halda, düşünürəm ki, kiminsə gəlib onların yerinə döyüşəcəyinə indi yalnız sadəlövhlər bel bağlaya bilər. Onların reallıqları anlaya bilməsi və barışması üçün bir neçə mərhələ olub.

***

Arutyunyan öz müraciətində Qərb dövlətlərinin dəstəyini almaq üçün hiyləgər gedişlər edir. Onun Azərbaycanın 2020-ci ildə öz gücü hesabına qalib gəldiyi müharibəni “Türkiyənin və Yaxın Şərqin bir sıra terror təşkilatlarının birbaşa iştirakı” ilə apardığı ittihamı bunun göstəricisi hesab oluna bilər. Məlumdur ki, Qərbdə terror təşkilatları ilə bağlı məsələyə xüsusi həssaslıqla yanaşılır. Eyni zamanda, Qərb dünyası azərbaycanofob və türkofob dairələrlə doludur. Müraciətdə Türkiyənin adının çəkilməsi də Qərbdə Bakı və Ankaraya qarşı mövcud olan cəbhənin sırasının genişləndirilməsi məqsədini daşıyır.

Bütün bunlara baxmayaraq, edilən bu çağırışların heç bir nəticəsinin olmayacağı hamıya, elə xunta rejiminin başçısına da yaxşı məlumdur. Çağırış ünvanlanan ölkələr və beynəlxalq təşkilatlar məsələ ilə bağlı yanaşma ortaya qoymazdan öncə Azərbaycanın da rəyini öyrənirlər. Bu rəy onlarda balanslı mövqenin formalaşmasına səbəb olur. Eyni zamanda, beynəlxalq aktorlar Azərbaycanın hansısa “soyqırımı” törətmədiyini və Qarabağı blokadada saxlamadığını bilirlər. Bu baxımdan Arutyunyan ilk növbədə dünya ictimaiyyətini aldatmaqdan əl çəkməlidir.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

### Ekspert rəyi

**İlyas HÜSEYNOV,**
**politoloq**



– Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyət göstərən separatçı rejimin başçısı Arayik Arutyunyan yenidən “soyqırımı”, “blokada” sözlərindən istifadə etməklə beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb. Burada diqqət çəkən məqam Arutyunyanın hələ də regional geosiyasi reallıqları, Vətən müharibəsinin nəticələrini dərk etməməsidir. Aydın olur ki, o, baş verən prosesləri hələ özü üçün müəyyənləşdirməyib. Müraciətin son hissəsində siyasi gündəlikdən çıxmış ATƏT-in Minsk qrupuna, Avropa Şurasına, Avropa İttifaqına, Beynəlxalq Qırmızı Xaç Komitəsinə, eyni zamanda, erməni diasporuna da çağırış edir. Əsas məqsəd Azərbaycana təzyiqlərin edilməsi, ölkəmizə qarşı müxtəlif təzyiq metodlarından istifadə olunmasıdır.

Əgər insan faktoru önəmlidirsə, əgər humanitar yüklər daşınmalıdırsa və iddia etdikləri kimi, “insanlıq faciəsi” yaşanırsa o zaman yüklər nə üçün yalnız Laçın–Xankəndi yolu ilə daşınmalıdır?! Düşünürəm ki, məsələnin əsas mahiyyəti buradadır. Azərbaycan alternativ yollar təklif edib. Alternativ yolların tətbiqi istiqamətində Bakının çağırışı Azərbaycanın yurisdiksiyasına və beynəlxalq hüquqa əsasən legitimdir. Eyni zamanda, Ağdam–Xankəndi yolu bir vaxtlar fəaliyyət göstərib. İşğal faktı aradan qaldırıldıqdan sonra bu yoldan istifadə etmək üçün Azərbaycan hər bir şəraiti yaradıb. Müasir dövrün tələblərinə uyğun olaraq, bu infrastruktur qurulub. Digər tərəfdən, yolun işə düşməsi heç də Qarabağda yaşayan erməniləri “əsarətdə saxlamaq”, “özünə tabe etdirmək” kimi niyyətləri güdmür. Azərbaycan reinteqrasiya prosesində açıq və şəffaf münasibətlərin tərəfdarıdır.

Eyni zamanda, Azərbaycan Prezidentinin Administrasiyası Qarabağ ermənilərinin nümayəndələrini iki dəfə danışıqlara dəvət edib. Danışıqların Bakıda keçirilməsi təklifi irəli sürülüb, lakin separatçılar bu təkliflərdən imtina etdilər və TIR şousu həyata keçirildi. Bütün bunlar onu deməyə əsas verir ki, ermənilər regionda sülhdə maraqlı deyil və prosesləri sabotaj edirlər. Siyasi şantaj və manipulyasiya alətlərindən geniş şəkildə istifadə olunur. Düşünürəm ki, Arutyunyanın və onun kimilərinin bu cür çağırışları, “bizi xilas edin!” kimi SOS siqnallarının heç bir nəticəsi olmayacaq. Çünki burada Azərbaycanın mövqeyi önəmlidir. Bizim mövqeyimiz isə beynəlxalq hüquqa söykənir. Hansısa çağırışlarla Azərbaycanın prinsipial mövqeyini dəyişmək mümkün olmayacaq.

# Heydər Əliyev dərsləri

*(əvvəli "Xalq qəzeti"nin 2023-cü il 7, 13, 15, 17 may, 24, 26 iyun, 4, 5, 7, 16 və 21 iyul nömrələrində)*



### "Sənin çox gözəl gözlərin var"

**Vaşinqtonda olarkən Cons Hopkins adına Universitetin göz xəstəlikləri klinikasında Prezident Heydər Əliyevin gözündə müəyyən edilmiş kataraktaya qarşı uğurlu əməliyyat aparılmış və o, bir neçə günlük müalicə kursu keçmişdir. Azərbaycan Prezidentinin burada müalicə alan dünya şöhrətli aktrisa, Hollivud ulduzu, "Super xanım" teleserialında baş rolun ifaçısı və çoxsaylı filmlərdə aparıcı rollarda çəkilmiş xanım Linda Karter ilə maraqlı söhbəti olmuşdu.**

**Linda Karter:** Cənab Prezident, Sizinlə görüşmək mənim üçün çox şərəfdir.

**Heydər Əliyev:** Sizinlə görüşmək mənim üçün də çox şərəflidir.

**Linda Karter:** Sizin ölkənizdə mənim şoularımı göstərirlərmi?

**Heydər Əliyev:** Göstərirlər. Biz Sizin şoularınızı çox sevirik. Amma yaxşı olar ki, Sizin özünüz gələsiniz, özünüzü görək.

**Linda Karter:** Cənab Prezident, dünyanın o hissəsində olmamışam. Oranı ziyarət etmək çox yaxşı olardı.

**Heydər Əliyev:** Mən Sizi dəvət edirəm. Mənim şəxsi qonağım olun. Hansı şəraiti istəyirsiniz, mən sizə yaradacağam. Doktor Starkın yanında söz verirəm.

**Linda Karter:** Cənab Prezident, Sizin qalstukunuz çox xoşuma gəldi. Gözəl qalstuk vurmusunuz.

**Heydər Əliyev:** Ancaq qalstukum?

**Linda Karter:** Deyim ki, Siz çox nadir, çox gözəl, çox yaraşıqlı bir kişisiniz. Onda gərək deyəsiniz ki, mən də gözələm.

**Heydər Əliyev:** Siz dünya gözəlisiniz. Sizin qalstukunuz yoxdur, amma bunlarla müqayisə oluna bilməz. Sizin çox gözəl gözləriniz var. Doktor Stark, Siz bunun gözlərini nə edirsiz?

**Valter Stark:** Cənab Prezident, heç bir şey etmirəm, damcı salıram.

**Heydər Əliyev:** Amma Siz onun gözlərini xarab etməyin. Necə gözəl gözlərdir! Sizin gözünün rəngi də mənimki kimidir, elədir?

**Linda Karter:** Tamamilə doğrudur.

**Valter Stark:** Cənab Prezident, Sizin gözünüz çox əla görür.

**Linda Karter:** Doktor, cənab Prezidentin gözündə nə etmisiniz?

**Valter Stark:** Katarakta var idi.

**Linda Karter:** Cənab Prezident, Sizi təbrik edirəm. İndi Sizə yeni həyat verilibdir.

**Heydər Əliyev:** İndi Sizin gözlərinizi elə gözəl görürəm. Beş gün bundan qabaq olsaydı, belə görməzdim.

**Linda Karter:** Cənab Prezident, sizinlə görüşümdən çox şad oldum.

**Heydər Əliyev:** Baxın, bu mənim gənclik illərimin fotoşəkilləridir.

**Linda Karter:** Siz heç dəyişilməmisiniz.

**Heydər Əliyev:** Bu, 15 il bundan öncə çəkilən şəkildir. Bu isə 20 il öncə çəkilib.

**Linda Karter:** Burada daha yaxşı görünürsünüz. Yaşlaşdıqca sizin gözəlliyiniz artır. O, cəvahirat kimidir - nə qədər çox qalır, o qədər də gözəlləşir. Görürsünüz, mən necə yaxşıyam. Çox şad oldum. Mən həqiqətən ümid edirəm ki, Sizin ölkənizi ziyarət edəcəyəm.

### "Elə bilirlər halvadır!"

**Ölkənin özündən və xaricdən olan bəzi bədxahlar Azərbaycan iqtisadiyyatının neftdən asılılığını pis nəticə verəcəyinə dair "proqnozlarına" ulu öndər qətiyyətli münasibət bidirmişdi:**

– Biz 1970-1980-ci illərdə respublikamızda nə qədər yeni maşınqayırma zavodları, kimya kompleksi, yaxud da yüngül sənaye obyektləri, kənd təsərrüfatı məhsulları emalı sənayesi yaratdıq, Azərbaycanın sənayesini çoxsahəli etdik.

Biz bunları hələ 1970-ci illərdə etmişik. İndi Azərbaycanın iqtisadiyyatı haqqında danışanlar o vaxtlar bəlkə orta məktəbə gedirdilər, yaxud da ki, məktəbi təzəcə qurtarmışdılar. Yəni bu, bizim üçün yeni bir şey deyildir. İndi küçədə oturub sənayenin nə olduğunu bilməyən adamlar, yaxud da gedib başqa ölkələrdə gizlənənlər durub burada dərs vermək istəyirlər ki, Azərbaycanın sənayesini ancaq neftlə bağlamaq olmaz. Bəzi xarici radiolar da deyirlər ki, "İqtisadiyyat neftlə bağlandığına görə indi, görürsünüz, neftin qiyməti aşağı düşüb, bunun üçün də Azərbaycanın sənayesi, iqtisadiyyatı dağılacaqdır". Birincisi, onlar sevinməsinlər, bu, heç vaxt olmayacaqdır.

### "Bəs sən indiyə qədər harada idin?"

**Xaricdə olduğu kimi ölkə daxilində də Azərbaycanın neft müqavilələrinin gerçəkləşməsinə mane olmaq istəyən qüvvələr olmuşdu. Ümummilli liderin möhkəm iradəsi bütün belə cəhdlərin qarşısını almışdı. Heydər Əliyev bu barədə danışarkən demişdir:**

– 1996-cı ildə, "Şahdəniz" müqaviləsinin imzalanması ərəfəsində ölkəmizdə bizimlə işləyən bir şəxs bu müqavilənin imzalanmasının tam əleyhinə çıxdı. Həmin adam üç il bundan əvvəl Azərbaycanı tərk edəndən sonra mən onun adını heç vaxt çəkməmişəm. Çünki, o, layiq deyil ki, mən onun adını çəkim. Ancaq bu gün həqiqəti bildirmək üçün mən onun adını çəkməliyəm. O, Milli Məclisin həmin dövrdəki sədri Rəsul Quliyev idi. Bu müqavilə bir neçə ay idi ki, hazırlanırdı, bütün şirkətlərlə razılaşdırılmışdı, artıq imzalanmağa hazır idi. Müqavilənin imzalanmasından bir həftə əvvəl, o, mənim yanıma gəlib dedi ki, bu müqaviləni imzalamaq olmaz. Soruşdum ki, nə üçün? Dedi ki, Dövlət Neft Şirkətindən olan adamlar Sizə düzgün məlumat verməyiblər, burada çoxlu səhvlər, bizim üçün zərərli olan şeylər var. Ona görə də bunu imzalamaq olmaz. Mən soruşdum ki, bəs sən indiyə qədər harada idin?

O, Milli Məclisin sədri səlahiyyətini daim aşaraq, neft şirkəti ilə həmişə əlaqədə idi və çalışırdı ki, bu şirkətin işlərinə rəhbərlik etsin. O, bu müqavilənin hazırlanması prosesi ilə yaxşı tanış idi. Bilirdi ki, hər şey yaxşıdır. Biz burada neft-qaz sərgisi keçirirdik. Bu müqavilə həmin gün imzalanmalı idi. O, bu məsələni bir həftə qabaq ortaya atdı ki, işi pozsun. Mən hər fikri nəzərə alıram. Ona görə də onun fikrini nəzərə aldım, Dövlət Neft Şirkətinin bütün rəhbərlərini bax, bu otağa dəvət etdim. Rəsul Quliyev də, Artur Rasizadə də və Dövlət Neft Şirkətinin bütün rəhbərləri də orada idilər. Mən ona dedim: Dur fikrini sübut et ki, bu müqaviləni niyə imzalamaq olmaz. Şübhəsiz ki, o, cəfəngiyat danışdı, Dövlət Neft Şirkətinin nümayəndələrini təhqir etməyə başladı. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, bu sahədə ən böyük mütəxəssis Xoşbəxt Yusifzadə, yadımdadır, Valeh Ələsgərov və başqaları bir-bir onun üzünə durub dedilər ki, sənin fikirlərinin heç bir əsası yoxdur. Sən sadəcə, işə mane olmaq istəyirsən. Ümumiyyətlə, sənin bu məsələlərdən başın çıxmır. O, çox pərt oldu. Bəyan etdi ki, mən bu barədə Sizə rəsmi yazacağam. Bildirdim ki, sən nə istəyirdin dedin, cavabını da aldın, yazırsan yaz. Ancaq o, heç nə yazmadı, çünki axı yaza bilməzdi.

### "Risk etmək lazımdır"

**Bəzi dairələr, o cümlədən məmurlar ölkədə özəlləşmənin uğuruna şübhə ilə yanaşdığını görən Heydər Əliyev bu prosesin qaçılmaz olduğunu qəti şəkildə bildirmişdi. O demişdir:**

– Əsas məsələlərdən biri özəlləşdirmədir. Bu, asan proses deyildir. Gəlin bir-birimizi qorxutmayaq. Bu işdə risk etmək lazımdır. Bunsuz bir şeyə nail ola bilmərik. Mənim fikrim belədir ki, gərək riskə gedək, təsirli tədbirlər görək. Hər şeydən çəkinə-çəkinə dayanıb gözləməyin faydası olmaz. Belə naməlum vəziyyətdə yaşaya bilmərik. Biz keçmiş sistemdən çıxmışıq, başqa sistemə isə girməmişik. Deyirik ki, keçid dövründəyik. Keçid dövrü nə qədər olar? Gəlin bütün gücümüzü, imkanlarımızı cəmləşdirək. Başqa çarə yoxdur. Dayanıb vaxt itirmək olmaz.

### "Onlara torpaq düşmür"

**Torpaq islahatına mühüm əhəmiyyət verən Heydər Əliyev islahatın dəqiq və düşünülmüş şəkildə həyata keçirilməsinə xüsusi nəzarət edirdi. Bu barədə məsələ müzakirə olunarkən ulu öndər demişdir:**

– Burada bir söz də dedilər ki, torpaq hamıya mənsubdur. Deyəsən, Aydın müəllim dedi ki, 7 milyon əhali var və bu 7 milyonun hamısına torpaq verilməlidir. Belə deyil. Məsələn, adam var ki, şəhərdə doğulub, onun babası da, ulu babası da heç vaxt torpaqla bağlı olmayıbdır. Mən vaxtilə burada işləyəndə yanımda mənə vəzifəcə çox yaxın olan bir nəfərlə, – onun adını çəkmək istəmirəm, – Zuğulbada dövlət bağında bəzən söhbət edəndə ondan soruşurdum ki, bu nə ağacdır? Bu adam, məsələn, ərik ağacı ilə alça ağacını, yaxud alma ağacı ilə armud ağacını ayırd edə bilmirdi. Mənə məlum idi ki, bu adam bunu bilmir. Ona görə də gəzişərkən qəsdən soruşurdum ki, bu nə ağacıdır? Ola bilsin ki, o küknarı, yaxud qovağı hər adam tanımasın. Amma, şübhəsiz, bağça-bağı olan, torpaqla məşğul olan adam meyvə ağacını mütləq bilir. O bilir ki, məsələn, bu ərikdir, bu almadır, alçadır, bu heyvadır, yaxud başqa ağacdır. Lakin dediyim həmin adam bunları bilmirdi. Neçə dəfə də demişdim ki, a kişi, sən bunları öyrən, gələn il biz bu bağda gəzişəndə səndən yenə soruşacağam ki, bu hansı ağacdır, o hansı ağacdır. Lakin yenə də bunu öyrənə bilmirdi. Əlbəttə, mən onu təqsirləndirə bilməzdim. Çünki bu adam dünyasında nə bağ görmüşdü, nə də bağça, nə kənd görmüşdü, nə də torpaq. Bu adam şəhərdə doğulub, şəhərdə də yaşayıb, asfaltdan, binadan başqa heç nə görməyibdir, kəndlə də əlaqəsi olmayıbdır. İndi bizdə belə adamlar çoxdur. Yoxsa, deməliyik ki, onlara da torpaq düşür? Əlbəttə ki, onlara torpaq düşmür.

(ardı var)

**Faiq SADIQOV,**
**Əməkdar jurnalist**

---

# San-Remo şəhərində ümummilli liderə həsr olunmuş konsert




**İtaliyanın San-Remo şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "O Patro Mia" adlı konsert keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, İtaliyada yaşayan azərbaycanlı bəstəkar Kəmalə Əlizadə və onun həyat yoldaşı, bəstəkar-musiqiçi Stefano Muskaritolonun təşkilatçılığı ilə San-Remo Teatrında baş tutan tədbirdə Korbetta şəhər meri, yerli ictimaiyyətin tanınmış simaları və KİV nümayəndələri iştirak ediblər.

Konsert öncəsi Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi Leyla Həmzəyeva Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, bu il Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğunu, vətənimizdə və dünyanın müxtəlif ölkələrində dahi şəxsiyyətə həsr olunmuş tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

Sonra konsertdə Kəmalə Əlizadə (fortepiano), Stefano Muskaritolo (gitara), Tatyana Anisimova (soprano) və Eduard Lyaşuk (bas) çıxış edərək, Almaniya, Azərbaycan və İtaliyanın məşhur bəstəkarlarının əsərlərini, eləcə də müəllif bəstələrini, "Ay Laçın", "Gözəlim sənsən", "Şuşa üzərində uçmaq" mahnılarını təqdim ediblər. Sənətçiləri maestro Massimo Dal Pranın dirijorluğu ilə Bordiqera şəhər Simfonik Orkestri müşayiət edib.

Konsertdən sonra Korbetta şəhər meri "Heydər Əliyev İli" çərçivəsində gerçəkləşdirilmiş klassik musiqi gecəsini yüksək qiymətləndirib.

---

# Misir mediası Ulu öndərdən yazdı




**Misirin "Rayetmısr", "Alqraralaraby", Elalmelaraby", "Axbarelnaselyoum", "Alrayes" mətbuat orqanlarında ümummilli lideri Heydər Əliyevə həsr olunmuş məqalə dərc edilib.**

Türk Ağsaqqalları Birliyinin təsisçisi, Missiya Media Qrupunun rəhbəri Ramin Əhmədovun müəllifi olduğu "Ulu Öndərin xüsusi diqqət yetirdiyi Misir Ərəb Respublikası: münasibətlərin qurulması və inkişafı" sərlövhəli məqalədə Misir–Azərbaycan münasibətlərinin qurulması və inkişafında Ümummilli liderin rolundan bəhs olunub.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 267** **Bakı şəhəri, 4 avqust 2023-cü il**

***"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətindən alınmış problemli aktivlərin əvəzində mövcud qanunvericiliyə uyğun olaraq əldə edilmiş və balansında olan, balans dəyəri 1 (bir) milyon manatdan çox olan əmlakların, yerli və xarici aktivlərin və ya onlar üzrə borcların tələb hüquqlarının satılması və kənar idarəçilərə idarəetməyə verilməsi üzrə Müsabiqə Komissiyasının yaradılması barədə***

"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 iyul tarixli 570 nömrəli Fərmanının 5.2-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası İqtisadi Şurasının 2022-ci il 24 noyabr tarixli Qərarının (protokol № 18) 5-ci, 6-cı və 7-ci hissələrində qeyd olunanları nəzərə alaraq "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının idarəetməsinə verilmiş problemli aktivlər üzrə ödənilməmiş borcların əvəzində mövcud qanunvericiliyə uyğun olaraq əldə edilmiş və balansında olan, balans dəyəri 1 (bir) milyon manatdan çox olan əmlakların, yerli və xarici aktivlərin və ya onlar üzrə borcların tələb hüquqlarının satılması və kənar idarəçilərə idarəetməyə verilməsi prosesində şəffaflığın təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı (bundan sonra - "Aqrarkredit" QSC) tərəfindən "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətindən (bundan sonra - "Azərbaycan Beynəlxalq Bankı" ASC) alınmış problemli aktivlərin (borcların) əvəzində əldə edilmiş və balansında olan, Azərbaycan Respublikasının ərazisində və Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən, balans dəyəri1 (bir) milyon manatdan çox olan əmlakların, yerli və xarici aktivlərin və ya onlar üzrə borcların tələb hüquqlarının hərrac və müsabiqə yolu ilə satılması və kənar idarəçilərə idarəetməyə verilməsi, habelə ödənişində ciddi problemlər olan və ümidsiz hesab edilən yerli və xarici aktivlər üzrə borcların tələb hüquqlarının (bundan sonra - problemli əmlaklar və onlar üzrə tələb hüquqları) kollektor və hüquq şirkətlərinə, eləcə də ayrı-ayrı hüquqi və ya fiziki şəxslərə satılması, habelə investisiya layihələrinə iştirak payı kimi qoyulması və həmin payın sonradan satılması və ya professional idarəedən hüquqi şəxslərə idarəetməyə verilməsi üzrə əqdlərin bağlanılması barədə qərarların qəbul edilməsi məqsədilə aşağıdaki tərkibdə Problemli aktivlərin (əmlakların) və onlar üzrə tələb hüquqlarının satılması, idarəetməyə verilməsi və iştirak payı kimi qoyulması üzrə Müsabiqə Komissiyası yaradılsın:

### Komissiyanın sədri

Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini

### Komissiyanın üzvləri:

Malik Vəliyev - Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini, sədr vəzifəsini icra edən Emil Məmmədov - Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin maliyyə və təminat şöbəsi müdirinin müavini

Rəşad Zalov - Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Strateji planlaşdırma və innovasiyalar şöbəsi müdirinin müavini

Natiq Quliyev - Azərbaycan Respublikası Mərkəzi Bankının Təhlükəsizlik Departamentinin problemli aktivlərlə iş şöbəsinin rəisi.

**2.** "Problemli aktivlərin (əmlakların) və onlar üzrə tələb hüquqlarının satılması, idarəetməyə verilməsi və iştirak payı kimi qoyulması üzrə Müsabiqə Komissiyasının fəaliyyət qaydası" təsdiq edilsin (əlavə olunur).

**3.** Problemli aktivlərin (əmlakların) və onlar üzrə tələb hüquqlarının satılması, idarəetməyə verilməsi və iştirak payı kimi qoyulması üzrə Müsabiqə Komissiyasına (bundan sonra - Müsabiqə Komissiyası) tapşırılsın ki:

3.1. "Aqrarkredit" QSC-nin əsaslandırılmış təklifləri əsasında:

3.1.1. problemli əmlakların və onlar üzrə tələb hüquqlarının hərrac və müsabiqə yolu ilə satılması, kollektor və hüquq şirkətlərinə, eləcə də ayrı-ayrı hüquqi və fiziki şəxslərə satılması, idarəetməyə verilməsi, habelə investisiya layihələrinə iştirak payı kimi qoyulması və həmin payın sonradan satılması və ya professional idarəedici hüquqi şəxslərə idarəetməyə verilməsi barədə qərarlar qəbul etsin;

3.1.2. problemli əmlaklar və onlar üzrə tələb hüquqlarının hər hansı biri barədə satış qərarı qəbul edildikdə müvafiq əmlak üzrə seçilmiş nüfuzlu müstəqil qiymətləndiricinin rəyi nəzərə alınmaqla, əmlakın ilkin satış qiyməti barədə qərar qəbul etsin, habelə müsabiqə vasitəsilə satıldıqda müsabiqənin şərtlərini müəyyən etsin;

3.1.3. əmlakların açıq hərraclarda satışı məqsədilə ixtisaslaşdırılmış hərrac təşkilatlarının seçilməsini təmin etsin, əmlak müsabiqə vasitəsilə satıldıqda müsabiqə haqqında elanların mediada yayılmasını təşkil etsin və müsabiqə qalibini müəyyən etsin;

3.1.4. əmlakların kənar idarəçilərə idarəetməyə verilməsinin üsullarını (birbaşa müqavilə və ya müsabiqə əsasında), şərtlərini, tələblərini və müddətini, habelə müsabiqə qalibini müəyyən etsin;

3.1.5. əmlakların növündən və mürəkkəbliyindən asılı olaraq, onların satılması və ya kənar idarəçilərin idarəetməsinə verilməsi zamanı muzdla kənar məsləhətçinin cəlb edilməsi barədə qərar qəbul etsin;

3.2. ipoteka (girov) predmeti olan və borc tələbi yönəldilmiş əmlakların satılması vəziyyəti ilə bağlı "Aqrarkredit" QSC-nin məlumatlarına baxsın və tövsiyələrini versin;

3.3. işini bu Qərarın 2-ci hissəsi ilə təsdiq edilmiş Müsabiqə Komissiyasının fəaliyyət qaydasına uyğun olaraq təşkil etsin və zərurət yarandıqda öz işinə dair reqlamentlər, həmçinin digər tənzimləyici qərarlar qəbul etsin.

**4.** "Aqrarkredit" QSC-yə tapşırılsın:

4.1. problemli əmlakların və onlar üzrə tələb hüquqlarının satılması, idarəetməyə verilməsi və pay kimi qoyulması məqsədilə zəruri təşkilati və hazırlıq işləri aparsın, həmin əmlakların qiymətləndirilməsi və satışı üçün müstəqil qiymətləndirici, ekspert, əmlakın növündən və mürəkkəbliyindən asılı olaraq isə kənar məsləhətçi cəlb edilməsi ilə bağlı tədbirlər həyata keçirsin;

4.2. hər bir əmlakın satışı üzrə tələb olunan məlumatları, o cümlədən əmlakın tərkibi, vəziyyəti, texniki parametrləri və ilkin satış qiymətinin formalaşmasına dair digər əsaslandırılmış göstəriciləri (qiymətləndirmə hesabatları daxil olmaqla) Müsabiqə Komissiyasına təqdim etsin;

4.3. ipoteka (girov) predmeti olan və borc tələbi yönəldilmiş əmlakların satılması vəziyyəti ilə bağlı mütəmadi olaraq Müsabiqə Komissiyasına məlumat versin;

4.4. problemli əmlakların və onlar üzrə tələb hüquqlarının satılması, idarəetməyə verilməsi və pay kimi qoyulması zamanı qanunvericiliyə uyğun olaraq tələb olunan hüquqmüəyyənedici sənədlərin hazırlanmasını təmin etsin, zərurət yarandıqda bu məqsədlə kənar hüquq məsləhətçilərini cəlb etsin;

4.5. Müsabiqə Komissiyasının iclaslarının çağırılmasını və keçirilməsini təşkil etsin, iclasların nəticələrinin rəsmiləşdirilməsinə dair katiblik funksiyalarını həyata keçirsin.

**5.** Müsabiqə Komissiyası və "Aqrarkredit" QSC bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

**6.** Müsabiqə Komissiyası ildə bir dəfə görülmüş işlər barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə hesabat təqdim etsin.

**7.** "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətindən alınmış problemli aktivlərin əvəzində mövcud qanunvericiliyə uyğun olaraq əldə edilmiş və rəsmiləşdirilmiş əmlakların satılması və kənar idarəçilərə idarəetməyə verilməsi üzrə Müsabiqə Komissiyasının yaradılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 22 iyun tarixli 252 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2016, № 6, maddə 1223) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 269** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***"İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların.siyahısı"nın təsdiq edilməsi haqqında***

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin və "Gömrük tarifi haqqında" Azərbaycan Respub-likasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 755-VIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 yanvar tarixli 1999 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2023-cü il 1 yanvar tarixindən tətbiq edilir və 2033-cü il 1 yanvar tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 270** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***"Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747; 2012, № 8, maddələr 827, 830; 2013, № 3, maddə 347, № 7, maddə 886, № 8, maddə 1017, № 10, maddə 1218; 2014, № 1, maddələr 51, 69, № 2, maddə 201, № 4, maddə 441, № 5, maddələr 572, 594, № 6, maddə 747, № 8, maddə 1015, № 12, maddələr 1658, 1666; 2015, № 2, maddə 227, № 11, maddə 1417; 2016, № 3, maddə 609, № 4, maddə 831, № 5, maddə 955, № 7, maddə 1353, № 8, maddə 1437, № 9, maddələr 1585, 1589, № 12, maddə 2241; 2017, № 5, maddə 966, № 10, maddələr 1890, 1919, № 11, maddə 2168, № 12 (II kitab), maddələr 2476, 2487, 2507; 2018, № 3, maddələr 588, 632, № 6, maddə 1374, № 7 (II kitab), maddə 1668, № 8, maddə 1807, № 9, maddə 1906, № 10, maddələr 2142, 2172, № 11, maddə 2426; 2019, № 3, maddələr 529, 563; 2020, № 2, maddə 204, № 4, maddə 500, № 5, maddə 652, 8, maddə 1123, № 9, maddə 1217, № 10, maddələr 1258, 1296, № 11, maddə 1405, № 12 (V kitab), maddə 1616; 2021, № 2, maddə 203, № 3, maddələr 265, 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 682; 2022, № 1, maddə 59, № 3, maddə 277, № 4, maddələr 387, 411, № 5, maddə 544, № 6, maddə 683, № 7, maddə 811, № 9, maddələr 1083, 1109, № 11, maddə 1356, № 12, maddələr 1552, 1560; 2023, № 5, maddə 734; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 19 iyul tarixli 234 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 37-ci hissənin "cəmi" sütununda "18" rəqəmləri "13" rəqəmləri ilə, "ərazi və yerli bölmələr üzrə" sütununda "15" rəqəmləri "10" rəqəmləri ilə əvəz edilsin.

**2.** 39-cu hissənin "cəmi" sütununda "15" rəqəmləri "26" rəqəmləri ilə, "ərazi və yerli bölmələr üzrə" sütununda "12" rəqəmləri "23" rəqəmləri ilə əvəz edilsin.

**3.** 41-ci hissə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 271** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***"İriqabaritli və ağırçəkili nəqliyyat vasitəsinin mühafizə və müşayiət avtomobilləri ilə müşayiət olunmasına və hərəkət marşrutunun müəyyən olunmasına görə xidmət haqqının məbləği"nin təsdiq edilməsi haqqında***

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 831-VIQD nömrəli Qanununun tətbiqi və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 11 aprel tarixli 2097 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İriqabaritli və ağırçəkili nəqliyyat vasitəsinin mühafizə və müşayiət avtomobilləri ilə müşayiət olunmasına və hərəkət marşrutunun müəyyən olunmasına görə xidmət haqqının məbləği" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 282** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Nəqliyyat vasitələrinə texniki xidmət göstərilməsi haqqında nümunəvi Əsasnamənin, Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir sahələri haqqında nümunəvi Əsasnamənin və Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə" 1999-cu il 15 oktyabr tarixli 163 nömrəli, "Meşə təsərrüfatı sahəsinə dair bəzi normativ hüquqi aktlar haqqında" 1999-cu il 8 noyabr tarixli 174 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təşkili və "Malın mənşəyi haqqında sertifikat" formasının təsdiq edilməsi haqqında" 2000-ci il 5 dekabr tarixli 211 nömrəli, "Təhlükə potensiallı obyektlərdə istehsal və istifadə olunan texniki qurğulara və avadanlıqlara sertifikatın verilmə Qaydalarının təsdiq edilməsi haqqında" 2002-ci il 8 iyul tarixli 102 nömrəli, "Tenderin nəticələri haqqında tender komissiyasının yekun protokolunun nümunəsinin təsdiq edilməsi barədə" 2002-ci il 2 avqust tarixli 124 nömrəli, "Yanacağın, texniki qurğuların, texnoloji proseslərin, mühərriklərin, nəqliyyat və digər səyyar vasitələrin, avadan-lıqların atmosfer havasının mühafizəsinə dair tələblərə uyğun olmasını təsdiq edən sertifikatlaşdırmanın Qaydalarının təsdiq edilməsi haqqında" 2002-ci il 17 oktyabr tarixli 159 nömrəli, "Güzəştlərin tətbiqi Qaydasının, Malların (işlərin və xidmətlərin) qiymətlərində dəyişikliklərin satınalma müqaviləsinə təsirinin hesablanması üsulunun təsdiq edilməsi və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında" 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli və "Qiymətli və keyfiyyətli tütün istehsalı üzrə Dövlət Proqramı"nın və "Tütün istehsalçılarına dövlət himayəsinin, habelə qiymətli və keyfiyyətli tütün istehsalının stimullaşdırılmasının digər forma və şərtləri haqqında Əsasnamə"nin və "Tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2002-ci il 22 noyabr tarixli 185 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 oktyabr tarixli 163 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 597; 2001, № 1, maddə 74; 2006, № 7, maddə 653; 2008, № 6, maddə 597; 2014, № 2, maddə 201; 2016, № 4, maddə 816, № 5, maddə 955; 2018, № 8, maddə 1817, № 10, maddə 2175, № 11, maddə 2448; 2019, № 1, maddə 154; 2022, № 4, maddə 385, № 8, maddə 986) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir sahələri haqqında Nümunəvi Əsasnamə"nin 2.3-2-ci bəndində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında Nümunəvi Əsasnamə"nin 2.4-2-ci bəndində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 8 noyabr tarixli 174 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 649; 2004, № 3, maddə 193; 2005, № 1, maddə 49; 2006, № 5, maddə 472; 2009, № 1, maddə 32; 2010, № 8, maddə 765; 2015, № 11, maddə 1418; 2018, № 8, maddə1817) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş "Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi Qaydası"nın 3-cü hissəsinin dördüncü abzasında və Qaydaya əlavə olunmuş akt nümunəsində "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Kökküstə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının məcburi sertifikatlaşdırılmasının təşkili və aparılması Qaydası"nın 2-ci hissəsinin birinci və ikinci abzaslarında, 4-cü hissəsində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar" sözləri ilə əvəz edilsin;

2.3. 6-cı hissədə "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təşkili və "Malın mənşəyi haqqında sertifikat" formasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 5 dekabr tarixli 211 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 862; 2003, № 8, maddə 456; 2008, № 4, maddə 320; 2009, № 10, maddə 852; 2012, № 7, maddə 778; 2014, № 6, maddə 736; 2016, № 5, maddə 955) adında, 4-cü hissəsində və 6-cı hissəsinin dördüncü abzasında ismin müvafiq hallarında "Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti" sözləri ismin müvafiq hallarında "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 442; 2006, № 9, maddə 822; 2008, № 5, maddə 430; 2009, № 1, maddə 32; 2014, № 7, maddə 927, № 12, maddə 1677; 2018, № 8, maddə 1817, № 9, maddə 1924, № 11, maddə 2448) ilə təsdiq edilmiş "Təhlükə potensiallı obyektlərdə istehsal və istifadə olunan texniki qurğulara və avadanlıqlara sertifikatın verilmə Qaydaları"nın 2.7-ci bəndində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 avqust tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 535; 2016, № 4, maddə 831; 2019, № 4, maddə 746; 2021, № 10, maddə 1162) ilə təsdiq edilmiş "Tenderin nəticələri haqqında tender komissiyasının yekun protokolunun nümunəsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 17-ci hissədə " Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti" sözləri "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

5.2. Qeyd hissəsinin 1-ci və 2-ci bəndlərində "Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə" sözləri "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 159 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 642; 2009, № 1, maddə 32; 2015, № 5, maddə 663; 2018, № 8, maddə 1817) ilə təsdiq edilmiş "Yanacağın, texniki qurğuların, texnoloji proseslərin, mühərriklərin, nəqliyyat və digər səyyar vasitələrin, avadanlıqların atmosfer havasının mühafizəsinə dair tələblərə uyğun olmasını təsdiq edən sertifikatlaşdırmanın Qaydaları"nın 1.6-cı, 1.7-ci bəndlərində, 2.1-ci bəndinin ikinci, 2.2-ci bəndinin birinci, 2.5-ci bəndinin beşinci, 3.1-ci bəndinin ikinci və onuncu abzaslarında ismin müvafiq hallarında "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 648; 2016, № 7, maddə 1364; 2019, № 4, maddə 746, № 7, maddə 1334; 2020, № 9, maddə 1202) ilə təsdiq edilmiş "Güzəştlərin tətbiqi Qaydası"nın 4-cü hissəsində "Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti" sözləri "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 22 noyabr tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 11, maddə 687; 2005, № 6, maddə 558; 2006, № 4, maddə 370; 2009, № 1, maddə 32; 2012, № 1, maddə 31; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955; 2017, № 9, maddə 1744; 2018, № 8, maddə 1817; 2022, № 12, maddə 1558) ilə təsdiq edilmiş "Tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın I bölməsinin 2-ci hissəsindən "Vergilər Nazirliyi,", "Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi," sözləri, II bölməsinin 2-ci hissəsindən ", Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri (hər iki halda) və "Vergilər Nazirliyi," sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanın inkişafını "Azəri–Çıraq–Günəşli"siz təsəvvür etmək mümkün deyil

## Həmin yataqlar blokunda tikilən ACE platforması vasitəsilə 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır

**(əvvəli 1-ci səhifədə)**

Ancaq "Azəri–Çıraq–Günəşli"-nin müstəqillik dövründə işlənilməsi tarixi hadisədir. Çünki bugünkü Azərbaycanın inkişafını "Azəri–Çıraq–Günəşli"siz təsəvvür etmək mümkün deyil. Bu yatağın işlənilməsi və yataqdan hasil olunan neft bugünkü Azərbaycanın inkişafını təmin edir, iqtisadi müstəqilliyini şərtləndirir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyimizi möhkəmləndirir. Beləliklə, "Azəri–Çıraq–Günəşli" yatağının kəşf edilməsi və işlənilməsi doğrudan da tarixi hadisədir".

Hazırda "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi də yuxarıda adıçəkilən 2017-ci il 14 sentyabr tarixli Saziş çərçivəsində reallaşır.

Qeyd edək ki, bir neçə gün bundan əvvəl, iyulun 8-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) yaydığı məlumatda bildirilirdi ki, Xəzərin Azərbaycan sektorunda yerləşən AÇG neft-qaz yataqları blokunda tikilən ACE platformasının üst modulu ASCO-nun "STB-1" barjına yüklənərək dənizdəki əməliyyat yerinə yola salınıb.

Xatırladaq ki, yaxın vaxtlarda ACE platformasında ilk hasilat quyusunun qazma işlərinə başlanılması nəzərdə tutulub. Bunun üçün platformada tikinti-quraşdırma layihələrinin sürətlə icrası məqsədilə üst modulların inşa edildiyi Bayıl sahəsinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılıb. Çünki dənizə yola salınan həmin üst modulların əsas istismar sınaqları və yoxlamaları burada həyata keçirilib.

Yeri gəlmişkən, Prezident İlham Əliyev bu il aprel ayının 4-də Bayıl tikinti-quraşdırma sahəsində ACE platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib. Həmin mərasimdə dövlətimizin başçısına ACE layihəsi üzrə yekun investisiya qərarının 2017-ci ildə AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra "Azəri–Çıraq–Günəşli" tərəfdaşlarının ilk böyük investisiya qərarı olduğu bildirilib. Mərasimdə ölkə rəhbərinə verilən məlumatda dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platformasının və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğuların daxil edildiyi, eyni zamanda, layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neftin hasil olunacağı vurğulanıb.



Bu layihə haqqında fikir bildirən mütəxəssislərin sözlərinə görə, dənizdə suyun dərinliyinin təxminən 140 metr olan sahəsində – "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihə çərçivəsində çəkilən yataqdaxili yeni sualtı boru kəmərləri platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq. Bundan əlavə, laya vurulan suları "Mərkəzi Azəri" kompressor və suvurma platformasından "Azəri–Mərkəzi–Şərqi" qurğularına nəql etmək məqsədilə "Azəri–Mərkəzi–Şərqi" və "Şərqi Azəri" platformaları arasında suvurma boru xətti olacaq.

Mütəxəssislərin məlumatına əsasən, "Azəri–Mərkəzi–Şərqi" platformasının üst modullarına neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların layihələndirilən çəkisi isə 19 min 600 tondur.

Üst modullar yuxarıda xatırlatdığımız Bayıldakı tikinti-quraşdırma sahəsində "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib.

Üst modulların tikinti işlərində ən yüksək mərhələsi Xəzərdə BP-nin ilk dəfə icra etdiyi "qaldırma və sürüşdürmə" əməliyyatı olub. Bu proses zamanı iki nəhəng qazma modulu təhlükəsiz və səmərəli şəkildə lazımi yüksəkliyə qaldırılaraq relslərlə sürüşdürmə üsulu ilə "Azəri–Mərkəzi–Şərqi" platformasının üst tikililər blokunun üzərinə yerləşdirilib. Bu dövrdə tikinti işlərinə 4400 nəfərədək işçi cəlb edilib və onların 90 faizindən çoxu Azərbaycan vətəndaşı olub.

Tikinti işlərinin və istismar sınaqlarının dənizdə həyata keçirilən hissəsi tamamlandıqdan sonra "Azəri–Mərkəzi–Şərqi" platformasından ilk neftin 2024-cü ilin əvvəllərində əldə olunması üçün birinci quyunun qazılmasına başlanacaq.

"BP-Azərbaycan" şirkətindən redaksiyamıza daxil olan məlumatda qurumun Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə prezidenti Qəri Counzun qeydləri də yer alıb: "Biz ACE platformasının son hissəsini dənizə yola saldıq. İnanırıq ki, bu platforma sistem və proseslərin avtomatlaşdırılmasına və rəqəmsal innovasiyaların geniş istifadəsinə imkan yaradacaq ən müasir dizayna malik möhtəşəm innovativ mühəndislik nümunəsidir. Bu platforma Səngəçal terminalından, yəni uzaq məsafədən idarə olunacaq ilk dəniz platforması kimi tarixə düşəcək".

Qəri Counz daha sonra bildirir ki, belə bir mürəkkəb layihə – quruda aparılan bütün tikinti işləri və istismar sınaqları uğurla başa çatdırılıb və əməliyyatın yüksək səviyyədə tamamlanmasında podratçılar, tikinti, istismar sınaqları, texniki təhlükəsizlik və mühəndis qrupları, ümumiyyətlə, bütün işçi qüvvəsi tərəfindən böyük fədakarlıq göstərilib.

Üst modulların tezliklə təhlükəsiz şəkildə dayaq blokunun üzərinə quraşdırılacağı planlaşdırılır. Bundan sonra isə platformadan ilk hasilat quyusunun qazma işlərinə başlanılması və 2024-cü ilin əvvəlində ilk nefti əldə etmək üçün dənizdə quraşdırma işlərinin və istismar sınaqlarının tamamlanması nəzərdə tutulur.

ACE platformasının üst modulları neft və qaz emalı qurğularından, qazma qurğusu və avadanlıq kompleksindən, qaz kompressorundan və yaşayış bloklarından ibarətdir. Qeyd edək ki, 6 milyard dollarlıq ACE layihəsi Xəzər dənizində nəhəng AÇG yatağının işlənməsinin növbəti mərhələsidir.

Platforma və qurğular gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılıb.

***V.BİNYATOĞLU,***
***"Xalq qəzeti"***

## Bu il 87 milyon manata yaxın ƏDV geri qaytarılıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin açıqlamasına görə, indiyədək alınan mallara görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması üçün 2,3 milyona yaxın istifadəçi qeydə alınıb.**

Məlumata görə, "ƏDV geri al" layihəsinin tətbiq edildiyi vaxtdan 2023-ci il avqustun 1-dək portalda qeydiyyatdan keçən istehlakçılara, ümumilikdə, 1 milyarddan çox kassa çeki üzrə 448,2 milyon manat, cari ilin yanvar-iyul ayları ərzində isə 86,7 milyon manat ƏDV məbləği geri qaytarılıb.

## 7 ayda Bakı Dəniz Limanı ilə yükdaşımalar 4,1 milyon tona yüksəlib

**Bakı Dəniz Limanının Strateji Planlaşdırma və İnkişaf Departamentinin rəisi Xudayar Həsənlinin mətbuata açıqlamasında cari ilin yanvar-iyul aylarında adıçəkilən liman ilə yükdaşımalar 14 faiz və ya 500 min ton artaraq 3,6 milyon tondan 4,1 milyon tona yüksəlib.**

X.Həsənlinin sözlərinə görə, Türkiyə ilə Mərkəzi Asiya arasında təkərli nəqliyyat vasitələrinin dövriyyəsi 120 min TIR təşkil edir. Bu gün həmin texnikanın, təxminən, 25 faizi Azərbaycan ərazisindən daşınır. Bu rəqəmin 50 faizə və ya 60 min ədədə çatdırılması qarşıda mühüm vəzifə kimi durur.

Hazırda Türkiyə ilə Özbəkistan arasında 20 min TIR təkərli nəqliyyat vasitələrinin dövriyyəsi var. Azərbaycan bu ölkələr arasında təkərli nəqliyyat vasitələrinin ölkəmizin ərazisindən daşınmasını daim diqqətdə saxlayır.

## Təbii qazın həcmi artıb

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin əvvəlinə olan ehtiyatlar da nəzərə alınmaqla 2023-cü ilin yanvar-iyun aylarında ölkədə əmtəəlik təbii qaz istehsalının həcmi 1 milyard 817 milyon kubmetr təşkil edib.**

Təbii qaz üzrə ehtiyatların 29,9 faizi respublika daxilində istehlak olunub, 56,5 faizi ixraca yönəldilib, 1,5 faizi itkiyə gedib, 12,1 faizi isə iyul ayının əvvəlinə ehtiyat kimi saxlanılıb.

Ölkə daxilində istehlaka yönəldilən təbii qazın 59,6 faizi istehsal ehtiyaclarına sərf edilib, 40,4 faizi isə əhaliyə satılıb.

Bu ilin yanvar-iyun aylarında 1 milyard 180 milyon kubmetr və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çox təbii qaz ixrac edilib.

## Bakıya investisiya qoyuluşu 4 milyard manatı ötüb

**Bakı Şəhər Statistika İdarəsindən aldığımız məlumatda bildirilir ki, bu ilin ilk yarısında paytaxt iqtisadiyyatına investisiya qoyuluşu 4 milyard 32,3 milyon manat olub, illik müqayisədə 17,3 faiz artıb.**

***"Xalq qəzeti"***

# Ermənistan iddialarından əl çəkmir

**(əvvəli 1-ci səhifədə)**

A.Akopyan müsahibəsində Espo Konvensiyasının 15-ci maddəsini xatırladaraq "tərəflər arasında mübahisə yarandıqda, onlar bunu danışıqlar yolu ilə və ya öz mülahizələri əsasında hər hansı digər yolla həll etməlidirlər", – deyir. Bax, elə bu məqamda onun çirkin niyyəti üzə çıxır. Belə ki, Azərbaycanın bu məsələ ilə bağlı ilk gündən qarşı tərəflə danışıqlar aparmaq cəhdi, respublikamızın Ermənistanın belə bir təhlükəli yoldan geri dönməsinin zəruri olduğunu dəfələrlə bildirməsi nənki işğalçı dövlətə, eyni zamanda, beynəlxalq qurumlara da bəllidir.

O da aydındır ki, beynəlxalq hüquqa görə, hər bir ölkə öz ərazisində təsərrüfat fəaliyyəti ilə məşğul ola bilər. Lakin həmin fəaliyyət digər ölkənin ərazisinə təsir edirsə, bu, mütləq razılaşma yolu ilə beynəlxalq hüquq və ekoloji normalara uyğun həyata keçirilməlidir. Ermənistan isə bu zəruri amili qulaqardına vurur, tarixi Azərbaycan torpağı olan Arazdəyəndə xarici investorla birgə metallurgiya zavodunun tikintisini–belə bir ağır cinayət əməlini davam etdirməkdə israrlı olduğunu beynəlxalq aləmə məhəl qoymadan davam etdirir, hətta bu azmış kimi, ölkəmizi haqq səsinə görə, necə deyərlər, günahkar çıxarır.

Yeri gəlmişkən, bu məsələ Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ermənistanın Azərbaycanın ekoloji mühitinə ciddi mənfi təsir göstərən qanunsuz fəaliyyəti ilə bağlı yaydığı bəyanatda da öz ifadəsini tapıb. Həmin bəyanatda qeyd olunur ki, belə bir zavodun tikilməsi işğalçı dövlətin "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Konvensiyasının (Espo Konvensiyası) müddəalarını kobud surətdə pozması deməkdir. Belə ki, Espo Konvensiyasının müddəalarına görə, Konvensiya tərəfi öz ərazisində planlaşdırdığı iri təsərrüfat fəaliyyətinin digər ölkələrin ərazisinə mənfi ekoloji təsiri olduğu halda, bu fəaliyyəti həmin ölkənin müvafiq qurumları ilə razılaşdırılmalı, ətraf mühitə təsirin qiymətləndirilməsi ilə bağlı sənəd hazırlamalıdır. Ermənistan Espo Konvensiyasının üzvü olaraq sözügedən fəaliyyətə başlamazdan öncə Azərbaycanın və təsirə məruz qalan ərazilərdə ictimaiyyətin transsərhəd ətraf mühitə təsirin qiymətləndirilməsi prosedurunda iştirakını təmin etməli idi.



Bəyanatda daha sonra deyilir: "Bildiririk ki, Ermənistan tərəfindən beynəlxalq hüquq, o cümlədən ekoloji hüquq normalarına riayət edilməməsi ilk hal deyil. Bir müddət əvvəl Metsamor Atom Elektrik Stansiyasının ərazisində yeni nüvə reaktorunun tikintisi planları ilə əlaqədar Azərbaycan Espo Konvensiyası çərçivəsində Ermənistana qarşı iddia irəli sürmüş və Ermənistanın Konvensiyanın müddəalarına əməl etmədiyi barədə qərar çıxarılmışdır.

Ermənistanın dağ-mədən sənayesi uzun illərdir ki, Azərbaycanın ekoloji mühitinə ciddi mənfi təsir göstərir. Ermənistanın iri mədən müəssisələri – Qacaran mis-molibden zavodu və Qafan filiz emalı kombinatının yüksək kimyəvi tərkibli istehsalat suları transsərhəd Oxçuçayı intensiv şəkildə çirkləndirir. Bu faktlar göstərir ki, Ermənistanın bu cür qanunsuz fəaliyyətləri təkcə Azərbaycanın deyil, ümumi regionun ekoloji mühiti üçün təhlükə mənbəyinə çevrilib".

Ümumiyyətlə, belə bir təhlükəli müəssisənin məqsədli şəkildə ölkəmizlə sərhəddə, Arazın Azərbaycana tökülən hissəsində tikilməsi ekoterrordur. Metalların zəhərli tullantılarının Araz çayına axıdılması burada olan yüzlərlə köçəri quşun və balığın məhvi deməkdir. Düzdür, Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsi bu gün də davam edir. Bu isə Arazqırağı ərazilərdə fauna və floranın məhvinə səbəb olur. Mütəxəssislərin sözlərinə görə, artıq bir çox bitki və heyvanların bu ərazilərdə gözə dəyməməsi bu ekoterrorla bağlıdır. Son zamanlar aparılan müşahidələr zamanı müəyyən edilib ki, çayın suyu getdikcə qatılaşır, rəngi dəyişir. Lakin bütün bunlara baxmayaraq, Ermənistan təbiət əleyhinə yönələn əməllərini davam etdirməkdən çəkinmir.

Ekoloqlar bildirirlər ki, sözügedən zavod fəaliyyətə başlayandan sonra Araz çayının daha çox çirklənməsi ilə yanaşı, həm də istehsal zamanı müəssisənin atmosferə atacağı qaz və metal tozlar külək vasitəsilə ətrafa yayılacaq, bununla da sərhəddə yerləşən yaşayış məntəqələri, eyni zamanda, muxtar respublika üçün təhlükəli vəziyyət yaranacaq.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Ermənistanın müəyyən dövrlərdə transsərhəd çaylar vasitəsilə ölkəmizə qarşı ekoterror törətdiyi məlumdur. İşğalçı dövlət bu dəfə isə ABŞ-da qeydiyyatda keçən şirkətlə birgə metallurgiya zavodu tikməklə, necə deyərlər, bütün sərhədləri keçir, daha dəhşətli əmələ əl atır. Çünki tikiləcək müəssisənin kimyəvi tullantıları Araza axıdılmaqla bu çayın flora və faunasına ciddi zərər verməklə bərabər həmin bölgədə fəaliyyət göstərən fermer təsərrüfatlarına və insanların sağlamlığına ciddi təhlükə yaradacaq. Ermənistan bu cür ekoloji terror törətməklə 1991-ci il Espo konvensiyasını pozur. Bununla da işğalçı dövlət müəssisənin tikintisini reallaşdırmaqla "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi" prinsiplərini bilərəkdən pozur.

Ümumiyyətlə, bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantıları bölgədəki ekosistemə böyük zərbə vura bilər. Onun tullantılarının Araz çayına axıdılması riski həm çaydakı canlı aləm, həm də Arazın suyundan suvarma üçün istifadə edilən geniş təsərrüfatlar üçün həyəcan siqnalıdır. Ermənistanın dağ-mədən sənayesində heç bir beynəlxalq standartlara əməl edilməməsi həm Azərbaycan, həm də, ümumilikdə, bölgə üçün ciddi ekoloji təhdid yaradır.

Qeyd edim ki, Azərbaycan və Ermənistan adıçəkilən Konvensiyanın tərəfləri olduğu üçün həmin sənədə əsaslanaraq zavodun ətraf mühitə təsirinin qiymətləndirilməsi işini birgə aparmalı, eyni zamanda, bölgəyə yaxın yaşayan azərbaycanlıların rəyi nəzərə alınmalıdır. Ermənistanın bu tələblərə riayət etməməsi bir daha onu göstərir ki, işğalçı dövlət regionda destruktiv siyasət aparır, tərəf olduğu beynəlxalq sənədlərin müddəalarını, beynəlxalq öhdəliklərini kobud şəkildə pozur.

Ermənistan tərəfindən Azərbaycana qarşı ekoloji terror və ekosid siyasətinin aparılması yenilik deyil. "Metsamor"un uzun illər regionun ətraf mühitinə təhdid kimi qalması, işğal dövründə Qarabağda törədilmiş genişmiqyaslı ekoloji faciələr, yüksək kimyəvi tərkibli istehsalat sularının təmizlənmədən Oxçuçaya axıdılması buna əyani misaldır.

Hazırda isə Ermənistan ekoloji cinayətini davam etdirməklə, ətraf mühitə ciddi ziyan vurmaqla Azərbaycan, o cümlədən region əhalisinin insan hüquqlarını kobud şəkildə pozur və sırf özünün iqtisadi maraqlarını önə çəkir.

# “Bir müəllimin manifesti” Qazaxda





(əvvəli 1-ci səhifədə)

Avqustun 7-də Prezident İlham Əliyevin Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri zamanı sosial-iqtisadi sahə ilə yanaşı, bir sıra təhsil və mədəniyyət obyektlərinin də açılış mərasimləri gerçəkləşib. Dövlətimizin başçısı öncə Qazax Müəllimlər Seminariyası – ADA Universiteti Qazax Mərkəzində yaradılan şəraitlə tanış olub.

Bildiyimiz kimi, Qazax Müəllimlər Seminariyası şərəfli maarifçilik tariximizin ön səhifələrindən, anadilli təhsilimizin ilk sütunlarındandır. Yaranması Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Nəriman Nərimanov, Suleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyli kimi mütəfəkkirlərimizin, böyük ziyalılarımızın oxuduğu məşhur Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası ilə bağlıdır. 1918-ci ildə – çar rejiminin dağıldığı və İstiqlal Bəyannaməsi ilə Xalq Cümhuriyyətinin elan olunduğu bir vaxtda, parçalanmış seminariyanın Azərbaycan şöbəsinin bazasında müəllim kadrları hazırlayan bu milli təhsil ocağı yaradılıb.

Firidun bəy Köçərlinin reallaşdırdığı köçürmə qazaxlı Məşədi İbrahim ağa Kosalının seminariyaya hədiyyə etdiyi 17 otaqlı mülkdə baş tutub. Onu da qeyd edək ki, seminariyanın ilk direktoru olmuş Firidun bəy çox keçmədən orada yaşlılar üçün savad kursunun və yetimlər evinin–pansionun açılmasına da nail olub. Görkəmli maarifçi, pedaqoq, ədəbiyyatşünas buranı obrazlı şəkildə “Maarif və mədəniyyət çeşməsi” adlandırıb.

Ümummilli lider Heydər Əliyev 1999-cu ildə Qazax Müəllimlər Seminariyasının 80 illik yubileyinin keçirilməsi haqqında göstəriş verib və bu məqsədlə təşkil olunmuş ümumrespublika elmi-praktik konfransının iştirakçılarına təbrik məktubu ünvanlayıb. Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci il noyabrın 3-də Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. ADA Universiteti seminariyanın tarixi binasının və onun maarifçi missiyasının bərpası təşəbbüsü ilə çıxış edib.

İnişil oktyabrda başlanılan bərpa işlərinə Heydər Əliyev Fondu, Azərbaycan Sahibkarlar Konfederasiyası, Amerika Azərbaycan Cəmiyyəti cəlb olunub. Tarixi əhəmiyyətli binada bərpa işləri xüsusi zövqlə aparılıb. Bu ilin yanvarında Qazax Müəllimlər Seminariyası – ADA Universitetinin Qazax Mərkəzində Firidun bəy Köçərlinin 160 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Unudulmaz yazıçımız, Əməkdar elm xadimi, filologiya elmləri doktoru Mir Cəlal Paşayev ötən əsrdə onu ədəbi zirvəyə qaldıran, Azərbaycan romanının ən gözəl nümunələrindən olan "Bir gəncin manifesti" adlı romanını yazıb. Hafiz Mir Cəlal oğlu Paşayev isə həyata baxışının, dünyagörüşünün formalaşmasında fövqəladə rolu olan atasının həmin əsərinin adından yaradıcı şəkildə bəhrələnərək özünün səfirlik fəaliyyəti ilə bağlı yazdığı kitabını “Bir səfirin manifesti” adlandırıb. İndi isə, budur, rəhbərlik etdiyi ADA Universitetində araya-ərsəyə gələn yeni tədris layihəsi “Bir müəllimin manifesti” adlanır. Əslində, hər kəsin həyatı, yaradıcılığı və fəaliyyəti özlüyündə bir manifestdir. Fərəhli haldır ki, “Bir müəllimin manifesti” layihəsi çərçivəsində Qazax Müəllimlər Seminariyasının tarixi binasının da əsaslı təmiri həyata keçirilir.

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezidentə məlumat verib ki, akademiyanın Qazax Mərkəzində ötən tədris ilindən iki magistr proqramı həyata keçirilir. “Bir müəllimin manifesti” ixtisasartırma proqramı xüsusi maraq kəsb edir. Proqram çərçivəsində bölgələrdən müsahibə yolu ilə seçilmiş müəllim və direktorlar birinci mərhələdə Qazax Mərkəzində, ikinci mərhələdə ADA Universitetində, üçüncü mərhələdə isə ADA Vaşinqton Mərkəzində tədrisə cəlb olunurlar. Bu, əsl modernləşdirmədir. Fənlərin tədrisi əyani və onlayn şəkildə ADA Universiteti Bakı və ADA-nın Qazax Mərkəzində ayda 2 həftəsonu (4 tam gün) əyani şəkildə, digər vaxtlar isə ADA Universitetinin Blackboard öyrənmə platforması üzərindən onlayn həyata keçirilir. Başqa sözlə desək, “Bir müəllimin manifesti” təhsil proqramı, əslində, rektor Hafiz Paşayevin təşəbbüsü ilə yenidən bərpa olunan, təhsil tariximizin başlanğıc nöqtəsi sayılan Qazax Müəllimlər Seminariyasının 100 ildən sonra təртib edilən ilk proqramıdır. Həmin təşəbbüs təkcə Qazax Müəllimlər Seminariyasının bərpasını hədəfləmir, eyni zamanda, milli tariximizin və irsimizin qorunmasını nəzərdə tutur.

Yenidənqurmadan sonra artıq göz oxşayan binada gələcəkdə ADA Universiteti tərəfindən 10-11-ci sinif şagirdlərinin təhsil alacağı müasir tipli yeni məktəbin qurulması, bir neçə bakalavr ixtisasının açılması və kollecin təsis edilməsi nəzərdə tutulur. Mərkəzdə fəaliyyət göstərən magistr proqramlarının tədrisinə ADA Universitetinin müəllim və professor heyəti cəlb olunub. Burada Müəllimlər evi də tikilir.

ADA Qazax Mərkəzinin tədris kompleksinə daxil olan XIX əsrə aid yerli əhəmiyyətli tarixi İsrafil ağa hamamının təmirindən sonra onun daxilində Qazax xalçaçılıq məktəbi nümunələrindən ibarət muzeyin və rəsm dərnəyinin açılması nəzərdə tutulur. Bura, həmçinin kiçik həcmli musiqili ədəbi-mədəni tədbirlərin keçirilməsi üçün ideal məkandır.

Xatırlayırıq ki, ötən ilin əvvəlində binada əsaslı təmir başlanan zaman mülkünü seminariyaya hədiyyə etmiş Məşədi İbrahim ağanın nəvəsi Şahbəddin Hacıyev buna görə hədsiz razılığını bildirib. Təhsilimizin, elmimizin inkişafına dəstək olan insanlara verilən dəyərə, xüsusilə də babasının yaşadığı mülkün bərpa olunmasına görə öz adından və ailəsi adından minnətdarlıq edib. Bu nümunəvi addımı babası Məşədi İbrahim ağanın timsalında təhsilin inkişaf etməsində əməyi keçən xeyriyyəçi insanlara olan hörmət və ehtiramın göstəricisi kimi qəbul etdiyini vurğulayıb.

Tam əminik ki, Prezident İlham Əliyevin yenilənən şəraiti ilə tanış olduğu Qazax Müəllimlər Seminariyası – ADA Universiteti Qazax Mərkəzi lap tezliklə Cənubi Qafqazın nümunəvi elm-mədəniyyət mərkəzlərindən birinə çevriləcək. Burada bir zaman yandırılan elm işığı daha gur şölə saçacaq, ətrafına yeni maarifçilər nəsli toplayacaq. Həyata keçirilən birgə layihələrlə müasir təhsil tariximizin növbəti səhifələri yazılacaq.

Əlavə edək ki, dövlətimizin başçısı Qərb bölgəsinə səfəri zamanı Qazax Müəllimlər Seminariyasından başqa, daha iki təhsil-təlim mərkəzində olub. Şəmkirdə Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyinin yeni tikilmiş 600 şagird yerlik təhsil ocağının, Samuxda isə Heydər Əliyev Fondunun “Təhsilə dəstək” layihəsi çərçivəsində inşa olunan Sərkar kənd uşaq musiqi məktəbinin yeni binalarının açılışlarında olub.

Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev elmə, təhsilə və mədəniyyətə böyük qayğı ilə yanaşır. Bu daimi qayğı, davamlı diqqət isə ölkəmizin xoşbəxt gələcəyinə hesablanıb.

**Ə.ƏLİYEV,**
**“Xalq qəzeti”**

---

**Xalq yazıçısı, TÜRKSOY Yazıçılar Birliyinin fəxri sədri Anarın 85 illik yubileyi türk dünyasında geniş qeyd olunur. İstanbuldakı KeTeBe Yayın evi yazıçının "Ağ liman", "Beşmərtəbəli evin atıncı mərtəbəsi", "Təhminənin son sirri" əsərlərini İmdat Afşarın uyğunlaşdırması ilə bir kitabda nəşr edib. Bu günlərdə Pərvinin "Anar – çağının önündə bir yazar" kitabı da çapdan çıxıb.**

## Türkiyədə Anara həsr olunan kitab




Tedev yayın evində buraxılmış "İki əsrin qovşağında bir yazar. ANAR 85" adlı kitaba İmdat Afşar geniş müqəddimə yazıb. Türk Ədəbiyyat Vəqfinin başqanı Sərhat Kabaklının giriş sözüylə açılan topluda Anar haqqında görkəmli yazıçıların, alimlərin yazıları toplanıb. Türkiyəli müəlliflər – Namik Kamal Zeybək, Əhməd Bican Ercilasun, Ataol Bəhramoğlu, İlbər Ortaylı, Fikrət Türkmən, Yəhya Akenkinlə bir sırada qazax şairi Oljas Süleymenovun, türkmən yazar Oraz Yağmurun, Quzey Kiprdən İsmayıl Bozqurdun, Almaniyadan Orxan Arasın, Moskvadan Abuzər Bağırovun, eləcə də Anarın Türkiyə tədqiqatçısı Ayşə Atayın və bir sıra başqalarının yazıları da dərc edilib. Vaqif Məmmədovun "Anar Ahıska türklərinin də yazarıdır", Özgə Manasın "Ədəbiyyatımızın iki qoşa zirvəsi – Rəsul Rza və Anar" məqalələri də diqqət çəkir.

Kitabda azərbaycanlı müəlliflərin – Bəxtiyar Vahabzadənin, İsmayıl Şıxlının, Xəlil Rza Ulutürkün, İsa Həbibbəylinin, Rafael Hüseynovun, Ramiz Rövşənin, Məmməd İsmayılın, Kamil Vəli Nərimanoğlunun Anar haqqında səmimi fikirləri də yer alıb.

***“Xalq qəzeti”***

---

## Gənc alimin yubiley töhfəsi

**Bakı Dövlət Universiteti tarix fakültəsinin “Qafqaz xalqları tarixi” kafedrasının müəllimi Ülkər Məmmədzadənin bu günlərdə çapdan çıxmış elmi monoqrafiyası “Qafqazda liderlik qərinəsi: Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyev” adlanır.**




Müəllifin kitabı mükəmməl elmi və tarixi tədqiqatları ilə diqqət çəkir. Monoqrafiyada ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri – Azərbaycan Respublikasının Cənubi Qafqazda və bütövlükdə regionda lider dövlətə çevrilməsinin əsasları, regional liderlik problemləri, dünya siyasi arenasında böyük siyasi rəhbərin fəaliyyəti geniş şərh edilmişdir.

Bundan başqa, elmi monoqrafiyada Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin lider dövlət kimi inkişaf etməsində fəaliyyətinə geniş yer verilmişdir.

Monoqrafiyada “Qafqazda formalaşmış yeni geosiyasi şəraitdə Azərbaycanın yeri”, “Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində İlham Əliyevin rolu”, “Post-müharibə dövründə sülh danışıqları və Qarabağ İqtisadi Zonasında quruculuq fəaliyyətinin iqtisadi əsasları”, “Dünya dövlətləri ilə strateji əməkdaşlığın formalaşmasında İlham Əliyev siyasətinin möhtəşəmliyi” və bütün bu fəaliyyətin məntiqi əsası kimi, ölkəmizin davamlı inkişafının təşkil olunmasında İlham Əliyev iradəsinin, onun yaratdığı siyasi reallığın dünya ictimaiyyəti və siyasi dairələrində qəbul edilməsi kimi məsələlər yer alır.

Gənc alim Ülkər Məmmədzadə 2022-ci ildə “Azərbaycan Respublikasının Qafqazda lider dövlətə çevrilməsində İlham Əliyevin rolu” mövzusunda dissertasiya işini başa çatdırmış və uğurla müdafiə edərək tarix üzrə fəlsəfə doktoru adını qazanmışdır. Onun “Qafqazda liderlik qərinəsi: Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyev” adlı yeni elmi monoqrafiyası informasiya zənginliyi, elmi araşdırma üsulunun seçilməsi və tarixi sənədlərin istifadəsi baxımından zəngin bir elmi əsərdir.

***“Xalq qəzeti”***

---

# Laçın həsrətinin sonu

## Və ya oğurlanmış uşaqlığa səyahət

**Üç ilə yaxındır ki, onun adı və səsi gələndə televiziya verilişlərinin birində Laçının alınması xəbərini eşidincə sevincdən hönkürüb ağlamağı yadıma düşür. Aparıcı da, tərəf-müqabilləri də nə illah elədilər, göz yaşlarını saxlaya bilmədi ki, bilmədi. Yəqin ki, onun kim olduğunu dərhal bildiniz: söhbət əslən Laçından olan gözəl xanəndə, Əməkdar artist Ehtiram Hüseynovdan gedir.**

Ehtiramı xatırlatmağıma səbəb son günlərdə sosial şəbəkə platformasında, ayrı-ayrı saytlarda onun Laçına köçməsi ilə bağlı yayılan xəbərlər oldu. Hamısı Ehtiramın ata-baba yurdunda, Zabux çayında balıq ovundan paylaşdığı videosunu məhz o cür şərh edirdi. Əslində, yaxşı xəbərdir, bununla belə biz xanəndənin özü ilə əlaqə saxlayıb, məlumatın dürüstlüyünü yoxlamaq istədik. Nəhayət, onunla danışa bilib, əsl həqiqəti öyrəndik...

Sən demə, doğma Hacısamlı kəndindən canlı yayıma qoşulan Ehtiram neçə gündür ki, oradadır. Fonda öz ifasında “Bir yar sevdim” xalq mahnısını səsləndirməklə yurdda olmağın sevincini bölüşməsi bəzi həmkarlarımızı xoş niyyətlə feyk xəbər yazmağa həvəsləndirib.

*“Uca dağlar, qarlı dağlar başında,*
*Bir yar sevdim, tirmə şal var başında.*
*Eybi yoxdur kipriyində, qaşında,*
*Aman balam, gözəl yarım, gül yarım,*
*Küsdürmüsən, gəl, könlümü al, yarım”*



Sanki 28 il düşmən tapdağında qalmış Laçın dilə gəlib deyirdi bu sözləri. Ehtiram da bir-iki yaxını ilə gəlib dağların könlünü almağa çalışırdı.

Hələ məskunlaşmamış Hacısamlıdan reportaj aparan xanəndənin uçmağa qanadı yoxdur. Əvəzində şirin səsi, xoş avazı qanad açıb çay vadisindən ucalara qalxır, dağların başına dolanır. Çayın şırıltısı, quşların cəh-cəhi də sanki orkestri tamamlayır, ecazkar bir səhnə yaranır.

Arada görüntüləri şərh edən Ehtiramın həyəcandan səsi azca titrəyir:

– Biz buranı tərk edəndə 12 yaşım vardı. Bax, bu dağılmış binada məktəbimiz yerləşirdi. Musiqi müəllimim İradə xanım səsimin olduğunu biləndən sonra bütün bayram tədbirlərində məni oxudurdu... Keşikçi dağının başına qara bulud gələn kimi bilirdik ki, güclü yağış yağacaq... Bizim evin ayağında olan bu çayın qabağını kəsib göl yaratmışdıq, yay vaxtı bütün günü çimirdik, bax, o daşın üstündən suya atılırdıq. Tərtəmiz, dumduru, göz yaşı kimi bulaq suları çay olub bura axırdı. İndi də elədir, bir azca gurluğu azalıb. Axşamlar rəhmətlik nənəm güclə çıxarırdı bizi sudan...

Ehtiram tez-tez doluxsunur. Təbii ki, xatirə cığırına düşüb gedəndə kövrəlməmək mümkün deyil. Oğurlanmış uşaqlığına səyahətə çıxan, özü də son dərəcə həssas olan insan, axı, necə kövrəlməsin? Bir yandan da nankor qonşuların kənddə daşı-daş üstə qoymamaları onu incidir. Amma danışığı nikbin notlardan xali deyil.

– Salamat bir tikili qalmasa da, təbiət öz yerindədir, – deyir. – Çox istərdim ki, bütün dostlarım bura gəlsin, hamısını qarşılamağa hazıram. Bu gün qızıl balıq tuta bilməsək də, hələlik pendir-çörəklə keçinərik. Öz kəndimizdə konsert verəcəyim günü səbirsizliklə gözləyirəm.

Fürsət tapıb bizi maraqlandıran sualı veririk.

– Yox, saytların yazdığına baxmayın, – deyir. – Bir az zamanı qabaqlayıblar. Hələ ki, kənddə heç bir tikili yoxdur. Evlər tikilsin, klub olsun, mütləq gələcəyəm burada yaşamağa. Çalışdığım Beynəlxalq Muğam Mərkəzi ilə sıx əlaqəm olacaq. Bütün sənətçi dostlarımı burada, təbiətin qoynunda, açıq havada konsertə dəvət edəcəyəm. O günə çox qalmayıb.

Ehtiram Hacısamlıda 8 illik məktəbdə oxuyub. Ağdam Muğam Məktəbində isə sənətin sirlərini öyrənib. Laçın işğal olunandan sonra Bakının Binəqədi rayonunun Biləcəri qəsəbəsində təhsilini davam etdirib. Dövlət televiziyasının “Bənövşə” uşaq xorunda oxuyub. Asəf Zeynallı adına Musiqi Texnikumunu bitirib. 2007-ci ildə "Muğam" televiziya müsabiqəsində böyük uğurla iştirak edib. Növbəti ildə Azərbaycan Milli Konservatoriyasına daxil olub. Öyrənə-öyrənə, oxuya-oxuya tanınıb, şöhrətlənib. Konservatoriyanın magistratura pilləsini fərqlənmə diplomu ilə bitirib. Bir çox xarici ölkələrdə qastrol səfərlərində olub. 2011-ci ildə Beynəlxalq muğam müsabiqəsində qalib gəlib. Hazırda Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solistidir, eyni zamanda Beynəlxalq Muğam Mərkəzində çalışır.

...Onun Laçından 17 dəqiqəlik canlı yayımı sona yaxınlaşır. Müzəffər Ali Baş Komandanımızın uğurlu siyasəti və böyük sərkərdəlik məharəti, Silahlı Qüvvələrimizin rəşadəti sayəsində doğma yurduna qovuşmasından qürur duyan, şəhidlərimizə Allahdan rəhmət diləyən sevimli xanəndə axırda tüstülənən bir bacanı göstərib deyir:

– Lap az qalıb, tezliklə kəndimizə həyat qayıdacaq, burada tikilən bütün evlərin bacalarından belə tüstülər qalxacaq. Dostlarımı dədə yurdumda qarşılayanda özümü ikiqat xoşbəxt hiss edəcəyəm. Bilirsiniz, şəhərin ayrı gözəlliyi var, kəndin ayrı. Məni kənd çəkir...

**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**

# Kəndin ilk şəhidi: “Əsgər, Vətən əmanəti, yurd əmanəti”

**Vahid Elşad oğlu Qurbanov 2001-ci il yanvarın 27-də Tovuz rayonun Əyyublu kəndində doğulub. 2007–2016-cı illərdə, 9-cu sinfədək Eyvaz Bayramov adına Əyyublu kənd tam orta məktəbində, 2016–2018-ci illərdə 10-11-ci sinifləri isə Gəncə şəhər, K.D.Uşinski adına 29 saylı tam orta məktəbdə oxuyub. Məktəbin ictimai işlərində fəal iştirak edib, müəllimlərin, məktəb yoldaşlarının sevimlisi olub. Cəldliyi, qabiliyyəti ilə həmişə yoldaşlarından fərqlənib.**

Orta məktəbdə oxuyanda, həmçinin idmana da böyük maraq göstərib. O, daha çox idmanın əlbəyaxa döyüş növləri ilə məşğul olub. Bu, bir şəhid ömrünün müharibəyə qədər olan həyat bioqrafiyasıdır.

...Vahid Qurbanov 2019-cu ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Azərbaycan Silahlı Qüvvələrinin “N” saylı hərbi hissəsində tapşırıqları bacarıqla yerinə yetirən, cəsur əsgər olaraq xidmət edib.

O, həqiqi hərbi xidmətini başa vurmamış Tovuz döyüşləri başlanıb. Vahid böyük narahatlıq keçirib və o döyüşlərdə iştirak edə bilmədiyinə görə təəssüflənib...

Vətən müharibəsi başlayan gündən könüllü olaraq döyüşlərə qatılıb. Onun döyüş yolu Füzulidən başlayıb. Qanlı-qadalı günləri arxada qoyan Vahid Füzuli istiqamətindəki ağır döyüşlərdən sonra digər tapşırıq üzrə başqa istiqamətdə Vətən torpaqlarının azadlığı uğrunda şücaət göstərib. O, Xocavənd, xüsusilə də Qırmızı Bazar istiqamətində gedən döyüşlərdə xüsusi məhարəti ilə seçilib. Şəhidlik məqamına da oktyabrın 30-da yoldaşları ilə azad etdiyi Xocavənd uğrunda gedən döyüşlərdə ucalıb. Vahid minlərlə Azərbaycan övladı kimi canını Vətənə qurban verib, Vətən sevgisinin hər şeydən ali olduğunu əməli ilə sübut edib. Yoldaşlarının dediklərinə görə, son nəfəsində “Əsgər, Vətən əmanəti, yurd əmanəti”– mahnısını zümzümə edib. O, canını torpaqlarımızın işğaldan azad edilib vahid bayraq altında birləşməsi, elin şad olması, Qələbə naminə qurban edib!

İki bacının tək qardaşı idi Vahid. Sonuncu dəfə oktyabrın 30-da anası və bacılarıyla danışıb. Ürəyinə nəsə dammış kimi deyib: “Ana, özündən muğayat ol! Hər şey yaxşı olacaq! Məndən narahat olma”. Bacılarına isə anasını tapşırıb: “Anama yaxşı baxın, onu fikirləşməyə qoymayın”. Bu, onun son zəngi olur...

Qara xəbər noyabrın 2-də ailəyə çatıb. Xəbərdə deyilirdi: “Vahid Elşad oğlu Qurbanov 30 oktyabrda Xocavəndin azad edilməsi uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid oldu. Başınız sağ olsun!”

Dərin sükutdan və evin tək oğlunun əbədi itkisinin verdiyi ağır kədərdən sonra... “Vətən sağ olsun!” – deyib şəhidin babası! Bir ailə oğul itirdi, bir ölkə qazandı! Bir oğul hələ 19 yaşındaykən ailəsinin, nəslinin başını əbədi uca etdi!

Vətən müharibəsində Əyyublu kəndinin ilk şəhidi Vahid olub! Vahidin nəşi kəndə gətiriləndə bütün kənd camaatı onu qarşılamağa çıxmışdı. Həmin izdiham onun dəfnində də azalmadı, əksinə, döyüş yoldaşlarının, rayonun məsul şəxslərinin, ictimaiyyət nümayəndələrinin sayı hesabına daha da artdı... O, Əyyublu kənd qəbiristanlığında torpağa tapşırıldı. Vətən torpağını şəhid məzarları daha da əziz edirmiş, daha da doğmalaşdırırmış. Beləcə, qəbiristanlıq ailələri ilə doğmalaşdı...



Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Vahid Elşad oğlu Qurbanov “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edilib.

*Zərifə BƏŞİRQIZI,*
*“Xalq qəzeti”*

# “Evdə qala bilmərəm”

**Muxtar Muradov atasını uşaqkən itirib. Məhərrəm kişi Cənubi Azərbaycanda gedən milli azadlıq və milli demokratik hərakatın iştirakçılarından idi. Azərbaycan Milli hökuməti 1946-cı il dekabrın 12-də süqut etdikdən sonra Sovet Azərbaycanına mühacirət etmiş və ailə quraraq Əmirvan kəndinə yerləşmişdi. Muxtar onun ikinci evliliyindən anadan olmuş üç uşağının sonuncusu, yəni ailənin sonbeşiyi idi.**

... Birinci Qarabağ müharibəsi başlananda könüllü döyüşlərdə iştirak etmək istəsə də, anası tək qadın olduğuna görə ona çağırış vərəqi verilməmişdi.

Yoldaşları müharibədə iştirak etdiyi bir vaxtda Muxtar evdə qala bilməzdi. Bu onun xarakterinə yad idi. Anası Asurə xanım deyirdi:

–Muxtar cəbhə xəbərlərini daima izləyər, bəzən də xəbərlərdən həyəcanlanardı. Tay-tuşları cəhbədə olduğu bir vaxtda kənddə qalıb təsərrüfat işləri ilə məşğul olmağı özünə sığışdırmazdı. “Mən burda deyil, cəbhədə olmalıyam. Dostlarım torpaqlarımız uğrunda vuruşur, düşməndən qoruyur. Mən isə oturub hərbi komissarlıqdan nə vaxt çağrılacağımı gözləyirəm. Kənddə əsgər atalarının üzünə baxa bilmirəm, özümü rahat hiss etmirəm. Sabah müharibə başa çatdıqdan sonra yoldaşlarım arasına necə çıxacağam? – deyirdi.

Sonunda arzusuna çatdı, oğlum 1993-cü ildə hərbi xidmətə çağırıldı. Artıq oktyabrın 20-dən Azərbaycan Ordusunda xidmət edirdi. O, Qarabağ uğrunda canından keçməyə hazır idi.

Muxtar xüsusi təlim keçdikdən sonra Ağdərəyə göndərildi, 776 nömrəli xüsusi təyinatlı hərbi hissədə atıcı kimi xidmətə başladı. Bu hərbi hissədə kəşfiyyatçılar üstünlük təşkil edir, xüsusi tapşırıqları yerinə yetirirdi. Kəşfiyyat xarakterli və ya hücum tapşırıqları olduqda irəli gedir, əməliyyat keçirib geri dönürdülər. Keçmiş döyüşçü, xüsusi təyinatlı kəşfiyyat dəstəsinin komandir müavini, hərbi ekspert Tərlan Eyvazov deyir:

–Döyüşçülərimiz hər gün ən azı 12, 14, bəzən 16 saat təlim keçirdilər. Onların hamısı fiziki hazırlıqla, digər peşə hazırlığı ilə yanaşı, həmçinin bütün silahlardan sərrast atəş açmağı öyrənmişdilər… Bizim hərbi hissə tamamilə təmin olunmuş, hazırlıqlı bir vəziyyətdə idi.



...Muxtar bu batalyonun (tabor) sıralarında döyüş əməliyyatında iştirak etdi. Nümunəvi əsgər kimi andına sadiq qaldı, döyüş tapşırıqlarını layiqincə yerinə yetirdi.

Onun iştirak etdiyi ağır döyüşlər Tərtər–Ağdərə istiqamətində oldu, 1993-cü ilin dekabr ayında qış əməliyyatı çərçivəsində Ağdərə istiqamətində hücumlar başladı. Şiddətli döyüşlər oldu, ordumuz uğurlu əməliyyatlar həyata keçirdi.

Həmin vaxt cənub istiqamətində də ordumuz düşmənə sarsıdıcı zərbələr endirirdi. Horadiz əməliyyatına dəstək məqsədilə Muxtargil Füzuliyə göndərildi. Bu barədə hərbi ekspert Tərlan Eyvazov deyir: – 1994-cü ilin yanvarında Füzuli istiqamətində hərəkətə keçdik. Bizə verilən tapşırıq Füzuli istiqamətinə gedib, düşmənin arxasına keçmək, düşmən arxasında qarışıqlıq yaratmaq və zərbə vurmaq, hücuma keçən hərbçilərimizə yol açmaq idi.

Düşmən isə həmin vaxt Tərtər istiqamətində hücum gözləyirdi və bu məqsədlə bu istiqamətdə xeyli qüvvə toplamışdı. Görəndə ki, Tərtər istiqamətində boşluqdur, bundan istifadə edərək hücuma keçdilər. Düşmənin məqsədi Tərtəri, Bərdəni, Yevlaxı ələ keçirib Gəncəbasarı mühasirəyə almaq idi. Bu plan ruslar tərəfindən hazırlanmışdı. Vəziyyət həddən artıq kritik idi. Bu səbəbdən də hərbi hissə yenidən Tərtərə qaytarıldı.

776 saylı hərbi hissə təcili geriyə Tərtərə qayıdaraq Marquşevana yerləşib düşmənə əks zərbə vurmaq üçün hazırlandı. 1994-cü il yanvar ayının 29-da Ağdərə rayonunun Gödəkburun, Globus, Vışka yüksəkliklərinə hücum etmək və əldə saxlamaq məqsədilə döyüş əməliyyatı başladı. Bu yüksəkliklərin hərbi strateji əhəmiyyəti vardı və düşmən bir çox mövqelərimizə oradan nəzarət edirdi. Buna son qoymaq lazım idi.

Qızğın döyüşlər nəticəsində düşmənin çox sayda həm texnika, həm də canlı qüvvəsi məhv edildi, postları tutuldu. Ermənilər yenidən toparlanaraq itirdikləri mövqelərini geri almaq üçün əks-hücuma keçdilər. Yüksəkliklər uğrunda qızğın döyüşlər yenidən başladı. Əsgərlərimiz əsl qəhrəmanlıq göstərərək düşmənin əks-hücumunun qarşısını aldılar. Muxtar da düşmən hücumlarının qarşısının alınmasında böyük qəhrəmanlıq göstərdi. O, cəsur, qorxmaz və mərd idi, erməni qəsbkarlarına qarşı cəsarətlə vuruşdu. Bunlar hərbi hissənin komandiri Eldar Ağayevin diqqətini çəkdi və Muxtara gizir hərbi rütbəsi verildi.

Elə oldu ki, Muxtar düşmən arxasında döyüş tapşırıqlarını yerinə yetirdi, cəsarəti, qəhrəmanlığı ilə seçildi.

O, 1994-cü ildə Tərtər rayonunun Tonaşen kəndi uğrunda gedən qanlı vuruşmaların iştirakçısı oldu və çox sayda erməni yaraqlısı məhv etdi.

Aprelin 26-da Muxtar döyüş yoldaşları ilə Tərtər–Ağdərə yolunda nahar edərkən yaxınlıqda baş verən partlayış nəticəsində həlak oldu. Həmin vaxt qardaşı Mehman da o ərazinin yaxınlığında olub, ilk yardım göstərməyə çalışıb, lakin onu xilas edə bilməyib, Muxtar şəhadətinə qovuşub.

*Pünhan ƏFƏNDİYEV,*
*“Xalq qəzeti”*

**“...Şuşa indi azaddır, Biz Şuşaya qayıtmışıq. Bu tarixi qələbəni döyüş meydanında qazanmışıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşıyacaq. Bu, bizim şanlı qələbəmizin, zəfərimizin günüdür”. Bu cümləni Ali Baş Komandandan eşitmək üçün, bayrağımızın Şuşada dalğalanması üçün nə günəşlərimiz söndü. Anaların ürəyində odlu silahlar açıldı. Atalar aslan kimi oğullarının dərdinə dözməyib dünyadan köçdülər. Amma mərdi-mərdanə, təki Vətən yaşasın, dedilər. Millət olaraq hər şəhidlə öldük, yenidən şəhidlərlə dirildik.**

Müharibəyə gedən oğullarımızın hər birinin arzusu Şuşanı işğaldan azad etməkdi. Şuşa qalasına bayraq sancmaqdı. O müqəddəs anı xalqına yaşatmaq üçün yaşamaq hüququndan keçən oğullardan biri də Rəşad İlqar oğlu Rəhimovdur. O qayalıqlara baxdıqca, əsgərlərimizin Şuşanın işğalına son qoymaq üçün çəkdikləri əziyyəti bir anlıq mən də yaşadım. O torpaqlara ayaq basanda insan bunu daha dərindən dərk edir. Şuşa təkcə şuşalılar üçün deyil, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün müqəddəs torpaqdır, qaladır, abidədir.

Rəşad 1985-ci il iyulun 16-da Tərtər şəhərində anadan olmuşdu. Atası İlqar işini-peşəsini yaxşı bilən dülgərdi, barmaqları qızıldı. Əlinin qabarı, alnının təri ilə çörək qazanıb üç balasını böyüdürdü.



# “Şuşanı almadan şəhid olmayacağam”

Ömür-gün yoldaşı Solmaz Rəşadın, Ülviyyənin və Nurlanın sağlam, tərbiyəli, savadlı böyüməsi üçün hər cür əziyyətə qatlaşırdı.

Qəhrəmanımız 2002-ci ildə məktəbi bitirir və həmin ili ailə Bakının Zabrat qəsəbəsində məskunlaşır. Rəşad o vaxtlar fəaliyyət göstərən Beynəlxalq Universitetin Beynəlxalq hüquq fakültəsinə daxil olur, təhsilini başa vurduqdan sonra isə üç aylıq kurs keçərək zabit kimi hərbi xidmətə yollanır. Əsgəri xidmətini Gədəbəydə keçərkən nümunəvi və peşəkar xidmətinə görə Müdafiə Nazirliyi tərəfindən baş leytenant hərbi rütbəsi ilə dəyərləndirilir. Əsgərlikdən sonra “Azərpoçt”da əvvəl mühafizə xidmətində, sonra inkassator kimi çalışır.



Rəşad sevib-seçdiyi İlahə xanımla evlənib, özünə xoşbəxt yuva qurmuşdu. İki gül balası dünyaya gəlmişdi. Lakin 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsinə o, ilk qatılanlardan oldu. Qara buludları yox edib, böyüyən övladlarına işıqlı sabahlar açmaq istəyən Rəşad səfərbərlik üçün qeydiyyatdan keçir və çağırış gəlməyincə, özü komissarlığa gedib oradan hərbi hissəyə yollanır. Hərbi peşəkarlığı olduğu üçün ilk gündən taqım komandiri kimi döyüş əməliyyatlarına başlayır. Qubadlı, Zəngilan, Şuşa və Daşaltı uğrunda döyüşlərdə qəhrəmancasına iştirak edir.

Hospitalda müalicə alan döyüş yoldaşı onun cəsurluğundan, cəsarətindən danışır: “Elə bir əməliyyat yox idi ki, Rəşad onda iştirak etməsin. Döyüşlərdə bəzən taqım komandirləri bir-birilərini əvəz edirdilər. Amma Rəşad bütün döyüşlərə özü qatılırdı. Daşaltı əməliyyatında sağımız da, solumuz da erməniydi. Oranı azad etdikdən sonra noyabrın 7-də Şuşaya girdik. Rəşad rəşadətlə vuruşur, düşmənə göz açmağa aman vermirdi. Ən böyük arzusu Şuşanı azad görmək idi. Tez-tez bizə deyirdi ki, Şuşanı almadan şəhid olmayacağam. Dediyini də elədi. Şuşanın alınmasında qəhrəmancasına döyüşmək ona da nəsib oldu”.

Noyabrın 8-də Şuşanı azad edən qəhrəman ordumuz Xankəndi istiqamətində irəliləyirdi. Döyüşçülər arasında Rəşad yenə də misilsiz şücaət göstərirdi. Lakin həmin gün İsa bulağı ərazisində gedən döyüşlərdə o, şəhadətə yüksəldi. Noyabrın 22-də Bakıda İkinci Fəxri xiyabanda dəfn olundu.

O gün dünya ağır bir yük olub İlahənin üzərinə çökdü. İgidi, aslanı, uşaqlarının atası, baş yoldaşı bayrağa bükülü tabutda gəlmişdi evinə. Bir gerçək vardı ki, nə onun göz yaşları quruyacaqdı, nə bu amansız dünya Rəşad kimi oğulları aparmaqdan yorulacaqdı. Tək yolu var gənc qadının, Rəşadın ən qiymətli əmanətlərini – Fatiməni və Öməri onun adına layiq böyütmək və Rəşadı son nəfəsinədk ruhunda yaşatmaq.

Şəhidin atası İlqar kişi üçün Rəşad kimi bir oğulu itirmək ağır dərddir. Dəmir biləkli, divar kimi oğuldu Rəşad. Vətənə, insanlara sevgisi ilə nümunə idi. Düşmənə lənət olsun deyir ata: “Obanı oğullar qorumalıdır, nə edək, müharibədə oğullar atalarının çiynində gedir. Əslində oğlum mənim haqqımda danışmali idi. Amma, mən onun qeyrətindən, şücaətindən danışıram. Ölәsi oğul deyildi balam. Təsəllim odur ki, torpaqlarımızın düşmən tapdağından azad olunmasında oğlumun da zəhməti var, qəhrəmanlıqla savaşıb”.

Bacısı Ülviyyə qardaşının yoxluğuna ürəyi yanır: “Rəşad evə, ailəsinə, doğmalarına bağlı qardaş idi. Yoxluğu ilə barışa bilmirəm, dağ kimi qardaşım getdi, dünyam dağıldı”.

Öz şəhid izini torpağa salan Rəhimov Rəşad İlqar oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə “Vətən uğrunda”, “Qubadlının azad olunmasına görə” və “İgidliyə görə” mealları ilə təltif olunmuşdur. Rəşadın uğrunda canından keçdiyi Qarabağ Azərbaycandır!

*Əminə YUSİFQIZI,*
*Əməkdar jurnalist*

# “Vətən” deyə çağrılan Vüqar Vətənə qurban oldu

**Vüqar 1993- cü il sentyabrın 15-də Mingəçevirdə dünyaya gələndə atası Eldar İsmayılov Qarabağ uğrunda döyüşürdü. Oğlunun doğum xəbəri atəş səsləri altında ona çatanda gülümsədi, dodağının altında – “Vətən, daha bir müdafiəçin, qoruyucun dünyaya göz açdı” – dedi. O heç bilmirdi ki, doğmaları yeni doğulan uşağa Vətən adı veriblər. Sonralar doğum haqqında şəhadətnaməyə adı Vüqar kimi yazılsa da, qohum-qonşu onu Vətən deyə çağırdı...**

Söhbət Vətən müharibəsində şəhadətə yüksəlmiş Vüqar Eldar oğlu İsmayılovdan gedir. O, gözünü açandan torpaqlarımızın işğalda olduğunu, ermənilərin xalqımıza qənim kəsildiyini, süfrəmizdə çörək kəsib sonra düşmən olduqlarını yaddaşına həkk edib. İllər bir-birini əvəz edib. O, işğalda olan torpaq itkisi ilə heç vaxt barışmayıb. Birinci Qarabağ müharibəsi ilə bağlı atasına daim suallar verib, məğlubiyyət səbəblərini dərindən öyrənməyə çalışıb. Vüqar yeri gəldikcə, atasına “torpaqlarımızı biz azad edəcəyik”– deyir, mənfurları yurdumuzdan qovacağına özünün də inamı artırdı.

O, orta məktəbi bitirdikdən sonra, 2011–2013-cü illərdə Bakı şəhərində, Qaraheybətdə N saylı hərbi hissədə xidmət keçib. Vətən borcunu– həqiqi hərbi xidmətini başa vurandan sonra Mingəçevirə qayıdıb...

Ordumuzun əks-hücuma keçəcəyi ilə bağlı söz-söhbət yayılanda, Tovuz döyüşləri başlayanda, digər rayonlardakı minlərlə könüllü kimi o da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üsrə Dövlət Xidmətinin Mingəçevir Şəhər Şöbəsinə gedərək, könüllü olaraq orduda xidmət etmək, işğalçılara qarşı döyüşlərə qatılmaq istədiyini bildirib. Ona, sol əli qəza nəticəsində yaxşı işləmədiyinə görə, “hələ ehtiyac yoxdur!” – cavabını veriblər.

...Sentyabr ayında Azərbaycan Respublikası Prezidentinin qismən səfərbərlik elan etməsindən sonra ordu sıralarına qatılan Vüqar, 27 sentyabrdan başlayaraq, işğalçılara qarşı əks-hücum əməliyyatlarında fədakarlıqla iştirak edib. Könüllülər dəstəsində işğalda qalan Tərtər, Ağdərə, Murov yüksəkliyi uğrunda gedən ağır döyüşlərdə gecəsi-gündüzü olmayıb. Azərbaycan Ordusunun əsgəri Vüqar sol əli qüsurlu olmasına baxmayaraq, döyüş yoldaşlarının xatirələrində bacarıqlı, qorxubilməz döyüşçü kimi qalıb.

Vüqar müharibəyə gedəndə oğlu yenicə doğulmuşdu. Körpəsinin üzünü cəmi 6 gün görə bilib. Şəhid olmazdan bir neçə saat əvvəl isə ailəsi ilə danışanda deyib ki, oktyabrın 9-u balamın dünyaya gəldiyi günün bir ayıdır. Orxanımın adına tort bişirin, elə bilin, yanınızdayam.

Anası Səidə deyir ki, Vətən (Vüqarı hələ də evdə Vətən deyə anırlar) Suqovuşanda olanda bizimlə danışıb. Ayın 6-sı, səhər saat 6 olardı. Sonradan öyrəndiyimizə görə bizimlə söhbətdən 4 saat sonra şəhadətə yüksəlib. Amma xəbərimiz olmayıb. Ayın 9-da uşağın 1 ayına görə tort bişirmişik, şadlanmışıq, arzu-niyyət etmişik ki, atası sağ-salamat gəlsin, qələbəni qeyd edək, böyük məclis quraq. Sən demə, həmin vaxt Vüqar 3 gün imiş ki, şəhid olubmuş, nəşini ala bilmirlərmiş.

“O şadyanalıq ertəsi gün aldığımız qara xəbərlə “burnumuzdan gəldi”. Oktyabrın 10-da oğlumun şəhid olduğu xəbərini bizə verəndə, elə bil, yer-göy başıma uçdu, bircə dəfə “ola bilməz!” – deyə qışqıraraq huşumu itirmişəm. Atası o böyük dərd yükü ilə gedib, Azərbaycan bayrağına bükülmüş tabutu gətirib. Vüqarı Mingəçevir şəhər Şəhidlər xiyabanında oktyabrın 11-də dəfn etdilər...”



Atası, Birinci Qarabağ müharibəsinin iştirakçısı Eldar İsmayılov deyir ki, hər dəfə Vüqarla danışanda, azad edilən torpaqların adını eşidəndə keçmiş döyüş yolum göz önümə gəlirdi. Oğlum zəng edəndə ki, Zod yolu var, filan yer var. Gəzib vuruşduğum yerləri, o dəhşətli günləri xatırlayırdım. O dövrdə o yollarda olmuşdum. Vüqarın ölümü barədə heç fikirləşmirdim.

Qələbədə payı olan oğlu ilə fəxr edən ata, 35 illik sazını əlinə ala bilmir. Deyir ki, bu gün dövlətimizlə, qalib ordumuzla, torpaqlarımızı canı bahasına işğaldan azad edən şəhidlərimizlə qürur duyuram. Amma bu sazı əlimə götürəndə məni qəhər boğur. Simlərinə toxuna bilmirəm və yəqin ki, heç vaxt çala bilməyəcəyəm.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli addımlar nümayiş etdirdiyinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Vüqar Eldar oğlu İsmayılov ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

*Z.HÜSEYNOVA,*
*“Xalq qəzeti”*

BEYNƏLXALQ HƏYAT

# Rusiya-Ukrayna müharibəsi: yeni dağıntılar və itkilər

## Böyük güclərin hərbi və siyasi intriqaları isə bitmək bilmir

**(əvvəli 1-ci səhifədə)**

Döyüşlər isə min kilometrlərlə uzanan cəbhə boyu aramsız olaraq davam edir. UNİAN agentliyi yazır ki, dünən Rusiya hərbçiləri Donetsk vilayətinin



Pokrovsk şəhərinin mərkəzindəki yaşayış binalarına raketlərlə zərbələr endiriblər, çox sayda itkilər var.

Ukrayna Prezidenti Volodimir Zelenski özünün "Teleqram" kanalındakı səhifəsində yazıb ki, Rusiyanın yalnız dağılmış və yanmış daşlar qoymağa çalışdığı Donbasa iki raket zərbəsi endirilib. Yaşayış binasına dəyib. Təəssüf ki, həlak olanlar var. Xilasedicilər və bütün lazımi xidmətlər hadisə yerindədir. İnsanlar təxliyə edilir.

Donetsk vilayət hərbi administrasiyasının rəhbəri Pavel Kirilenkonun sözlərinə görə, Pokrovsk şəhərinə "İsgəndər" tipli raketlərlə hücumlar edilib. Nəticədə çoxmərtəbəli evlərə, özəl sektordakı yaşayış binalarına, mehmanxana, iaşə obyektlərinə, mağaza və inzibati binalara ziyan dəyib.

Ukrayna mətbuatı təəssüf hissilə bildirir ki, Rusiyanın "Kinjal" hipersəs raketləri Ukraynanın təyyarə mühərrikləri istehsal edən "Motor Sich" zavodunu vurub. Qeyd edək ki, müəssisənin buraxdığı mühərriklər əsasən "Akıncı" Pilotsuz Uçuş Aparatı (PUA) və "Kızılelma" və "Anka-3" raketləri üçün nəzərdə tutulub. "Motor Sich" obyektlərinin hədəfə alındığını dövlət başçısı V.Zelenski də təsdiqləyib.

Məlumatda bildirilir ki, Xmelnitsk bölgəsindəki obyekti hədəfə alan Rusiya aviasiyası Ukraynanın bəzi fərqli nöqtələrinə də raket hücumları həyata keçirib.

Raket hipersəslə, yəni səsdən beş dəfə yüksək sürətlə uça bilir. Yüksək hündürlükdən təyyarədən buraxılan raket saatda 6125 kilometr sürətlə hədəfinə çata bilir. Bu yüksək sürətə görə onları vurmaq çox çətindir.

Bu arada Moskva vilayətinin Sergiyev Posad şəhərində partlayış baş verib. 31 nəfərin yaralandığı bildirilir. Vilayətin qubernatoru Andrey Vorobyovun sözlərinə görə, yaralananlardan 19-u hospitala yerləşdirilib. Dünən axşam Rusiya paytaxtının Ukrayna tərəfindən atılan dron zərbələrinə tuş gəldiyi barədə xəbərlər yayılıb.

Rəsmi Kiyev bundan narazılığını gizlətməsə də, Qərb müttəfiqləri Ukraynanı lazımi silahlarla təchiz etməyə çalışırlar. Məsələn, Almaniya Kansleri Olaf Şolts və hakim Sosial Demokrat Partiyasının (SDP) nümayəndələri Berlinin müəyyən şərtlər daxilində Ukraynanı uzaqmənzilli "Taurus" qanadlı raketləri ilə təchiz etməyə hazır olduqlarını bəyan ediblər.

Fakt budur ki, ilyarımdır davam edən Rusiya–Ukrayna müharibəsi sonu görünməyən, üzücü bir mərhələyə daxil olub. Analitiklərin fikrincə, Ukraynanın əks-hücumu bu vaxtadək Kiyevin və Qərbin gözləntilərini doğrultmayıb. Deməli, müharibə daha da uzana bilər.

Bu günlərdə məşhur CNN telekanalı Rusiya–Ukrayna müharibəsindəki vəziyyət barədə analitik material yayımlayıb. Orada qeyd olunur ki, Ukrayna hökuməti ABŞ və Qərbin silah tədarükündən asılıdır. Döyüş meydanında verilən qurbanlar Ukraynanın nə qədər ərazini geri qaytara biləcəyinə təsir göstərəcək, lakin müharibənin nəticəsi Vaşinqton, Moskva və Avropa paytaxtlarındakı qəbul edilən hərbi və siyasi qərarlardan asılı olacaq.

Böyük güclər isə yalnız öz milli maraqlarından çıxış etdikləri üçün heç cür ortaq məxrəcə gələ bilmirlər. Hər gün Ukraynada bomba və raket zərbələri altında qalan günahsız insanlar isə həlak olurlar.

CNN-in materialında həmçinin qeyd olunub ki, sabiq dövlət başçısı Donald Tramp respublikaçıların 2024-cü il prezident seçkilərində namizədi olmasa belə, müharibəyə ictimai dəstəyin itirilməsi Co Baydenə zərər vura bilər. Bayden Ukraynadan uğurlu əks-hücum gözləyir. Bu, ona çox lazımdır.

Bəli, Ağ ev tələsir və həm siyasi, həm də strateji səbəblərdən Ukraynanın bu yay başlatdığı və çoxdan gözlənilən əks-hücumu üzərində nəzərəçarpan döyüş irəliləyişləri əldə etməsi üçün nəhəng təzyiq göstərir.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

# Polşa–Belarus sərhədində gərginlik

**Polşa – Belarus sərhədində gərginlik davam edir. Avqustun 7-dən Minskin Avropa İttifaqı dövlətlərinin sərhədi yaxınlığında hərbi təlimlərə başlaması Qərb tərəfindən birmənalı qarşılanmayıb. Brüssel bunu Aleksandr Lukaşenko hakimiyyətinin təxribatı kimi qiymətləndirir.**

Avropa İttifaqının siyasət məsələləri üzrə sözçüsü Peter Stano brifinqdə deyib: – Lukaşenko hakimiyyətinin Rusiyanın göstərişi ilə hər hansı təxribatlarda iştirakı heç kimi təəccübləndirməməlidir. O, Belarusun suverenliyindən Rusiyanın xeyrinə imtina edib, ona görə də, bu hərbi təlimlərə Rusiyanın Ukraynaya qarşı təcavüzü, qonşularını qorxutmaq cəhdi, onların hələ də Ukraynaya qarşı qanunsuz hərəkətlərini davam etdirmək imkanlarının olduğunu göstərmək kontekstindən yanaşmaq lazımdır.

Xatırladaq ki, Belarus Müdafiə Nazirliyi hərbi təlimlərin başlandığını bir gün əvvəl elan etmişdi. Bildirilmişdi ki, Rusiyanın Ukraynadakı müharibə təcrübəsi nəzərə alınıb: Hazırlıq zamanı xüsusi hərbi əməliyyatın təcrübəsindən, yəni pilotsuz uçuş aparatlarının geniş tətbiqindən, tank və motoatıcı birləşmələrin digər hərbi bölmələr ilə sıx əməkdaşlığından fəal istifadə edilib.

Bu təlimlərdə "Vaqner" muzdluları da iştirak edib. Priqojinin muzdluları Belarusa köçürüldükdən sonra onların Litva və Polşaya qarşı təhdidləri isə dayanmır. Üstəlik, iyulun 23-də Putinlə görüşdə Lukaşenko birbaşa deyib: – Vaqnerçilər Varşavaya ekskursiyaya can atırlar. Mən yaxşı adamam ki, onları məharətlə saxlayıram.

Bu cür açıqlamalar və hərbi təlimlər isə sərhəddə gərginliyi daha da artırır. Nəticədə Polşa Müdafiə Nazirliyi sərhəd



xidmətinin tələbi ilə Belarusla sərhədinə əlavə qoşun göndərib. Qeyd edilib ki, əlavə əsgər qüvvəsinin cəlb edilməsi ilə bağlı müraciət sərhəddə baş verən bir sıra insidentlərdən sonra verilib. Hələ 2021-ci ildə Polşa qonşu Belarusu yüzlərlə miqrantı sərhədə doğru yönləndirməyə şərait yaratmaqda ittiham edirdi. Polşa daxili işlər nazirinin müavini Maçey Vasik mətbuat konfransında qeyri-qanuni miqrasiya cəhdlərinin Belarusun rəsmi qurumları tərəfindən dəstəkləndiyini ifadə edib. Onun sözlərinə görə, belə bir dəstək olmazsa, sərhədi keçmək mümkün ola bilməz. Polşa rəsmisi qeyd edib ki, ehtimal oluna bilən gərginlik sərhəd mühafizəsinə əlavə əsgərlərin cəlb edilməsini tələb edir.

Bu yaxınlarda Belarusa məxsus 2 helikopterin Polşa sərhədini pozması da rusların hələ də Polşada sabitliyi pozmaq və ölkəmizi zəiflətmək yollarını axtardığını göstərir.

Polşadan sonra Litva və Latviya da Belarusla sərhədinə əlavə qüvvələr cəmləşdirib. Litva dövlət sərhədinin mühafizə xidmətinin rəhbəri Rüstəm Lyubayev deyib: –"Vaqner" muzdlularının hazırda Belarusda yerləşdirildiyini nəzərə alsaq, təxribatların baş vermə ehtimalı yüksəkdir. Lakin hazırda Belarus və Rusiya Federasiyası ilə sərhəddə heç bir xüsusi təxribat və ya əlavə fəaliyyət müşahidə etmirik. "Vaqner" muzdlularının iştirak etdiyi Litva sərhədi yaxınlığında keçirilən təlimlər böyük miqyaslı deyil və bu gün bizim üçün ciddi təhlükə törətmir.

Yaranmış sərhəd gərginliyindən isə ən çox yararlanan Polşa olacaq. Tarixçi, politoloq, Rusiya Strateji Araşdırmalar İnstitutu direktorunun müşaviri Dmitri Buneviç deyib ki, Varşavanın strateji məqsədi Polşa ordusunu NATO daxilində ikinci güclü orduya çevirməkdir. Buneviçin izah etdiyi kimi, Varşava Polşa silahlı qüvvələrinin Fransa, Türkiyə və ya Almaniya kimi dövlətlərin ordularını üstələməsini təmin etməyə çalışır. "Məqsəd qarşıya qoyulur və bunun üçün pul ayrılır. Həm ABŞ-da, həm də Cənubi Koreyada çox ciddi silah tədarükü proqramı həyata keçirilir. Əlbəttə, xaricdən də maddi dəstək göstərilir.

Onun fikrincə, əslində Varşava döyüşmək fikrində deyil, çünki onun strateqləri başa düşürlər ki, Belarus və ya Rusiyaya hücumun ardınca Polşa dövlətçiliyinin sonu gələcək. Bununla belə, Polşa ciddi şəkildə ümid edir ki, Almaniya və ya Fransa kimi nəhənglərlə Avropa liderliyi uğrunda mübarizə apara biləcək. Hələlik Polşa Aİ daxilində ikinci səviyyəli dövlət olaraq qalır.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

# Afrikada Fransanın təsir imkanları azalır

**Fransa Prezidenti Emmanuel Makron ABŞ və Avropa İttifaqının köməyi ilə ölkəsinin Nigerə təsir imkanlarını qaytarmağa çalışacaq.**

Bu barədə "İzvestiya"ya Rusiya Elmlər Akademiyasının Avropa İnstitutunun Fransız Araşdırmaları Mərkəzinin rəhbəri Yuri Rubinski bildirib.

Ekspert qeyd edib ki, Afrikada uğursuzluqlar göz qabağındadır, lakin onlar Makron hakimiyyətə gəlməmişdən əvvəl başlayıb: "Fransa ordusu Nigerdə yerli hakimiyyət orqanları ilə, ilk növbədə silahlı qüvvələrlə müəyyən münaqişələrə səbəb olub. Malidə, Burkina-Fasoda, Qvineyada hərbi çevrilişlər olub. Makron ABŞ və Aİ ölkələri ilə birlikdə Afrikadakı mövqeyini bir qədər yaxşılaşdırmağa çalışacaq".

Rubinskinin sözlərinə görə, Makronun ölkənin Afrika qitəsində mövcudluğunu gücləndirə biləcəyini söyləmək hələ tezdir, xüsusən də fransızdilli Afrikanın Fransanın xarici ticarətindəki payı 5 faizə qədər azalıb.

O, diqqətə çatdırıb ki, fransalı seçicini Fransanın Afrika ilə əlaqələri deyil, Afrika ölkələrindən mühacir axını narahat edir. Bu, əlbəttə ki, Afrikada Fransanın təsirinin bərpası üçün kifayət deyil. Afrika siyasətinin çatışmazlıqlarına yenidən baxmaq üçün səylərin göstəriləcəyi istisna olunmasa da, nəticəni proqnozlaşdırmaq hələ tezdir.

Beləliklə, Nigerdə iyulun 26-da baş vermiş hərbi çevrilişdən bir həftə yarım keçsə də, ölkənin yeni hakimiyyətinin qonşuları, Qərbi Afrika Ölkələri İqtisadi Birliyinin dövlətləri ilə münasibətlərinin necə olacağı hələ də bəlli deyil. Nigerin paytaxtı Niamey isə Parislə yeni əsaslarla əlaqələr qurmağı planlaşdırır. Afrika ölkəsinin əhalisinin hərbçiləri dəstəkləməsi respublika vətəndaşlarının artıq fransızlara ehtiyac duymadıqlarını göstərir. Bundan əvvəl müxtəlif siyasi qüvvələri təmsil edən 94 fransız senatorunun Makrona açıq məktub imzaladığı və Parisin Afrika siyasətinin iflasa uğradığını elan etdiyi bildirilmişdi.

İşğalçı ölkədən, onun şirkətlərindən və ordusundan imtina edən Nigerdə anti-Fransa nümayişləri davam edir. Nigerin iqtisadiyyatına heç vaxt kömək etməyən



Fransanın ondan həmişə oğurluq etməsi ilə bağlı fikirlər artıq daha ucadan səsləndirilir.

Əlcəzairi 132 il, Tunisi 75 il, Mərakeşi 44 il, Mavritaniyanı 60 il işğal altında saxlayan Fransanın müxtəlif xalqlara qarşı törətdiyi soyqırımları tarixin ən qanlı və dəhşətli səhifələrindəndir. Bu gün də bu ölkənin xarici siyasətinin əsas istiqamətinin milli, dini, irqi ayrı-seçkilik təşkil etməsi ona qarşı dünyanın hər yerində etirazları artırır.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

SOSİAL XƏBƏRLƏR

# DOST Agentliyinin 5 yaşı

**DOST Agentliyinin 5 illik fəaliyyətinə həsr olunmuş tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev Prezident İlham Əliyevin fərmanı ilə 2018-ci ildə yaradılan DOST konsepsiyasının dövlət sosial xidmətlərini "bir pəncərə"dən təqdim edən unikal bir layihə olduğunu deyib. Bildirib ki, bu konsepsiya əmək, məşğulluq, əlillik, reabilitasiya, sosial müdafiə və sosial təminat sahələrinə dair 15 istiqamət üzrə 159 xidmətin müasir və çevik, tam şəffaf mexanizmlər əsasında vətəndaş məmnunluğuna uyğun təqdim olunmasını təmin edir.**



O, DOST mərkəzlərində indiyədək 1 milyon 673 min nəfərə xidmət göstərildiyini, vətəndaşların xidmətlərdən məmnunluq dərəcəsinin 98,2 faiz təşkil etdiyini vurğulayıb: "Qısa müddətdə vətəndaşların etimadını qazanan DOST mərkəzləri yaxın gələcəkdə açılacaq regional mərkəz və filiallarla bütün respublikanı əhatə edəcək".

Sonra agentliyin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Agentliyin İdarə Heyətinin sədri Fərid Məmmədov geniş təqdimatla çıxış edərək tədbir iştirakçılarına 5 il ərzində görülən işlər barədə məlumat verib. Bildirib ki, dövlət başçısının fərmanı ilə yaradılan DOST Agentliyi vətəndaşlara "bir pəncərə"dən, modern və çevik, şəffaf mexanizmlər üzərində xidmətlər təqdim edir. O, 2019–2023-cü illər ərzində DOST Agentliyinin 142 – Çağrı Mərkəzinə 4 milyon 442 mindən çox müraciətin daxil olduğunu, 7 ay ərzində bu rəqəmin 1 milyon 40 minə çatdığını bildirib. F.Məmmədov zənglərin çox hissəsinin Bakı və Abşeron yarımadasından daxil olduğunu, daxil olan zənglərin 98.4 faizinin cavablandırıldığını da diqqətə çatdırıb.

Fərid Məmmədov bildirib ki, ölkəmizin uğurlu sosial islahat təcrübəsi olan DOST konsepsiyası beynəlxalq arenada da yüksək qiymətləndirilir. Ötən dövrdə DOST Agentliyi 13 beynəlxalq mükafat və sertifikatla təltif olunub. O cümlədən, agentlik Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər Mükafatına, Beynəlxalq Sosial Təminat Assosiasiyasının 3 mükafatına və Mükəmməllik Sertifikatına, Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının mükafatına layiq görülüb. Həmçinin dünyada məşhur olan LRQA sertifikatlaşdırma (Böyük Britaniya) təşkilatı tərəfindən 4 istiqamət üzrə ISO sertifikatlarına layiq görülüb.

DOST mərkəzləri şəbəkəsinin genişləndirildiyini diqqətə çatdıran Fərid Məmmədov bildirib ki, Bərdədə Qarabağ Regional DOST Mərkəzinin açılışı ilə DOST mərkəzlərinin sayı 7 oldu. Hazırda Şuşa, Sumqayıt, Gəncə, Quba və digər regionlarda mərkəzlərin yekun layihələndirmə-tikinti işləri aparılır. 2025-ci ilin sonunadək 17 DOST mərkəzinin və 55 rayon filialının istifadəyə verilməsi nəzərdə tutulub.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

# Laçında məşğulluq tədbirləri

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, Böyük Qayıdış proqramı üzrə Laçın şəhərinə köçürülən sakinlərin məşğulluq imkanlarının müəyyənləşdirilərək müvafiq dəstək göstərilməsi işləri davam edir.**



Dövlət Məşğulluq Agentliyinin nümayəndələri Laçına köçürülən ailələrdən 100-dək ailə ilə görüşüblər. Həmin ailələrin üzvlərinin məşğulluq imkanlarının müəyyənləşdirilməsi istiqamətində ilkin söhbətlər aparılıb.

Aktiv məşğulluq proqramlarından–özünüməşğulluq, peşə hazırlığı kursları, işədüzəltmə tədbirləri və s. barədə onlara məlumatlar verilib. Hazırda bu proqramlar çərçivəsində onların məşğulluğuna dəstək işlərinə başlanıb.

Ümumilikdə, agentliyin nümayəndələri Laçına köçürülmüş 150-dək ailə ilə görüşərək məşğulluq imkanlarını qiymətləndirib. Aparılan söhbətlərin nəticəsinə uyğun məşğulluq tədbirlərinə başlanılıb.

# Baxıcı–dayə xidməti layihəsi çərçivəsində məşğələlər

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, qurumun tabeliyindəki Sosial Dəstək Mərkəzi tərəfindən "Baxıcı–dayə xidmətinin təşkili" layihəsi çərçivəsində praktik məşğələlərə başlanıb.**



Ahıl və əlilliyi olan şəxslərə göstərilən səyyar xidmətin keyfiyyətinin artırılması məqsədilə layihəyə bu sahədə çalışan sosial xidmət işçiləri cəlb olunub.

40 saatı əhatə edən praktik məşğələlər nazirliyin tabeliyindəki Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Mərdəkan Müalicə Pansionatında təşkil olunub. Layihənin sonunda nəzəri və praktik baza biliklərinə yiyələnmiş iştirakçılara sertifikatlar təqdim ediləcək.

# İctimai dinləmələrin əhatəsi genişlənir

**Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa Dəstək Layihəsi" ilə əlaqədar Daşkəsən və Gədəbəy rayonlarında ictimai dinləmələr təşkil olunacaq. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə Əlaqələr və Kommunikasiya Şöbəsindən aldığımız məlumatda bildirilir.**



Qeyd olunur ki, tədbirlərdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi, layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər, proqramın gözlənilən faydaları, müraciət və iştirak qaydalarına dair iştirakçılara ətraflı məlumat veriləcək və onları maraqlandıran suallar cavablandırılacaq.

İctimai dinləmələr Daşkəsən rayonunda Yuxarı Daşkəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin inzibati binasında, Gədəbəy rayonunda isə Qazax–Tovuz Regional Məşğulluq filialının inzibati binasında keçiriləcək.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

# Rusiya Şimali Kiprdə konsulluq açır

**Rusiya Şimali Kipr Türk Respublikasında konsulluq açır.**

Bu barədə Rusiyanın Kiprdəki səfirliyindən açıqlama verilib.

Məlumata əsasən, konsulluq paytaxt Lefkoşa şəhərində fəaliyyət göstərəcək.

Qeyd edək ki, hazırda Şimali Kipr Türk Respublikasında 50 mindən çox rus yaşayır.

# “Azpetrol” müasir və daha funksional nağdsız ödəniş sisteminin tətbiqinə başlayıb

**Azərbaycanın ən böyük yanacaqdoldurma şəbəkəsinə malik olan “Azpetrol” şirkəti idarəetmə sisteminin təkmilləşdirilməsi, müasir innovasiyaların tətbiqi və nağdsız hesablaşmaların genişləndirilməsi sahəsində bir sıra yeniliklər tətbiq edib. Nağdsız hesablaşma dövriyyəsinin sürətlə artması, istismarda olan ödəniş cihazlarının, yanacaq kartlarının, müvafiq proqram təminatının (PT) yenilənməsi və mobil tətbiqin hazırlanmasını zəruri edib. Qeyd edək ki, “Azpetrol” şirkətində tətbiq olunan yeniliklərin başlıca məqsədi “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin icrası və nağd hesablaşmaların nağdsız hesablaşmalarla əvəzlənməsinə töhfə verməkdən ibarətdir.**




“Azpetrol” şirkətində nağdsız hesablaşmalar sisteminin təkmilləşdirilməsi və mobil idarəetmə sisteminə keçid 2023-cü ilin əvvəlindən başlayıb. Cəmi bir neçə ay ərzində dövriyyədə olan 100 000-ə yaxın yanacaq kartı yenilənib və müştərilərə ödənişsiz təqdim edilib , istismarda olan POS-terminallar isə “Verifone X990” cihazları ilə əvəzlənib. Yeni, çoxfunksiyalı “Verifone X990” portativ POS-terminal, təhlükəsiz tranzaksiyaların həyata keçirilməsi və platformanın genişləndirilməsi tələblərinə tam cavab verir. Bu cihaz, NFC (Near Field Communication) texnologiyası ilə təmassız ödənişləri həyata keçirməyə imkan verir.

Nağdsız hesablaşmaların həyata keçirilməsi üçün hazırlanan və istifadə olunan xüsusi proqram təminatı kartla əməliyyatların emalını sürətləndirir, şəxsi məlumatların qorunmasını təmin edir, əməliyyatların daha təhlükəsiz və etibarlı olmasına zəmanət verir. Bununla da, YDM ərazisində həyata keçirilən ödənişlər daha operativ, keyfiyyətli və təhlükəsizdir.

Yeni proqram təminatı ilə əməliyyatların həyata keçirilməsi üçün nəzərdə tutulan istifadəçi təlimatları ilə tanış olmaq məqsədilə linkə keçid edin: https://www.azpetrol.com/useruploads/Karttelimat.pdf

Daha bir yenilik isə, ilk dəfə olaraq “Azpetrol Online” mobil tətbiqinin (mobile application) istismara verilməsidir. Tətbiq həm “Android”, həm də “İOS” əməliyyat sistemlərini dəstəkləyir. Bununla da, müştərilər mobil tətbiq vasitəsilə yanacağın sərfiyyatı, istifadə olunan yanacağın növü və digər məlumatları dəyişdirmək və həmin dəyişiklikləri dərhal sistemdə görmək imkanı əldə edirlər. Mobil idarəetmə sisteminin istifadəsi istehlakçılarla “Baş ofis” əməkdaşları arasında təmasın minimuma endirilməsi və xidmətlərin daha çevik təşkil olunmasını təmin edir. Yeni, daha müasir və rahat sistemin tətbiqi nəticəsində “Azpetrol”un müştəri bazası daha da genişləndirilib və artıq 11 mini ötüb.

Yarandığı gündən, “Azpetrol” şirkətinin fəaliyyətinin başlıca məqsədi müştəri məmnuniyyətinin yüksək səviyyədə təmin edilməsi, dünyada tətbiq olunan yeniliklərin Azərbaycan istehlakçısına çatdırılması və ən son texnologiyaların tətbiqi və idarəetmə sisteminin daim müasirləşdirilməsi ilə ölkənin yanacaq bazarında liderlik mövqeyini möhkəmləndirməkdən ibarətdir. Hazırda “Azpetrol” brendi altında Azərbaycanın müxtəlif bölgələrində 100 yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir və bütün məntəqələrdə müasir nağdsız hesablaşmalar sistemi tətbiq edilib.

“Azpetrol “– Daim inkişafa doğru!

# İstiləşmə və su qıtlığı insanları hara aparır?

**Son 200 ildə qlobal istiləşməyə görə insanlar məsuliyyət daşıyır. İndi Yer kürəsi XIX əsrin sonlarında (Sənaye İnqilabından əvvəl) olduğundan 1,1°C və son 100 min ilin istənilən vaxtından daha istidir.**



Yüksələn temperatur isə gələcəkdə baş verəcək faciələrin xəbərçisidir. Çünki Yer kürəsi hər şeyin bir-biri ilə əlaqəli olduğu bir sistemdir, bir sahədəki dəyişikliklər digər sahələrdə dəyişikliklərə təsir edir. Hazırda iqlim dəyişikliyinin nəticələrinə şiddətli quraqlıqlar, su çatışmazlığı, güclü meşə yanğınları, dəniz səviyyəsinin qalxması, daşqınlar, qütb buzlaqlarının əriməsi, fəlakətli tufanlar və biomüxtəlifliyin itirilməsi və digərləri daxildir. Məsələn, dəniz səviyyəsinin qalxması və duzlu suyun torpağa təsirləri o həddə çatıb ki, adalarda yaşayan insanlar köçmək məcburiyyətində qalır. Uzun sürən quraqlıq və torpaqların şoranlaşması isə insanları aclıq təhlükəsi ilə üz-üzə qoyur.

Dəniz biomüxtəlifliyi üçün hətta, temperaturun 2 dərəcə istiləşməsi çox risklidir. Çünki, iqlim dəyişikliyi mərcan riflərinin yox olmasına və bəzi balıq növlərinin məhvinə səbəb olur. Nəticədə balıq ovu da azalır.

O insanların səhhətinə də təhlükə yaradır. Çox isti hava səbəbindən ölüm halları artır.

## Əsrin sonunadək istiləşmə 2,8°C artacaq

Birləşmiş Millətlər Təşkilatının hesabatlarında qeyd edilir ki, qlobal temperatur artımının 1,5°C-dən çox olmamaqla məhdudlaşdırılması bizə ən pis iqlim təsirlərindən qaçmağa və yaşamaq üçün əlverişli iqlimi saxlamağa kömək edəcək. Bununla belə, hazırkı araşdırmalar göstərir ki, bu əsrin sonunadək qlobal istiləşmə 2,8°C artacaq. Buna ən çox səbəb olan ölkələr Çin, ABŞ, Hindistan, Aİ, İndoneziya, Rusiya və Braziliyadır. 7 ölkə qlobal istixana qazının, təxminən, yarısının səbəbkarıdır.

## Su niyə çatışmır?

Su və iqlim dəyişikliyi ayrılmaz şəkildə bağlıdır. İqlim dəyişikliyi dünyanın su ehtiyatlarına kompleks təsir göstərir. Təkcə su qıtlığını deyil, həm də bununla bağlı fəlakətləri (məsələn, daşqınlar və quraqlıqlar) daha da gücləndirir, çünki artan temperatur yağışların yağıntı rejimini və bütün su dövranını pozur, dağlardakı buzları əridir. Bu səbəbdən də buzlaqlarda və qar örtüyündə saxlanılan su ehtiyatları XXI əsr ərzində azalacaq. İri dağ silsilələrinin ərimiş suları ilə təmin olunan bölgələrdə su problemi yaşanacaq. Məsələn, Hind, Braxmaputra və Yantzı kimi bəzi çaylar hələlik Himalaydakı buzlaqların əriməsi hesabına qidalanır. Buzlaqlar isə iqlimin istiləşməsi nəticəsində əvvəlki vəziyyətdə bərpa olunmur və onun sahəsi hər il azalır. 30-40 ildən sonra həmin çaylarda suyun səviyyəsi minimum həddə düşəcək. Bu ərazidə isə dünya əhalisinin ən azı 30 faizi yaşayır.

Amazon meşələrinin sürətlə qırılması və yandırılması isə bu çayın bir çox qollarının qurumasına səbəb olur. Oxşar vəziyyət digər regionlar, o cümlədən Azərbaycan üçün də xarakterikdir.

Ekspertlər qeyd edirlər ki, buzlaqların əriməsi (Antraktida buzlaqları da daxil olmaqla) dənizlərin səviyyəsinin qalxmasına səbəb olur. Bu da qrunt sularının daha da şoranlaşması, sahilyanı ərazilərdə insanlar və ekosistemlər üçün şirin suyun əlçatanlığını azaldır. Bu səbəbdən içməli su çatışmazlığından əziyyət çəkən regionların siyahısı genişlənir.

## 2 milyard insan sudan əziyyət çəkir

İçməli su mənbyi azaldığı bir vaxtda isə əhalinin sayı artır. Əhali artdıqca suya da tələb artır. Hazırda dünyada təxminən 2 milyard insanın təhlükəsiz içməli suya çıxışı yoxdur və dünya əhalisinin təxminən yarısı ilin müəyyən bir hissəsində ciddi su qıtlığı yaşayır. Bu rəqəmlərin artacağı və tendensiyanın iqlim dəyişikliyi və əhalinin artımı (WMO) ilə daha da şiddətlənəcəyi gözlənilir. Bildirilir ki, 2030-cu ildə planetimizin əhalisinin 47 faizi içməli su qıtlığından əziyyət çəkəcək.

Su qıtlığı, quraqlıq isə birbaşa kənd təsərrüfatına təsir edir. Planetimizin bir çox regionlarında yaşayış şəraitini pisləşdirir, ərzaq qıtlığı yaradır. Proqnozlara görə, 2050-ci ildə qarğıdalı, düyü və buğda məhsullarının istehsalı 25 faizədək azalacaq. Əhalinin sayı isə nəzərdə tutulan dövrdə 9 milyardı keçəcək. Yəni dünyada əhalinin sayı artacaq, su qıtlığı səbəbindən əsas kənd təsərrüfatı məhsullarının istehsalı azalacaq. Çünki istehlak edilən şirin suyun böyük hissəsi – orta hesabla təxminən 70 faizi kənd təsərrüfatında istifadə olunur.

Problemin yaranmasına digər səbəb isə insanların yemək alışqanlığının dəyişməsidir. Bu sizə qəribə gələ bilər. Məsələn, insanlar XXI əsrdə daha çox ət yeməyə başlayıblar. Bu zaman bir kiloqram ət istehsalı üçün tələb olunan suvarma suyunun həcmi 1 kiloqram meyvə yetişdirmək üçün tələb olunandan 7 dəfə çoxdur. Artan əhalinin bəslənməsi üçün fermerlər 60 faiz daha çox su istifadə etmək məcburiyyətindədir.

Üçüncü dünya ölkələrində sənayeləşmə və kənd təsərrüfatının kortəbii inkişafı və onların maliyyə mənbələrinin məhdudluğu problemi daha da ağırlaşdırır. Bu gün Hindistan və Braziliyada 1 kiloqram taxıl yetişdirmək üçün ABŞ və Çindən iki dəfə çox su istifadə olunur.

Ölkələrin həm də sənayesi sürətlə inkişaf edir. Aydındır ki, suya da tələbat artır.

## Səhralaşma prosesini də sürətləndirir

Su çatışmazlığı və onun yaratdığı quraqlıq isə yaşayış məskənlərini tədricən “cəhənnəmə” çevirir, səhralaşma prosesini sürətləndirir. Qlobal iqlim dəyişikliyi on milyonlarla insanı inkişaf etmiş ölkələrə miqrasiyasına təkan verir. Transsərhəd suları və su çatışmazlığı tədricən siyasi-iqtisadi təzyiq vasitəsinə çevrilir.

Bir sözlə su, yaxın dövrdə neftdən baha olacaq və hətta müharibələrə səbəb ola bilər. Bu, günün reallığıdır. Hətta havadan tes-tez barıt iyi gəlir. Məsələn, Nil çayının aşağı axında yerləşən və su ehtiyacının 90 faizindən artığını həmin çaydan təmin edən Misir Efiopiyanın Mavi Nil çayı üzərində tikdiyi su anbarı səbəbindən çox ciddi su və qida böhranı ilə üzləşəcəkdir.

Qahirə Nil çayının su həcmində hər hansısa bir dəyişikliyi “qırmız xətt” kimi görür. Çünki bu ölkə ərazisinin cəmi 3 faizini təşkil edən əkinə yararlı torpaqlarının ən azı 35 faizini itirməsi ilə nəticələnə bilərdi. Bu da 100 milyondan artıq əhalisi olan ölkə üçün fəlakətə çevrilərdi. Hətta bu vəziyyət Misirlə Efiopiya arasında az qala müharibəyə səbəb olacaqdı. Qahirə birbaşa müharibəyə girməsə də Efiopiya üsyançılarına hərtərəfli hərbi yardım göstərirdi.

Hazırda iki ölkə arasında müharibə təhlükəsi bu gün də qalmaqdadır.

İordan çayının içməli suyu İsrail, Fələstin, İordaniya və hətta Suriya arasında, Dəclə və Fərat çaylarının içməli suyu isə Türkiyə, İraq və Suriya arasında gələcəkdə ciddi problem yaradacaq. Bu cür nümunələr isə kifayət qədər çoxdur. Yalnız bir neçəsini xatırlatdıq. Göründüyü kimi, dünya ölkələri üçün bir əcəl zəngi o qədər uzaqda deyil.

Kimin nə deməsindən asılı olmayaraq, hazırda dünyada su qıtlığı özünü ciddi şəkildə göstərir. Unutmayaq ki, dünyada əhalinin sayı sürətlə artır, kənd təsərrüfatı və sənaye inkişaf edir, şəhərləşmə prosesi gedir, iqlim dəyişir, amma su mənbələri azalır. Su problemi beynəlxalq əməkdaşlıq yolu ilə həll olunmalı və bütün ölkələr qlobal su problemini birlikdə həll etməlidir. Hələ ki, gec deyil.

Gələcək inkişaf ilk növbədə ekoloji problemlərin, o cümlədən su probleminin həll olunmasından asılı olacaq. İndi hərəkətə keçilməlidir ki, sonralar milyardlarla vəsait xərclənməsin.

***Pünhan ƏFƏNDİYEV,***
***“Xalq qəzeti”***

# Bakıda böyük futbol axşamı

## Tamaşa məkanları – “Tofiq Bəhramov”, “Neftçi Arena” və “Bank Respublika Arena”

**10 avqust 2023-cü il. Bu tarixi yaxşı yadda saxlayaq. Azərbaycan futbolunda qeyri-adi tarixdir. İndiyə qədər paytaxtımızda heç vaxt eyni gündə, üstəlik də, eyni saatlarda Avropa miqyaslı turnirlərdə üç oyun olmamışdı və yəqin ki, bu hal bir daha təkrarlanmayacaq. Görünür, futbolumuzun 112 illik tarixinə belə bir gün də yazılmalıymış…**




Fakt artıq bu axşam gerçəkləşəcək. Bizə isə səbrli olub, bütün diqqətimizi unudulmaz hakimimiz Tofiq Bəhramovun adını daşıyan Respublika Stadionuna, “Neftçi Arena”ya və Masazır qəsəbəsindəki “Bank Respublika Arena”ya yönəldərək, hər üç komandamızı—“Qarabağ”, “Neftçi” və “Sabah”ı yaxından-uzaqdan yorulmadan, ürəkdən dəstəkləmək qalır.

Çempionlar Liqası turnirinin ikinci təsnifat mərhələsində Polşanın “Rakuv” klubu ilə mübarizədə “büdrəyən” və hazırda Avropa Liqasının üçüncü raund “döyüşləri” ərəfəsində olan Azərbaycan çempionu və avrokubokların qrup mərhələlərinin daimi iştirakçısı Ağdam komandası indi Finlandiyanın HİK (Helsinki) klubu ilə üz-üzə gələcək.

Polyaklarla rəqabətdə qeydə alınmış uğursuzluq “Qarabağ”ın sıralarında çaşqınlıq, ruh düşkünlüyü yarada bilməz. Çempion komandanın hər bir oyunçusu da, məşqçisi də, azarkeşi də yaxşı bilir ki, futbol gözlənilməz nəticələrlə zəngin oyundur, heç kim, hətta nəhəng klublar da uğursuzluqdan sığortalanmayıblar.

Deməli, dəfələrlə Azərbaycan çempionu və avrokubokların qrup mərhələsinin iştirakçısı son 15 ildə onu Avropaya yaxından tanıtmış baş məşqçi Qurban Qurbanovun rəhbərliyi ilə Finlandiya təmsilçisini mübarizədən kənarlaşdırıb, Avroliqada yoluna davam edə bilər. Bu yolda ilk addım bu axşam “Tofiq Bəhramov”da atılacaq. Ümid edək ki, sevinən tərəf biz olacağıq.

“Neftçi Arena”. Konfrans Liqasının üçüncü təsnifat mərhələsinin ilk oyunu. Həm də, qardaş ölkə komandalarının görüşü. “Neftçi” Bakı—“Beşiktaş” İstanbul. Rumıniyalı yeni baş məşqçimiz Adrian Mutunun komandası zəngin təcrübəli mütəxəssis Şenol Günəşin futbolçularına qarşı. Gözəl futbol vəd edən oyun. Saat 21-ə təyin edilmiş görüşdə ədaləti başda Lukas Fendrix olmaqla İsveçrə Futbol Federasiyasının hakimləri qoruyacaqlar. Onlara da, dost-rəqiblərə də məzmunlu oyun arzu edirik.

Elə buradaca zamanı bir qədər qabaqlayıb, avqustun 17-də İstanbulda keçiriləcək “Beşiktaş”–“Neftçi” cavab görüşünün avstriyalı Yulian Vaynbergerin başçılığı ilə qadın hakimlər briqadasına tapşırıldığını da diqqətə çatdıraq.

Masazırdakı “Bank Respublika Arena”da da bayram əhval-ruhiyyəsi yaşanır. “Konfrans”a Latviyanın kurort şəhəri Yurmalada özü haqqında kifayət qədər mübariz kollektiv təəssüratı yaratmış RFŞ komandası üzərində qələbə ilə başlayıb, sonra da bu uğuru Bakıda təkrar edən “Sabah” bu dəfə daha zəhmli rəqib—“Partizan” qarşısında imtahan verəcək. Belqrad klubunun təkcə vətəni Serbiyada yox, bütün Avropada yaxşı nüfuz sahibi olduğu isə heç kimə sirr deyil.

Bu komandaların Masazır qarşılaşmasının hakimliyi Georgi Kruaşvilinin başçılığı ilə gürcüstanlı hakimlər briqadasına həvalə olunmuşdur. Bu soyad mənə keçmiş SSRİ çempionatlarında dəfələrlə Bakıda “Neftçi”nin oyunlarında gördüyümüz və yaddaşımızda yaxşı bir hakim kimi qalmış tbilisili beynəlxalq dərəcəli hakim Karlo Kruaşvilini xatırladır. Bəlkə də, 37 yaşlı Georgi onun oğludur. O da ədalətli hakim kimi tanınır.

Təsəvvür etmək olar, Azərbaycanın bütün futbol pərəstişkarları bu axşamı necə böyük həyəcanla gözləyirlər. “Qarabağ”, “Neftçi” və “Sabah”a da elə möhkəm azarkeş fəallığı lazımdır. Onlar ölkə futbol ictimaiyyətinin böyük dəstəyi ilə öz sözlərini demək, avqustun 17-də Helsinki, İstanbul və Belqradda keçiriləcək cavab oyunları qarşısında ümumi müvəffəqiyyət üçün yaxşı zəmin yaratmaq əzmindədirlər…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Gürcüstanda təbii fəlakət qurbanlarının sayı 21-ə çatıb



**Gürcüstanın Oni bələdiyyəsindəki Şovi kurort zonasında baş verən təbii fəlakət zonasından daha iki nəfərin cəsədi tapılaraq aidiyyəti üzrə təhvil verilib.**

Bununla da təbii fəlakət nəticəsində ölənlərin sayı 21 nəfərə çatıb.

Gürcüstan Daxili İşlər Nazirliyindən verilən məlumata əsasən, fəlakət bölgəsində daha 12 nəfərin axtarışları davam etdirilir.

Xatırladaq ki, avqustun 3-də Oni bələdiyyəsinin Şovi kurort zonasında torpaq sürüşməsi olub. Nəticədə 21 nəfər ölüb, 26 nəfər yaralanıb, daha 12 nəfər isə itkin düşmüş sayılır.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC
tabeliyindəki idarələr üçün elektrik mallarının satın alınması məqsədilə
AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il avqustun 18-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- (012) 404-37-00, daxili:1177
Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 168 (30284) 10 avqust 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Avropa paralimpiya çempionatında 6-cı medal




**Azərbaycan təmsilçilərinin Niderlandın Rotterdam şəhərində keçirilən Avropa paralimpiya çempionatında uğurlu çıxışı davam edir.**

Azərbaycan Milli Paralimpiya Komitəsindən "Xalq qəzeti"nə bildirilib ki, qadın cüdoçumuz Xanım Hüseynova (70 kq) bütün rəqiblərinə qalib gələrək çempion adını qazanıb.

Bundan əvvəl Şəhanə Hacıyeva (48 kq) qızıl, Dürsədəf Kərimova (+70 kq), Namiq Abaslı (73 kq) gümüş, Xatirə İsmiyeva (+70 kq), İsmayıl Muradov (60 kq) bürünc medala sahib olublar.

## Dünya kuboku: Nicat Abasovdan heç-heçə

**Bakıda keçirilən şahmat üzrə Dünya Kubokunda 1\16 final mərhələsinin ilk oyunları keçirilib.**

Mötəbər yarışda mübarizəni davam etdirən yeganə şahmatçımız Nicat Abasov 1\16 finalda FIDE adından çıxış edən Pyotr Svidlerə rəqib olub.

Tərəflər debütdə vəzir qambiti seçiblər. Nicat Abasov növbəti gedişlərdə az rast gəlinən varianta üstünlük verib. Təmsilçimiz Pyotr Svidlerin oynadığı ağ fiqurların təşəbbüsü ələ almaq cəhdlərini asanlıqla neytrallaşdırıb. Yekunda partiya 37-ci gedişdə şahmatçıların heç-heçəyə razılaşması ilə başa çatıb.



Qeyd edək ki, cavab görüşü bu gün keçiriləcək.

## Ağırlıqqaldıranımız qızıl medal qazanıb



**Belarusda II MDB Oyunlarında Azərbaycan komandasının uğurlu çıxışı davam edir.**

Azərbaycan ağırlıqqaldıranı Dadaş Dadaşbəyli komandamızın aktivinə daha bir qızıl medal əlavə edib. İdmançı 109 kiloqram çəki dərəcəsində bütün rəqiblərini üstələyib. O, toplam 393 kq (177+216) nəticə ilə qalib adına layiq görülüb.

Bunun da, komandamızın qazandığı qızıl medalların sayı 6-ya çatıb. Azərbaycan ölkələrin medal sıralamasında 30 medalla 4-cü yerdə gedir.

Avqustun 15-dək davam edəcək yarışa ölkəmiz 16 idman növündə 177 idmançı ilə təmsil olunur.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri



## Beyin funksiyalarını sərgiləyən süni zəka modeli yaradılıb

**Kompüterdə ən mürəkkəb hesablamaları aparmaq mümkündür. Lakin insanlar üçün xeyli asan sayılan dağ və dənizi fərqləndirmək ən güclü süni zəka üçün xeyli giriş və enerji tələb edir.**

"ScienceDaily" saytı xəbər verir ki, Kaliforniya Universitetinin alimləri süni zəka modelinə insan beyninin tanıma mexanizmini köçürmək üçün tədqiqat aparıblar. Bu yolla alimlər iki şey əldə etməyi düşünürdülər: birinci, az enerji sərfiyyatına yol verməK; ikinci, insan beyni üçün asan, kompüter üçün çətin olan funksiyaları rahatlıqla yerinə yetirmək.

Kaliforniya Universitetinin alimləri bu işi yerinə yetirmək üçün iki mərhələli təcrübə həyata keçiriblər. Onlar əvvəlcə kvant mexanizmində bir tək beyin elementini təqlid etməkdə uğur qazanıblar. İkinci mərhələdə təqlid mexanizmini yeni növ cihaza ötürüblər və burada onu aktiv hala gətiriblər. Nəticədə beyni olduğu kimi təqlid edə bilən süni intellekt modeli ərsəyə gəlib.

*Aytən NƏCƏFOVA, "Xalq qəzeti"*



## Süni intellekt parolları ələ keçirə bilər

***Yeni araşdırma nəticəsində süni zəkanın şəxsi parolları sındıra biləcəyi bəlli olub.***

Belə ki, ABŞ-da aparılan son araşdırmalara görə, süni intellekt klaviaturadakı əsas səsləri dinləməklə parolların 95 faizini dəqiq təxmin edə bilir.

Qeyd olunur ki, tədqiqatçılar süni zəkanın klaviaturada hansı düymələri sıxacağını müəyyən etmək üçün "CoAtNet" adlı süni intellekt modelindən istifadə ediblər. Tədqiqatın nəticələri şəxsi məlumatların məxfiliyi baxımından narahatlıq doğurur.

Buna görə də süni intellektin köməyi ilə hazırlanacaq proqramlar milyonlarla istifadəçinin parollarını ələ keçirə bilər.

*F. HÜQUQQIZI, "Xalq qəzeti"*

Maraq dünyamız

## Koka ağacı və "Coca-Cola"

**Cənubi Amerikada geniş yayılan Koka ağacının yarpaqları kokain alkaloidi ilə zəngindir.**




Kokain insanın sinir sisteminə stimullaşdırıcı təsir göstərərək eyforiya halının yaranmasına səbəb olur. Koka ağacının bu xüsusiyyətinə görə bitkinin yarpaqlarını çeynəmək yerli əhali arasında geniş yayılmış və adət halını almışdır.

Bütün bunların Cola içkisi ilə nə əlaqəsi var?

"Coca-Cola" adındakı "coca" sözü məhz koka ağacından qaynaqlanır. Bu içkinin tərkibində ilkin reseptə əsasən 1903-cü ilə qədər koka ağacının yarpaqlarının ekstraktı istifadə edilmişdir. Tərkibində kokain olan kola içkilərini o illərdə insanlar baş və diş ağrısı zamanı geniş istifadə edərmişlər. Kokainin dünyada narkotik maddə olaraq qəbul edilməsindən sonra isə koka yarpaqlarının içkinin tərkibində istifadəsi rəsmi məlumatlara əsasən tamamilə dayandırılmışdır.

*F. SALMANOVA, "Xalq qəzeti"*

## Qədim güzgü çərçivəsi tapılıb

**"Jevish Nevs Syndicate" xəbər agentliyinin məlumatına görə, İsrailin Qədim Əsərlər İdarəsinin arxeoloqlarının rəhbərliyi ilə bir qrup məktəbli İsrailin Uşa şəhərində arxeoloji qazıntı işləri aparıblar. Qazıntı zamanı artefakt Bizans güzgüsünün çərçivəsinin qalığını tapıblar. Bu güzgü eramızın IV–VI əsrlərində "şər ruhlar"dan qorunmaq üçün istifadə edilirmiş.**



Bizans güzgüləri evdə - otağın girişi ilə üzbəüz divara asılırmış.

Qədim insanların mifik inancına görə, "şər ruhlar" güzgüdə əkslərini görəndə qorxub uçurlarmış. Belə güzgülər İslam dini yaranana qədər müxtəlif bölgələrdə yayılmışdı.

İnsanlar bu güzgü vasitəsilə gələcəkdən xəbər verməyi də sınamışdılar.

*Zülfiyyə QURBANƏLİQIZI, "Xalq qəzeti"*

## "Google" qeyri-aktiv hesabları siləcək

**"Google" istifadəçilərini qeyri-aktiv hesablar üçün yenilənmiş siyasət haqqında məlumatlandırmağa başlayıb. Belə ki, iki ildən artıq istifadə olunmayan hesabların silinəcəyi açıqlanıb.**



Şirkət 2023-cü il dekabrın 1-dən istifadəçi məlumatlarının qorunması və təhlükəsizliyini artırmaq məqsədilə bu addımı atmağı planlaşdırır. Əvvəlcə hesablara birdən çox xəbərdarlıq bildirişləri göndəriləcək. İstifadəçilər bu xatırlatma e-poçtlarını ən azı səkkiz ay əvvəl alacaq.

Silinəcək ilk hesablar istifadəçilərin yenicə açdıqları və sonra heç vaxt daxil olmadıqları hesablar olacaq. Bununla belə, aktiv "YouTube" kanalları ilə əlaqələndirilmiş, rəqəmsal alış-veriş üçün aktivləşdirilmiş və "Google Play Store" kimi mağazalardan endirilmiş proqramlarla əlaqəli hesablar silinməyəcək.

İstifadəçilər hesablarının silinməsinin qarşısını almaq üçün ən azı iki ildən bir şəxsi hesablarına daxil olmalı və ya "Google" xidmətindən istifadə etməlidirlər.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

Sağlamlıq

## Çinlilərin jenşenə bərabər tutduqları biyan

***İmmunoloq Andrey Perekopskinin fikrincə, qədim Çində şəfaçıların jenşen qədər qiymətləndirdikləri biyan kökü bir sıra xəstəliklərə çarədir. Onun fikrincə, biyan allergiya vermədiyinə görə, hətta uşaqlar və hamilə qadınlar da ondan istifadə edirlər.***



Bu bitkinin kökündə asparagin, qlisirizin, stearin, flavonoid, kumarin kimi faydalı maddələr və bir çox digər üzvi birləşmələr var. Biyan sink, mis, selen, kalium, alüminium, dəmir kimi minerallarla da zəngindir.

Biyan kökü tənəffüs yolları xəstəliklərinin müalicəsində geniş istifadə olunur. Aktiv maddələr bəlğəmi yumşaldır və onun atılmasına kömək edir. Bundan əlavə, biyan antimikrob və antiviral təsirlərə malikdir.

Biyan kökünün anti-sklerotik xüsusiyyətləri xolesterin səviyyəsini aşağı salır.

Kosmetikada biyan sızanaq, seboreya, ekzema, dermatit, sedef xəstəliyinin müalicəsində istifadə olunur.

Biyan çayı immuniteti gücləndirir, yuxunu yaxşılaşdırır. 2:1:1 həcm nisbətində biyan, limon balzamı və çobanyastığı götürülür. Üstünə qaynar su tökülür və beş-yeddi dəqiqə saxlanır, gündə üç dəfə yeməkdən bir saat əvvəl içilir.

Ürək çatışmazlığı, yüksək təzyiq, tromboz və həzm sistemi patologiyaları olan insanlara biyan komponentləri olan dərmanları içmək qadağandır.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz



## Hava isti olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, avqustun 10-da Bakıda və Abşeron yarımadasında yağmursuz keçəcək. Səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-şərq küləyi əsəcək. Gecə 23-28°, gündüz 35-39°, bəzi yerlərdə 41° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 27-28°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 28-29° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-28°, gündüz 36-41°, bəzi yerlərdə 42-43°, dağlarda gecə 16-21°, gündüz 29-34° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## "X"-in mübahisəli yozumları

**Elon Mask "rebrendinq" (brendin dəyişdirilməsi) prosesi zamanı "Twitter"in adını "X" olaraq dəyişib. Bəs ingilis əlifbasındakı bu hərfin özəlliyi nədir?**



Oksfordun İngilis dili lüğətində cəmi 308 min söz olsa da, yalnız 366 söz "X" hərfi ilə başlayır. Lakin onların çox az hissəsi xalq arasında işlənir. Buna baxmayaraq "X" hərfi ingilis dilində ən güclü və cəlbedici hərf sayılır.

Buna nümunə olaraq "X-Files", "X-Factor", "X-Men", "Generation X", "X-ray", "X-rated" və "planet X..." və s. göstərmək olar. Müasir mədəniyyət və sənaye sahələrində bu cür adlar naməlum, futuristik və ya təəccüblü bir şeyi ifadə etmək üçün qısa şəkildə istifadə olunur.

Digər tərəfdən isə hərfin forması hər hansı bir şeyi simvollaşdıra bilir – sevgidən yoxluğa, qadağaya və hətta ölüm işarəsinə qədər (kəllə və çarpaz sümüklər kimi). Samuel Consonun 1755-ci ildə tərtib etdiyi İngilis dili lüğətində "X" hərfi ilə heç bir sakson sözünün başlamadığı fikri yer alıb ki, bu da müəmmalıdır.

Bəlkə də elə bu səbəbdən İlon Mask "Twitter"in brend kimliyini bizi unikal edən çatışmazlıqlarımızı təcəssüm etdirdiyi üçün bu hərfi seçib.

Qeyd edək ki, saytın simvolik "mavi quş" loqosu da artıq mövcud deyil.

*Səadət RZAYEVA, "Xalq qəzeti"*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4872
SİFARİŞ 1943
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00